

# Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 aprel 2025-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU Qazaxıstanın Almatı Humanitar-İqtisadiyyat Universiteti ilə anlaşma memorandumu imzalayıb**

→Səh.4

**Üsküdar Universitetinin rektoru Jurnalistika fakültəsində**

→Səh.4

**Milli Məclisin üzvü Elnarə Akimova ilə tələbələrin görüşü keçirilib**

→Səh.5

**Audiovizual Şura BDU tələbələri üçün növbəti seminar təşkil edib**

→Səh.6

**BDU-da Doktorant, magistr və gənc tədqiqatçıların “Kimya və kimya texnologiyası” adlı IV Respublika elmi konfransı**

→Səh.8

**BDU-da Aprel döyüşlərinin ildönümü qeyd olunub**

→Səh.9

**İzmirdə BDU-nun həmtəşkilatçılığı ilə azərbaycanlılara qarşı törədilmiş soyqırımlara həsr olunmuş konfrans keçirilib**

→Səh.10



**BDU-da Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru ilə görüş**

→Səh.2



**Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri BDU-da**

→Səh.2



**BDU-da “Heydər Əliyev mühazirələri”: Milli Məclisin üzvü Rizvan Nəbiyevlə görüş**

→Səh.3



**Aqrar İnnovasiya Mərkəzinin “Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi” layihəsinin ilk “workshop”u keçirilib**

→Səh.3



**BDU-da “Code For Future” layihəsinin məzun günü**

→Səh.6



## Böyük alim, qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı – Zərifə xanım Əliyeva

***28 aprel Azərbaycan tibb elminin inkişafına misilsiz töhfələr vermiş, Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın anadan olmasından 102 il ötür.***

Akademik Zərifə Əliyevanın yaşadığı mənalı ömür yolu hər bir Azərbaycan vətəndaşı üçün həyat və mənəviyyat dərsi, kamillik, müdriklik məktəbidir. Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub. Bu sahəyə dair araşdırmalarının ilkin nəticələrini ümumiləşdirərək “Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti” mövzusunda doktorluq dissertasiyası yazıb. 1977-ci ildə ona tibb elmləri doktoru alimlik dərəcəsi verilib.

Gərgin və məhsuldar elmi fəaliyyətinə görə 1980-ci ildə Zərifə xanım Əliyeva “Əməkdar elm xadimi” fəxri adına layiq görülüb. Görkəmli alimin respublikanın iri sənaye müəssisələrində apardığı genişmiqyaslı elmi-tədqiqat işləri “Şin istehsalında gözün peşə patologiyası”, “Xroniki yod intoksikasiyası zamanı oftalmologiya” və “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” kimi dəyərli monoqrafiyalarında öz əksini tapıb. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə ona keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatı verilib. O, həmin mükafata layiq görülən ilk qadın alim idi.

Zərifə Əliyeva yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib.

Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq “Bilik” Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olub.

Zərifə xanım Əliyeva bütün bu elmi-ictimai fəaliyyətləri ilə yanaşı, həm də vəfalı ömür-gün yoldaşı, qayğıkeş ana, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ən yaxın silahdaşı, Vətən üçün layiqli övladlar böyütmüş ləyaqətli Ana idi. O, müstəqil Azərbaycanın son 200 ildə ən böyük qələbəsini qazanan, Müzəffər Ali Baş Komandan, Ulu Öndərin layiqli davamçısı İlham Əliyev kimi böyük dövlət xadimini Azərbaycan xalqına bəxş edib.

Zərifə xanım Əliyeva 1985-ci il aprelin 15-də Moskva şəhərində əbədiyyətə qovuşub.

Görkəmli ziyalı, elm xadimi, gözəl insan, vəfalı ömür-gün yoldaşı, qayğıkeş ana, bənzərsiz vətəndaş olan Zərifə Əliyevanın əziz xatirəsi hər bir azərbaycanlının qəlbində əbədi yaşayacaq!

## BDU Türkiyədə keçirilən ənənəvi “Kitabxana həftəsi”ndə təmsil olunub

→Səh.16

# BDU-da Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru ilə görüş

*Aprelin 9-da BDU-da Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru Abdulqafor Kirgizbayev ilə görüş olub.*



Rektor Elçin Babayev BDU-nun beynəlxalq əlaqələrində türkdilli dövlətlərin ali məktəbləri ilə münasibətlərin önəmli yer tutduğunu, son illər Özbəkistanın nüfuzlu elm və təhsil müəssisələri ilə sıx əlaqələrin yaradıldığını və inkişaf etdiyini diqqətə çatdırıb. O, BDU ilə Daşkənd Dövlət Pedaqoji Universiteti arasında iki il əvvəl imzalanan əməkdaşlıq müqaviləsinin qarşılıqlı əlaqələrin inkişafında xüsusi əhəmiyyət daşıdığını bildirib, təhsil sahəsi ilə yanaşı, xüsusilə müxtəlif elm sahələri üzrə birgə elmi tədqiqatların aparılmasının, ikili diplom proqramlarının imzalanmasının zəruri olduğunu diqqətə çatdırıb.

Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru Abdulqafor Kirgizbayev elm və təhsil sahəsində ortaq layihələrin hər iki universitetin inkişafına fayda verəcəyinə əminliyini ifadə edib, pedaqogika, psixologiya istiqamətləri üzrə geniş əməkdaşlıq imkanlarının olduğunu deyib.

Görüşdə iki ali təhsil müəssisəsi arasında ikili diplom proqramlarının inkişaf etdirilməsi, müəllim və tələbə mübadiləsinin sürətləndirilməsi, birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

# Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri BDU-da

*Aprelin 9-da BDU-da Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.*



Qonaqları salamlayan rektor Elçin Babayev ölkəmizin ərəb dövlətləri ilə uğurlu əməkdaşlıq, dostluq münasibətlərinə malik olduğunu qeyd edib. O bildirib ki, ərəb ölkələri ilə əlaqələrin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, hazırda bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Azərbaycan və ərəb dövlətləri beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərir.

Rektor Şərqşünaslıq fakültəsinin BDU-nun ən qədim fakültələrindən olduğunu diqqətə çatdırıb, fakültədə ərəb dilinin tədrisi, bu sahədə qazanılan uğurlar barədə məlumat verib. Rektor BDU-nun digər sahələr üzrə də əməkdaşlığa açıq olduğunu bildirib, ərəb ölkələrinin universitetləri ilə memorandumların imzalanması, ikili diplom proqramlarının hazırlanmasının əhəmiyyətindən söhbət açıb.

Səfir İssam bin Saleh əl-Cuteyli Azərbaycanla Səudiyyə Ərəbistanı arasında elm, təhsil sahəsindəki əməkdaşlığın ikitərəfli əlaqələrə böyük töhfə verdiyini vurğulayıb. Səudiyyə Ərəbistanı Krallığında fəaliyyət göstərən ali təhsil müəssisələri ilə BDU arasında əlaqələrin yaradılmasının universitetlər üçün geniş perspektivlər aça biləcəyini qeyd edib.

Görüşdə Səudiyyə Ərəbistanı Krallığında fəaliyyət göstərən universitetlərlə BDU arasında əlaqələrin yaradılması, memorandumların imzalanması, ikili diplom proqramlarının, tələbə-müəllim mübadiləsinin təşkili ilə bağlı müzakirələr aparılıb, ortaq layihələrin həyata keçirilməsinə dair təkliflər irəli sürülüb.

# BDU və "Bayraktar Texnologiya Azərbaycan" MMC arasında anlaşma memorandumu imzalanıb

*Aprelin 11-də BDU ilə "Bayraktar Texnologiya Azərbaycan" MMC arasında anlaşma memorandumu imzalanıb. Memorandumu BDU rektoru Elçin Babayev və "Bayraktar Texnologiya Azərbaycan" MMC-nin direktoru Hüseyin Topuz imzalayıblar.*

Mərasimdə çıxış edən rektor Elçin Babayev "Bayraktar Texnologiya Azərbaycan" şirkəti ilə kompüter mühəndisliyi, nanotexnologiyalar, İT, süni intellekt, kimya mühəndisliyi və digər istiqamətlərdə peşəkar kadr hazırlığında geniş əməkdaşlıq perspektivlərinin olduğunu qeyd edib. O, imzalanan memorandumun ortaq tədqiqatların aparılması, birgə tədbirlərin keçirilməsi, BDU tələbələri üçün təlim, təcrübəkeçmə, iş imkanları baxımından uğurlu olacağına əminliyini bildirib.

"Bayraktar Texnologiya Azərbaycan" MMC-nin direktoru Hüseyin Topuz da BDU ilə əməkdaşlıqdan gözləntilərin böyük olduğunu diqqətə çatdırıb.

Memoranduma əsasən, tərəflər tədris və təlim prosesinin təkmilləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə tədbirlər, layihə və tədqiqatlar həyata keçirəcəklər. Memorandumda birgə tədris fəaliyyətinin, təhsilalanlar, akademik və inzibati heyət üçün ortaq təlim proqramlarının təşkil edilməsi, təhsilalanlar üçün təcrübə imkanlarının yaradılması da əks olunub.

# BDU və Bolqarıstanın Neofit Rilski adına Cənub-Qərb Universiteti əməkdaşlıq memorandumu imzalayıb

*Aprelin 25-də BDU və Bolqarıstanın Neofit Rilski adına Cənub-Qərb Universiteti arasında elm, tədris və mədəniyyət sahələrində əməkdaşlığın gücləndirilməsinə dair anlaşma memorandumu imzalanıb.*

Rəsmi imzalanma mərasimi BDU-da keçirilib və tədbirdə hər iki universitetin rəhbər heyəti iştirak edib.

Memorandumu BDU-nun rektoru Elçin Babayev və Neofit Rilski adına Cənub-Qərb Universitetinin rektoru Nikolay Marin imzalayıblar. Sənəd qarşılıqlı hörmət, bərabər hüquqlar, səmimi məsləhətləşmələr və qarşılıqlı fayda prinsipləri əsasında tərəflər arasında elmi və akademik əlaqələrin möhkəmləndirilməsini, birgə fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutur.

İmzalanmış memorandum çərçivəsində tərəflər tələbə və müəllim mübadiləsinin həyata keçirilməsi, ortaq elmi tədqiqatların aparılması, birgə konfrans və seminarların təşkili, təhsil proqramlarının hazırlanması və ikili diplom imkanlarının inkişafı istiqamətində əməkdaşlıq edəcəklər.

Həmçinin, akademik və elmi resursların qarşılıqlı istifadəsi də nəzərdə tutulur.

Tədbir zamanı çıxış edən rektorlar universitetlər arasında əlaqələrin genişlənməsinin vacibliyini vurğulayıblar. Rektor Elçin Babayev qeyd edib ki, Bakı Dövlət Universiteti dünyanın aparıcı elm-tədris mərkəzləri ilə tərəfdaşlıq münasibətlərini genişləndirməkdə qərarlıdır. Rektor Nikolay Marin isə bu əməkdaşlığın hər iki universitet üçün yeni imkanlar yaradacağını və ortaq innovativ təşəbbüslərə zəmin yaradacağını bildirib.

Bu əməkdaşlıq sənədi BDU-nun beynəlxalq tərəfdaşlıq strategiyası çərçivəsində atdığı növbəti mühüm addımdır. Hər iki universitet yaxın gələcəkdə memoranduma əsaslanan konkret layihələrin həyata keçirilməsində qərarlı olduqlarını ifadə edib.

# BDU və Özbəkistanın Nəvai Dövlət Universiteti arasında anlaşma memorandumu imzalanıb

*Aprelin 25-də BDU və Özbəkistan Respublikasının Nəvai Dövlət Universiteti arasında anlaşma memorandumu imzalanıb.*

Sənədi BDU-nun rektoru Elçin Babayev və Nəvai Dövlət Universitetinin rektoru Mukhiddin Kalonov imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb. Əsası 1983-cü ildə qoyulmuş Nəvai Dövlət Universiteti Özbəkistanın nüfuzlu universitetlərindən biridir.

# BDU-da "Heydər Əliyev mühazirələri": Milli Məclisin üzvü Rizvan Nəbiyevlə görüş

***Aprelin 11-də BDU-nun Heydər Əliyev muzeyində "Heydər Əliyev mühazirələri" layihəsi çərçivəsində Milli Məclisin üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru Rizvan Nəbiyevlə görüş keçirilib.***

BDU-nun rektoru Elçin Babayev 2023-cü ildən başlayan və uğurla davam edən "Heydər Əliyev mühazirələri" layihəsi barəsində məlumat verib. Bildirib ki, "Heydər Əliyev İli" münasibətilə başlayan layihə çərçivəsində yüzlərlə gənc Ümummilli Liderin çoxşaxəli və zəngin irsi ilə tanış olub. Dahi Öndərin siyasi fəaliyyətinin bütün dövrləri və istiqamətləri üzrə dövlət xadimləri, siyasətçilər, ziyalılar və elm adamları tərəfindən mühazirələr aparılır: "Hazırda Azərbaycan özünün ən qüdrətli dövrünü yaşayır. Gənclərimiz tarixi qələbəmizə rəvac verən siyasi məktəbi



öyrənməli və həmin ənənələri sonrakı nəsillərə daşımalıdırlar".

Daha sonra Rizvan Nəbiyev "Heydər Əliyevin milli maraqlara söykənən çoxşaxəli xarici siyasət strategiyası" mövzusunda məruzə edib. O bildirib ki, Azərbaycan dövlətçiliyinin təməlinin qoyulması və möhkəmləndirilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir Azərbaycan dövləti Ümummilli Liderin siyasi kursu əsasında hərtərəfli inkişaf edərək, qüdrətli və qalib ölkəyə çevrilib. Məruzəçi xalqımızın milli maraqları, beynəlxalq hüquq normaları, praqmatik, realist prinsiplərə əsaslanan xarici siyasət xəttinin ölkəmizin əməkdaşlıq əlaqələrinin qurulması və regionun lider dövlətinə çevrilməsindəki rolunu diqqətə çatdırıb. Heydər Əliyevin müdriklik, uzaqgörənlik və dəqiqliklə müəyyənləşdirdiyi yeni enerji strategiyasının ölkəmizin hərtərəfli inkişafının əsaslarını qoyduğunu söyləyib: "Bu strategiyanın uğurla icrası beynəlxalq enerji şirkətlərinin Azərbaycanın neft, qaz yataqlarının işlənilməsinə cəlbi, xam neft və qazın daşınma yollarının şaxələndirilməsi, gəlirlərin səmərəli idarə olunması, rəqabətli insan kapitalının gücləndirilməsi və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını şərtləndirir. Gələcəyin daha güclü Azərbaycan modelinə inamı artırır".

Mühazirə interaktiv müzakirə sessiyası ilə davam edib.

# Aqrar İnnovasiya Mərkəzinin "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsinin ilk "workshop"u keçirilib



***Aprelin 16-da Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsinə start verilib.*** Layihənin keçirilməsində məqsəd kənd təsərrüfatı sahəsində innovasiyalardan və rəqəmsal texnologiyalardan istifadə etməklə süni intellektin tətbiqini təşviq etməkdir. Layihənin ilkin mərhələsi ali təhsil müəssisələrinin və innovativ təsərrüfatların seçilməsi, eləcə də kənd təsərrüfatının bitkiçilik, meyvəçilik, balıqçılıq, heyvandarlıq, bitki mühafizəsi və digər prioritet istiqamətləri üzrə fəaliyyət göstərən özəl şirkətlər tərəfindən süni intellektin tətbiqinə dair universitetlərdə "workshop"ların, aqroparklar və iri təsərrüfatlara infoturların təşkili formasında həyata keçirilir. Bu istiqamətdə ilk "workshop" aprelin 16-da Bakı Dövlət Universitetində (BDU) keçirilib.

Mərasimdə çıxış edən rektor Elçin Babayev "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsinin başlanğıc mərhələsinin BDU-da keçirilməsinin xüsusi önəm daşıdığını bildirib. O diqqətə çatdırıb ki, müasir dünyada süni intellekt yalnız texnologiyaların deyil, həyat tərzinin ayrılmaz hissəsinə çevrilməkdədir. Kənd təsərrüfatı isə bu transformasiyanın ən mühüm ünvanlarından biridir. Torpağın, suyun, təbiətin qorunaraq, ağıllı üsullarla idarə olunması günün əsas tələblərindəndir. "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsi də məhz bu çağırışlara cavab verməyi hədəfləyir: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə rəqəmsal inkişaf, innovasiyalar və aqrar sektorun müasirləşdirilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirilir. Bu siyasətin hədəfi rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı formalaşdırmaqdan, süni intellekti və rəqəmsallaşmanı iqtisadi inkişafın əsas təkanverici qüvvəsinə çevirməkdən ibarətdir. BDU da bu prosesin aktiv iştirakçısıdır. Süni intellekt, aqrar texnologiyalar və dayanıqlı inkişaf istiqamətlərində aparılan elmi-tədqiqat işləri, Universitetdə formalaşan intellektual mühit, müasir laboratoriyalar və təcrübə bazaları bu layihənin effektiv icrasına töhfə verəcək. BDU-nun tələbə və müəllimləri aqrar innovasiya xarakterli layihələri ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin mikro, kiçik və orta sahibkarlıq subyektlərinin təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi üçün elan etdiyi qrant müsabiqələrinin dəfələrlə qalibi olublar. BDU tələbələri son illərdə "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalında aqrar sahəyə yönəlmiş texnoloji həlləri ilə xüsusi fərqləniblər. 2023-cü ildə İstanbulda keçirilən "TEKNOFEST-2023"də BDU-nun "Humantek" komandası tərəfindən hazırlanmış "Ağıllı damla sulama sistemi" layihəsi "Aqrar texnologiyalar" kateqoriyasında III yerə layiq görülüb. 2024-cü ildə isə "TEKNOFEST-Adana"da BDU-nun "ESST-6" komandası aqrar sahəyə inteqrasiya oluna bilən ətraf mühitə uyğun ağıllı monitorinq sistemi ilə final mərhələsinə yüksəlib və III yerə layiq görülüb. BDU tələbələri tərəfindən hazırlanmış "Irrigo – Dayanıqlı Kənd Təsərrüfatı Ekosistemi" layihəsi "TEKNOFEST 2025"in Şimali Kipr Türk Cümhuriyyətində keçiriləcək final mərhələsinə vəsiqə qazanıb. Bu layihə tullantı sularının təmizlənməsi, yenidən emalı və kənd təsərrüfatında istifadəsi üçün yararlı hala gətirilməsi ilə yanaşı, "IoT" və "Ağıllı kənd" konsepsiyasını əhatə edən bir sıra innovativ həlləri özündə birləşdirir. Bu, BDU-da aqrar innovasiyalara yönəlmiş tədris və tədqiqat mühitinin formalaşdığını təsdiqləyir".

Rektor bildirib ki, "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsi ölkənin innovativ gələcəyini formalaşdırmaq üçün mühüm addımdır. Bu təşəbbüs ölkəmizin aqrar sektorunun intellektual əsaslarla inkişafına, ali təhsil müəssisələri ilə istehsalat arasında əməkdaşlığın dərinləşməsinə və gənclərin potensialının reallaşmasına xidmət edəcək, ağıllı kənd təsərrüfatına gedən yolda mühüm bir mərhələ olacaq.

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov elmi tədqiqatların, innovasiyaların kənd təsərrüfatında öz əksini tapmasının, elmi biliklərin kommersiyalaşdırılmasının mühüm əhəmiyyət kəsb etdiyini bildirib, BDU-dan bu sahədə gözləntilərin böyük olduğunu vurğulayıb. O, layihə çərçivəsində süni intellektin tətbiqi sahəsində əldə etdikləri nəzəri və praktiki bilgilər əsasında cari ilin 28-29 aprel tarixlərində Zəngilan rayonunun Ağalı kəndində "Bootcamp"ın təşkil ediləcəyini diqqətə çatdırıb. "Bootcamp"ın əsas məqsədlərindən biri işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafı üçün innovativ həllərə əsaslanan texnoloji yeniliklərin təşviqi, bu ərazilərdə yaşayan gənclərin aqrar innovasiyalar barəsində məlumatlılığının artırılması, aqrar sahədə fəaliyyət göstərən maraqlı tərəflər arasında təcrübə mübadiləsinin aparılması və qarşılıqlı faydalı işgüzar görüşlərin keçirilməsidir. Layihə çərçivəsində ali təhsil müəssisələrindən ibarət komandalar tərəfindən təklif olunan ağıllı və innovativ həllər seçilmiş özəl təsərrüfatlarda tətbiq olunacaq.

Asan İnnovasiyalar Mərkəzinin direktoru Vüsal Rüstəmov çıxışında bu cür layihələrin süni intellektin iqtisadiyyata effektiv tətbiq olunmasına təkan verəcəyini qeyd edib. O bildirib ki, ali təhsil müəssisələrinin, xüsusilə BDU-nun süni intellekt sahəsində böyük potensialı var. Özəl sektor bu potensialdan geniş istifadə edə bilər.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin tabeli qurumlarının, aqrar sahədə fəaliyyət göstərən iri aqroparkların rəhbər və mütəxəssisləri, gənclər arasında sahibkarlığın inkişafına dəstək göstərən innovasiya, o cümlədən inkubasiya və akselerasiya mərkəzlərinin rəhbərləri də iştirak ediblər.

Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun İdarə Heyətinin sədri Elmar Allahverdiyev, "Şabran -D" MMC-nin direktoru Şöhrət Məmmədov, "Agro Systems" MMC-nin direktoru Köçəri Məmmədov, "Grow Group Azerbaijan" MMC-nin baş aqronomu Emin Kara, Aqrar Kredit və İnkişaf Agentliyinin şöbə müdiri Ruslan Zeynal, "Enterprise Azerbaijan" portalının rəhbəri İsa Qasımov çıxışlarında kənd təsərrüfatında avtomatlaşdırılmış sistemlər və süni intellektin tətbiqinə dair fikirlərini bildirib, təmsil etdikləri qurumların bu sahədəki fəaliyyəti ilə iştirakçıları tanış ediblər.

# BDU-da ICESCO-nun elm və texnologiya üzrə müşaviri Məhəmməd Şərif ilə görüş

*Aprelin 25-də BDU-da İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) elm və texnologiya üzrə müşaviri Məhəmməd Şərif ilə görüş keçirilib.*



Rektor Elçin Babayev qonağı salamlayaraq, BDU-nun elmi potensialı, beynəlxalq əməkdaşlıq istiqamətində atdığı addımlar, xüsusilə də ICESCO ilə inkişaf etdirilən münasibətlər haqqında məlumat verib. O bildirib ki, BDU-nun nəzdində fəaliyyət göstərən ICESCO-nun Biotibbi materiallar kafedrası təşkilatla əməkdaşlığın dərinləşməsinə mühüm töhfə verir. Bu əməkdaşlığın qarşıdakı dövrdə daha da genişləndirilməsi məqsədilə birgə layihələrin, konfransların və təlim proqramlarının həyata keçirilməsi planlaşdırılır.

Məhəmməd Şərif öz çıxışında elm və texnologiya sahəsində ICESCO-nun həyata keçirdiyi təşəbbüslər, üzv ölkələrdə elmi inkişafın dəstəklənməsi və potensiallı tədqiqatçıların beynəlxalq arenaya çıxışı ilə bağlı prioritetlər barədə danışıb. O, Azərbaycanın elmi-təhsil müəssisələri ilə əməkdaşlığın ICESCO üçün xüsusi önəm daşıdığını qeyd edərək, BDU ilə qurulan əlaqələrin nümunəvi xarakter daşıdığını vurğulayıb.

Görüş çərçivəsində BDU ilə ICESCO arasında gələcək əməkdaşlıq imkanları, ortaq tədqiqat layihələrinin reallaşdırılması, startap təşəbbüslərinin dəstəklənməsi və tələbələrin innovasiya fəaliyyətlərinə cəlb olunması istiqamətində fikir mübadiləsi aparılıb.

# BDU və Qazaxıstanın Bolaşak Universiteti arasında anlaşma memorandumu imzalanıb

*Aprelin 24-də BDU və Qazaxıstan Respublikasının Bolaşak Universiteti arasında anlaşma memorandumu imzalanıb.*

Sənədi BDU-nun rektoru Elçin Babayev və Bolaşak Universitetinin rektoru Umirbek Umbetov imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1995-ci ildə qoyulmuş Bolaşak Universiteti Qazaxıstanın nüfuzlu universitetlərindən biridir.

# XİN-in mətbuat katibi Ayxan Hacızadə BDU-nun tələbələri ilə görüşüb

*Aprelin 24-də Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə Jurnalistika, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültələrinin tələbələri ilə görüşüb.*

Jurnalistika fakültəsinin dekanı, dosent Vüqar Əliyev mediada ixtisaslaşma sahələri arasında xarici siyasət jurnalistikasının xüsusi çəkiyə malik olduğunu bildirib. O diqqətə çatdırıb ki, gənc jurnalistlərin beynəlxalq aləmdə ölkənin maraqlarını müdafiə edə bilməsi, informasiya müharibəsində düzgün addım atması üçün tələbəlik dövründə belə görüşlərin keçirilməsi xüsusi əhəmiyyətə malikdir.

Sonra Ayxan Hacızadə "Xarici siyasətin kommunikasiyası və ictimai diplomatiya" mövzusunda geniş təqdimatla çıxış edib. Azərbaycan xarici siyasət konsepsiyası, bu sahədə kommunikasiya, yerli və xarici jurnalistlərlə işin qurulması, sosial media platformalarında fəaliyyət, rəqəmsal diplomatiya, ictimai diplomatiya, böhran vəziyyətlərində kommunikasiya məsələlərinə toxunan diplomat jurnalistlərin və ixtisasından asılı olmayaraq hər bir şəxsin öncə ölkəmizin mənafeyindən çıxış etməli olduğunu bildirib.

Ayxan Hacızadə həmçinin XİN-in "Diplomatiya könüllüləri" proqramı barəsində də məlumat verib. Gələcəkdə diplomatik istiqamətdə fəaliyyət göstərmək istəyən tələbələri bu proqramda iştirak etməyə dəvət edib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb, görüş interaktiv sessiya ilə başa çatıb.

# BDU və Türkiyənin Ərciyəz Universiteti arasında anlaşma memorandumu imzalanıb

*Aprelin 17-də BDU və Türkiyənin Ərciyəz Universiteti arasında anlaşma memorandumu imzalanıb.*

Sənədi BDU-nun rektoru Elçin Babayev və Ərciyəz Universitetinin rektoru Fatih Altun imzalayıblar.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramlar, tədris planları və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1978-ci ildə qoyulmuş Ərciyəz Universiteti Türkiyənin nüfuzlu universitetlərindən biridir. Ərciyəz Universiteti "QS Dünya Universitetləri Reytinqi"ndə 1201-1400-cü pillələrdə qərarlaşır.

# BDU Qazaxıstanın Almatı Humanitar-İqtisadiyyat Universiteti ilə anlaşma memorandumu imzalayıb

*Aprelin 2-də BDU və Qazaxıstan Respublikasının Almatı Humanitar-İqtisadiyyat Universiteti arasında anlaşma memorandumu imzalanıb.*

Sənədi BDU-nun rektoru Elçin Babayev və Almatı Humanitar-İqtisadiyyat Universitetinin rektoru Valeriy Korvyakov imzalayıblar.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Memorandumda həmçinin elmi jurnallarda birgə nəşrlərin, ortaq akademik proqramlar, tədris planları və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də öz əksini tapıb.

Əsası 1992-ci ildə qoyulmuş Almatı Humanitar-İqtisadiyyat Universiteti Qazaxıstanın nüfuzlu universitetlərindən biridir.

# Üsküdar Universitetinin rektoru Jurnalistika fakültəsində

*Aprelin 30-da Türkiyənin Üsküdar Universitetinin rektoru, professor Nazife Güngör Azərbaycana səfəri çərçivəsində Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb.*

Jurnalistika fakültəsinin dekanı, dosent Vüqar Əliyev BDU ilə Üsküdar Universiteti arasındakı birgə əməkdaşlığın günü-gündən inkişaf etdiyini və bu əlaqələrin təhsil, elmi tədqiqat sahələri, birgə elmi seminar və konfransların keçirilməsini əhatə etdiyini deyib. Həmçinin bildirib ki, qarşıdakı həftələrdə BDU və Üsküdar Universitetinin birgə təşkilatçılığı ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda beynəlxalq konfrans keçiriləcək.

Nazife Güngör informasiya, məlumat sıxlığının olduğu bir cəmiyyətdə jurnalistlərin üzərinə böyük yük düşdüyünü bildirib. Qeyd edib ki, müasir dövrdə media alətləri olduqca çoxdur, bunun müsbət cəhətləri ilə yanaşı, zərərli tərəfləri də var. Amma jurnalistlərin əsas peşəkarlığı doğrunu yanlışdan ayıra bilməkdədir. Yalnız bu halda informasiyalı cəmiyyətin tələbinə cavab vermək mümkündür: "Hazırda əksər hallarda məlumatlar dəqiqliyi yoxlanılmadan sürətlə yayılır. Bu isə xəbər kirliliyinə yol açır. Buna baxmayaraq, gənc jurnalistlər təqdim etdikləri məlumatda faktların doğruluğundan əmin olmalıdırlar. Əks halda həmin media sürət dövründə geri qala və qeyri-dəqiq mənbəyə çevrilə bilər. Xüsusilə media alətləri içərisində adi insanların məlumatları sürətlə yaydığı və əldə etdiyi sosial media şəbəkələrinə nəzarət etmək çox çətindir. İstər dövlət, istərsə də özəl nəzarət funksiyası bu sürətlə ayaqlaşa bilmir".

Görüş gənc jurnalistlərin qardaş ölkənin media təcrübəsinə dair suallarının cavablandırılması ilə müzakirə formatında davam edib.

# BDU-da "Heydər Əliyev mühazirələri": Milli Məclisin üzvü Sevinc Fətəliyeva ilə görüş




***Aprelin 24-də BDU-nun Heydər Əliyev Muzeyində "Heydər Əliyev mühazirələri" layihəsi çərçivəsində Milli Məclisin üzvü Sevinc Fətəliyeva ilə görüş keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Milli Məclisin üzvü Sevinc Fətəliyevanın fəaliyyəti haqqında məlumat verib, Universitetdə həyata keçirilən "Heydər Əliyev mühazirələri" layihəsinin əhəmiyyətindən danışıb.

Sonra millət vəkili Sevinc Fətəliyeva "Heydər Əliyev və suveren Azərbaycan" mövzusunda mühazirə ilə çıxış edib. O bildirib ki, müstəqil Azərbaycan dövləti uğurlu xarici siyasət həyata keçirir. Bu siyasət Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilib və Prezident İlham Əliyev tərəfindən yüksək peşəkarlıqla həyata keçirilir: "Ulu Öndər azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Məhz Ümummilli Liderin siyasi kursu sayəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynayıb və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. Azərbaycan həmişə müstəqil xarici siyasətini yalnız ölkəmizin milli maraqları əsasında aparıb və aparacaq. Azərbaycanın digər dövlətlərlə mehriban qonşuluq münasibətləri həmişə qarşılıqlı faydalı münasibətlər prinsipi üzərində qurulub. Qazanılan uğurlar, torpaqlarımızın işğaldan azad olunması isə regionda yeni vəziyyət yaradıb. Bu amil Azərbaycanın beynəlxalq aləmdə mövqeyini daha da gücləndirib".

Deputat bildirib ki, Ümummilli Lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli bir dövrünü yaşayır.

# Milli Məclisin üzvü Elnarə Akimova ilə tələbələrin görüşü keçirilib



***Aprelin 23-də BDU-nun "BDU könüllüləri" təşkilatı, Tələbə Gənclər Təşkilatı (TGT) və Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) birgə təşkilatçılığı ilə Milli Məclisin üzvü, BDU-nun məzunu Elnarə Akimova ilə tələbələrin görüşü keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov belə görüşlərin tələbə gənclərin inkişafı baxımından faydalı olduğunu deyib. Bildirib ki, tanınmış insanların uğur hekayələri həyatın növbəti mərhələlərində, karyera planlamasında faydalı ola bilər. Daha sonra Elnarə Akimova "Ədəbi tənqid və uşaq ədəbiyyatı" mövzusunda çıxış edərək, uşaqların oxu mədəniyyətinin artırılmasının önəmindən söz açıb. Azərbaycanda dövlət uşaq siyasəti və uşaq ədəbiyyatının mövcud durumu, qarşıda dayanan çağırışlar barədə məlumat verib: "Uşaq ədəbiyyatı böyük ədəbiyyatın bir qoludur və bədii yaradıcılığın spesifik sahəsidir. Onun özünəməxsusluğu qorunub saxlanmalıdır. Qalib ölkənin uşaqları üçün məhz həmin ruhda ədəbiyyatın inkişaf etdirilməsi əsas prioritetlərdən olmalıdır".

Daha sonra tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev BDU-da mühazirə deyib



***Aprelin 30-da BDU-da "Heydər Əliyev mühazirələri" layihəsi çərçivəsində YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyevin "Heydər Əliyev ideyalarının müasir dövrdə reallaşması və davamlılığı" mövzusunda mühazirəsi keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Bəxtiyar Nəbiyevin fəaliyyəti haqqında məlumat verib, Universitetdə keçirilən "Heydər Əliyev mühazirələri" layihəsinin əhəmiyyətindən danışıb.

Daha sonra məruzə ilə çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi zamanı xalqın rifahının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik misilsiz işlər görülüb. Bu gün müasir, müstəqil Azərbaycan Ulu Öndərin ideyaları əsasında inkişaf edir. Ümummilli Liderin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz erməni işğalına son qoydu, suverenliyimizi bərqərar elədi, regionda yeni siyasi reallıq yaratdı. Bütün bunların fövqündə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən, güclü siyasi iradəyə söykənən müstəqil strateji kurs dayanır.

Bəxtiyar Nəbiyev qeyd edib ki, fəaliyyətinin hər dövründə Ulu Öndərin müqəddəs istəyi xalqın birliyinə söykənən güclü, möhtəşəm, qüdrətli dövlətin yaradılması olub. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Ümummilli Liderin səmərəli fəaliyyəti sayəsində mümkün olub.

Daha sonra qonaq tələbələrin mövzu ilə bağlı suallarını cavablandırıb.

# BDU nümayəndələrinin "Grand Agro Invitro" şirkətində işgüzar görüşü

***Aprelin 24-də BDU-nun nəzdində fəaliyyət göstərən Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Hüceyrə kulturası və genom redaktəsi elmi-tədqiqat laboratoriyasının müdiri Qumru Hüseynova və laboratoriyanın elmi işçisi Elvira Təhməzli "Grand Agro Invitro" şirkətində işgüzar səfərdə olublar.***

Görüş zamanı BDU nümayəndələri şirkətin rəhbəri Ramil Əlməmmədov, satış və marketinq üzrə rəhbər Oktay Mehdiyev, İnsan resursları şöbəsinin rəhbəri Könül Paşayeva və laboratoriya istehsalatı üzrə rəhbər Çingiz Balazadə ilə görüşüblər.

BDU əməkdaşları şirkətin fəaliyyəti, istehsal prosesi və mövcud texnoloji imkanları ilə yerində tanış olub, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq imkanlarını müzakirə ediblər. Görüş zamanı gələcəkdə birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi, təcrübə mübadiləsi və innovativ təşəbbüslərin reallaşdırılması istiqamətində ilkin razılaşmalar əldə olunub.

Bu cür görüşlər universitet-sənaye əməkdaşlığının inkişafına təkan verir, elmi biliklərin tətbiqi, gənc mütəxəssislərin təcrübə imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

# BDU-nun Psixoloji yardım sektorunun psixoloqu "Hədəf" liseyində təlim keçib



***Aprelin 24-də BDU-nun Psixoloji yardım sektorunun (PYS) psixoloqu İlkanə Mənsumova "Analar liseydə" layihəsi çərçivəsində "Hədəf" liseyinin müəllim və valideynlərinə "Uşağın inkişafında valideynlik üslublarının rolu" mövzusunda təlim keçib.***

Psixoloq valideynlərə "valideynlik üslubları" anlayışı barədə məlumat verib. Qeyd edib ki, bu, valideynlərin övladlarına qarşı sərgilədikləri davranış və tərbiyə metodlarını təsvir edən psixoloji anlayışdır. Bu üslublar uşağın inkişafına, şəxsiyyətinin formalaşmasına və sosial bacarıqlarına əhəmiyyətli dərəcədə təsir göstərir. O, dörd (avtoritar, demokratik, icazəverici, laqeyd) əsas valideynlik üslubu, onların xüsusiyyətləri və uşaqların şəxsiyyətinin formalaşmasına müsbət və mənfi təsirini konkret nümunələrlə izah edib.

Sonda isə valideyn-övlad münasibətlərində güclü bağ qurmağın yolları və önəmi müzakirə olunub. Valideynlərin uşaqların psixososial inkişafındakı rolu, onların emosional stabillik və sosial bacarıqlarının inkişafında necə təsir göstərdiyi haqqında fikir mübadiləsi aparılıb.

# BDU-da "Code For Future" layihəsinin məzun günü

***Aprelin 24-də BDU-da "Code For Future" layihəsinin növbəti məzun günü keçirilib.***

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Elm və Təhsil Nazirliyi tərəfindən keçirilən "Code For Future" layihəsinin yalnız Universitet deyil, bütün ölkə üçün önəmli olduğunu deyib. Bildirib ki, ali təhsil müəssisələrinin məqsədi əmək bazarının tələblərinə cavab verən kadrlar hazırlamaqdır. Bu layihə də həmin məqsədə xidmət edir və uğurla icra edilir: "Universitetimizdə "Code For Future"dən sonra "DevEducation" İT kolleci, "Codelandia" kimi layihələr tələbələrimiz üçün yeni imkanlar açıb. Bütün bu təşəbbüslərin keçirilməsində və davam etdirilməsində göstərilən dəstəyə görə Elm və Təhsil Nazirliyinə təşəkkür edirik".



BDU rektorunun rəqəmsallaşdırma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova "Code For Future" layihəsinin 2021-ci ildən uğurla icra olunduğunu və tələbələrin İT biliklərinin artırılmasında böyük rol oynadığını vurğulayıb. Qeyd edib ki, layihənin ötənilki məzunları bu gün həmin layihədə müəllim kimi tədris prosesinə cəlb olunublar. Layihənin uğurlu nəticəsi məzunların 90%-dən çoxunun məşğulluq prosesinə cəlb olunmasıdır. Bu, həm də davamlılığın nəticəsidir. Artıq VI sənaye inqilabının astanasında olan və süni intellekt ilə əhatə olunan dünyada sürətlə inkişaf edən İT sahəsi tələbat deyil, zərurətdir: ""Code For Future" layihəsinin məzunlarını BDU-da yüksəkixtisaslı kadr potensialının artırılması işində yaxından iştirakını görməyi arzu edirik". "Code Academy"nin biznesin inkişafı üzrə baş direktoru və Akademik şöbənin rəhbəri Tuğrul Kapucuoğlu üç ildən çoxdur davam edən layihənin nəticələri ilə qürur duyduğunu deyib. O bildirib ki, bu illər ərzində ölkənin 6 üniversiteti üzrə 3 minə yaxın tələbəsi olan "Code For Future"nin məzunlarının əldə etdiyi beynəlxalq sertifikatlar uğurdan xəbər verir: "Məzunlarımıza və layihəmizə qoşulacaq yeni tələbələrə uğurlar arzulayırıq".

"Code For Future" layihəsinin ötən proqramlarının məzunu olan Elnur Hüseynov uğur hekayəsini bölüşüb, layihədən maksimum yararlanmağı tövsiyə edib.

"Code For Future" layihəsinin baş koordinatoru Asya Rüstəmova Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya tərəfindən layihənin mindən çox məzunu arasında apardığı statistik məlumatlardan ibarət təqdimatla çıxış edib. Bildirib ki, 2021-ci ildən "Code For Future" layihəsinin 2658 məzunu olub ki, onun da 515 nəfəri BDU-nun tələbə və məzunlarıdır. 150 tələbə də beynəlxalq sertifikat əldə edib ki, bu da çox yüksək nəticədir.

Daha sonra layihə çərçivəsində tədrisi başa vuran BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin və SABAH qruplarının "Kompüter elmləri" ixtisasının III kurs tələbələri İzafə Tağıyeva və Ayla Atakişiyevanın hazırladıqları layihələrin təqdimatı keçirilib.

Tədbirin sonunda "Code For Future"nin məzunu olan BDU tələbələrinə sertifikatlar təqdim olunub.

# Türkiyənin Kocaeli Universitetinin professoru BDU-da elmi seminar keçib

***Aprelin 23-də Fizika və Mexanika-riyaziyyat fakültələrinin birgə elmi seminarı keçirilib. Onlayn formatda keçirilən elmi seminarda Türkiyənin Kocaeli Universitetinin professoru, BDU-nun Fizika fakültəsinin məzunu Elşən Vəliyev "Kvark-qlüon plazmasına faza keçidinə yaxın temperaturlarda hadron parametrlərinin tədqiqi" mövzusunda məruzə edib.***

Məruzəçi bildirib ki, güclü qarşılıqlı təsirin kvantxromodinamikası nəzəriyyəsinə görə, maddə müəyyən böhran temperaturunda və böyük sıxlıqlarda kvark və qlüonlara ayrılaraq, maddənin yeni halı kimi qəbul edilən kvark-qlüon plazmasına keçir. Nəzəriyyəyə görə, Böyük Partlayışdan təqribən bir neçə mikro saniyə



sonra, temperatur trilyon dərəcə tərtibində olduqda, kainatdakı maddə kvark-qlüon plazması halında olub. Neytron ulduzu kimi təbii mühitlərdə də kvark-qlüon plazması mövcud ola bilər, belə ki, neytron ulduzlarının nüvəsində maddə yüksək enerjiyə malikdir. Laboratoriya şəraitində nuklonların yüksək enerjili ağır ionlarla toqquşmalarında da kvarkqlüon plazması yarana bilər. Bu toqquşmalarda yaranan temperatur təqribən iki trilyon dərəcə olur. Bu, Günəşin mərkəzindəki temperaturdan yüz min dəfə çoxdur. İsveçrədəki Avropa Nüvə Tədqiqatları Mərkəzi (CERN) və Amerikadakı Brookhaven Milli Laboratoriyasında aparılan eksperimentlərdə kvark-qlüon plazmasının varlığı sübut edilib. Ağır ionların toqquşması nəticəsində yaranan kvark-qlüon plazması birbaşa müşahidə oluna bilmir və sürətlə soyuyaraq hadronlar adlanan zərrəciklər yaradır. Bu hadronlar bir-biri ilə qarşılıqlı təsirdə olaraq digər zərrəciklərə çevrilir. Bir sıra transformasiyalardan sonra yaranan bu zərrəciklər detektorlara yönəldilir. Ağır ionların toqquşmasına dair eksperimentlərin təhlili və təcrübi nəticələrin düzgün analizi üçün maddi mühitdəki hadron parametrlərinin tapılması mühüm əhəmiyyət kəsb edir.

Elşən Vəliyev bildirib ki, o, hadron parametrlərinin mühitin temperaturundan asılı olaraq necə dəyişdiyini nəzəri olaraq araşdırıb. Təhlillər göstərir ki, faza keçidinə yaxın temperaturlarda hadron parametrləri kəskin şəkildə dəyişir. Hadron parametrlərinin temperaturdan asılı olaraq dəyişməsi maddənin faza diaqramının, yəni, normal hadron halından kvark-qlüon plazmasına keçidin öyrənilməsində mühüm rol oynayır.

Sonda seminar mövzu ətrafında müzakirələrlə başa çatıb.

# Audiovizual Şura BDU tələbələri üçün növbəti seminar təşkil edib

***Aprelin 23-də Audiovizual Şura Jurnalistika fakültəsinin tələbələri üçün növbəti seminar təşkil edib. Tədbir BDU, Audiovizual Şura, Medianın İnkişafı Agentliyi arasında imzalanmış anlaşma memorandumu çərçivəsində keçirilib.***

Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri, dosent Aynur Nəsirova audiovizual media və onun tənzimləməsi məsələlərinin öyrənilməsinin vacib olduğunu, gənc jurnalistlərin bu istiqamətdə məlumatlılığının artırılması istiqamətində işlərin davam etdiriləcəyini qeyd edib.



Audiovizual Şuranın Kommunikasiya sektorunun müdiri Taleh Quliyev seminarın audiovizual medianın qanunvericiliyə uyğun tənzimlənmə formalarının öyrənilməsinə xidmət etdiyini söyləyib. O, həmçinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QİƏT) üzv ölkələrin televiziya və radio yayımı üzrə tənzimləyici orqanlarının Forumunun (BRAF) "Media xidmətlərində uşaqların müdafiəsi" mövzusunda 11-ci toplantısının yekunları barədə danışıb.

Audiovizual Şuranın Hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi Ayxan Sadıqlı "Mediada uşaq hüquqlarının qorunması" mövzusu ilə bağlı geniş təqdimatla çıxış edib. O qeyd edib ki, "Media haqqında" Qanun ilə tənzimlənən audiovizual, çap və onlayn media subyektlərinin fəaliyyətinə nəzarəti Şura və Medianın İnkişafı Agentliyi reallaşdırır. Həmçinin "Uşaq hüquqları haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlar da bu məsələnin tənzimlənməsində rol oynayır.

Seminar tələbələrin çoxsaylı suallarının cavablandırılması ilə başa çatıb.

# BDU-da Xəzərin cənub-qərb sahilində quşların trofik və biotopik əlaqələrinə dair tədqiqatlar aparılır

***Aprelin 22-də Biologiya fakültəsinin Zoologiya və fiziologiya kafedrasının müdiri Əbülfəz Tağıyevin "Xəzərin cənub-qərb sahilində quşların trofik və biotopik əlaqələri" mövzusunda elmi seminarı keçirilib.***

Məruzəçi qeyd edib ki, 2015-2024-cü illəri əhatə edən tədqiqatlar Abşeron, Şirvan, Qızılağac Milli parkları, Kür çayı deltasında aparılıb. Tədqiqatın nəticələrinə əsasən, Xəzərdə suyun səviyyəsinin enməsi quşların yem bazasına, populyasiya quruluşuna və məskunlaşma arealına ciddi təsir göstərib. Bəzi növlərin (məsələn, Microcarbo pygmaeus, Nycticorax nycticorax və s.) çoxalma davranışında əhəmiyyətli dəyişikliklər baş verib, onlar yeni ərazilərdə – tarlaqoruyucu meşə zolaqlarında koloniyalar şəklində yuvalamağa başlayıb. Bu dəyişikliklərin biomüxtəlifliyin idarə olunması və qorunması baxımından əhəmiyyəti vurğulanıb.

Tədqiqatlarda 13 dəstəyə aid 126 növ quşun reproduksiya və qışlama dövrlərində trofik və biotopik əlaqələri GIS texnologiyası vasitəsilə xəritələndirilib və təhlil olunub. Eyni zamanda, Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş 22 nadir quş növünün də müşahidə edildiyi bildirilib.

## BDU-nun magistrantlarına Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda innovativ tədris metodları ilə dərs keçilir

*Aprelin 23-də Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun İdarə Heyətinin sədri Elmar Allahverdiyev dövlət-özəl əməkdaşlığı çərçivəsində Ekologiya və torpaqşünaslıq fakültəsində tədris prosesinə dəvət olunub.*

O, "Torpaqşünaslıq və aqrokimya" ixtisasının "Aqrokimya" ixtisaslaşması üzrə I kurs magistrantlarına tədris etdiyi "Tərəvəzçilikdə bitkilərin qidalanması və gübrələnməsi" fənninin mühazirə və laboratoriya dərslərini Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda innovativ tədris metodları ilə keçib.



Magistrantlar İnstitutun Funksional analizlər laboratoriyasında müxtəlif səpkili torpaq analizlərinin aparılmasında iştirak ediblər. Tələbələrə müasir laboratoriya avadanlıqları haqqında məlumat verilib, onlardan istifadə etmək üçün ilkin təlimlər keçirilib. Magistrantlar torpaqda pH, EC analizləri, Kjeldahl metodu ilə azotun təyini analizlərini uğurla həyata keçiriblər. Sonra magistrantlar İnstitutun digər şöbə və laboratoriyalarında aparılan elmi-tədqiqat işləri, toxum emalı prosesi və istixana şəraitində seleksiya işləri ilə tanış olublar.

## Özbəkistanlı alim BDU tələbələrinə ustad dərsi keçib

*Aprelin 23-də Daşkənd Dövlət Nəqliyyat Universitetinin Fəlsəfə kafedrasının müdiri, fəlsəfə elmləri doktoru Jumaniyaz Ramatov Sosial elmlər və psixologiya fakültəsinin "Fəlsəfə" ixtisasında təhsil alan III kurs tələbələrinə "Fəlsəfi antropologiyanın aktual problemləri" mövzusunda ustad dərsi keçib.*

Tədbirdə BDU-nun Fəlsəfə kafedrasının professor-müəllim heyəti, Türk Akademiyasının eksperti, professor Əbülfəz Süleymanlı və Qırğızıstan-Türkiyə Manas Universitetinin Sosiologiya kafedrasının müəllimi, doktor Ali Ünal da iştirak ediblər. Jumaniyaz Ramatov öz çıxışında antropologiya problemlərinin mühüm idraki-qnoseoloji, metodoloji əhəmiyyət kəsb etdiyini deyib. Bildirib ki, insan sosial sistemlərin əsas komponenti, ictimai münasibətlərin daşıyıcısı, cəmiyyətin başlıca məhsuldar qüvvəsi, tarixi prosesin subyekti və hərəkətverici qüvvəsi və digər kontekstlərdə tədqiq olunur. Fəlsəfi antropologiya insanın cəmiyyətlə olan əlaqələrini fəlsəfi baxımdan araşdıran bir elm sahəsi kimi çoxsaylı aktual problem və sualları gündəmə gətirir. Jumaniyaz Ramatov fəlsəfi antropologiyada mövcud olan insanın fərdiyyəti və təbiəti məsələsi, azad iradə və determinizm, mədəniyyət və cəmiyyətin insanın təbiətinə təsiri, insanın mənəvi və əxlaqi təbiəti, insan və texnologiyanın əlaqəsi, insanın mövcudluğu və həyatının mənası, həmçinin sosial-mədəni mühitin insanın formalaşmasındakı rolunu qeyd edib.

Ustad dərsində belə mövzuların tələbələrin fəlsəfi düşüncə bacarıqlarını inkişaf etdirməklə yanaşı, onları müasir fəlsəfi problemlərə daha dərindən yanaşmağa sövq etdiyi bildirilib.

## Dayanıqlı İnkişaf Məqsədlərinin tədris və tədqiqata inteqrasiyasına dair növbəti təlim

*Aprelin 24-də BDU-da ali təhsildə Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) tədris və tədqiqat proseslərinə effektiv inteqrasiyasını təşviq etmək məqsədilə növbəti təlim keçirilib.*

Universitetin Keyfiyyət Təminatı Mərkəzinin təşəbbüsü və rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasovun rəhbərliyi ilə keçirilən təlimdə iştirakçılara Birləşmiş Millətlər Təşkilatı tərəfindən müəyyən edilmiş 17 DİM-in ali təhsildə rolu, bu məqsədlərin tədris və elmi-tədqiqat fəaliyyətlərinə inteqrasiyası, eləcə də beynəlxalq təcrübədə tətbiq olunan qabaqcıl metodologiyalar haqqında ətraflı məlumat təqdim olunub.

Təlimin interaktiv formatı iştirakçılar arasında aktiv müzakirələrə imkan yaradıb. Müzakirələr zamanı BDU-nun strateji inkişaf istiqamətlərinin DİM-lərlə uzlaşdırılması, ali təhsildə keyfiyyət təminatı mexanizmlərinin davamlı inkişaf prinsiplərinə uyğunlaşdırılması və bu istiqamətdə qarşıda duran vəzifələr geniş şəkildə nəzərdən keçirilib.

Bu təşəbbüs BDU-nun ali təhsildə qlobal çağırışlara cavab verən, dayanıqlı və məsuliyyətli yanaşmanı dəstəkləyən institusional fəaliyyətinin mühüm bir hissəsi olaraq qiymətləndirilir.

## Özbək alimləri BDU-da Azərbaycan dili və ədəbiyyatının tədrisi ilə tanış olublar

*Aprelin 21-də Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin daha bir qrup alimi Filologiya fakültəsinin qonağı olub.*

Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin Mənəviyyatın əsasları və hüquq təhsili kafedrasının müdiri Nadira Akayeva, həmin kafedranın professorları Marhabo Sobirova və Umida Niğmanova, dosenti Dilorom Xocayeva, Özbək dili və onun tədrisi metodikası kafedrasının professoru Saodat Adilova Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının fəaliyyəti ilə yaxından tanış olub, elmi-pedaqoji fəaliyyətləri haqqında məlumat verib, qarşılıqlı əməkdaşlığa dair fikir mübadiləsi aparıblar.

Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri, professor Mətanət Abdullayeva və dosent Rəhilə Quliyeva səfərin əhəmiyyətini yüksək dəyərləndirib, qonaqlara kafedranın tarixi, tədris və tədqiqat istiqamətləri haqqında məlumat veriblər. Görüşdə ortaq akademik tədbirlərin təşkili, xüsusilə metodika sahəsinə dair birgə dərsliklərin hazırlanması ilə bağlı müzakirələr aparılıb.

Sonra özbək alimlər Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının hazırda pedaqoji təcrübə keçən II kurs magistrantı Fidan Abdullayevanın "Köməkçi nitq hissələrinin tədrisi" mövzusunda mühazirə dərsində iştirak ediblər.

## BDU-da "Liderlik nədir? - yeni nəsil yanaşma" mövzusunda tədbir keçirilib

*Aprelin 24-də BDU-da "BDU könüllüləri" təşkilatı və "AIESEC Azərbaycan" beynəlxalq gənclər təşkilatının birgə təşkilatçılığı ilə "Liderlik nədir? - Yeni nəsil yanaşma" adlı tədbir keçirilib.*

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Universitetdə həyata keçirilən sosial layihələrdən, xüsusilə də "BDU könüllüləri" təşkilatının tələbələrin sosial fəallığının artırılmasında önəmli rolundan bəhs edib. O, "AIESEC Azərbaycan" təşkilatının gənclər arasında liderlik bacarıqlarının üzə çıxarılması və qlobal düşüncə tərzinin formalaşdırılması baxımından əhəmiyyətli rol oynadığını vurğulayıb.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi Vəfa İsmayılova liderlik anlayışı, yeni nəsil liderlərin malik olmalı olduqları əsas keyfiyyətlər, gənclərin bu yolda qarşılaşdıqları fürsətlər və çətinliklər barədə məlumat verib.

"AIESEC Azərbaycan"ın marketinq və ictimaiyyətlə əlaqələr üzrə komitə sədri Nazənin Məmmədli gənclərin liderlik bacarıqlarını reallaşdırmaq üçün qlobal platformanın praktiki təcrübə və sosial layihələrdə iştirak imkanı yaratdığını qeyd edib.

"BDU könüllüləri" təşkilatının sədr müavini Rüstəm Əliyev təşkilatlararası tərəfdaşlıq sayəsində reallaşdırılan layihələrin gənclərin fərdi və ictimai inkişafına töhfə verdiyini bildirib.

Sonda tələbələrin sualları cavablandırılıb.

## Koreyalı diplomat BDU tələbələrinə mühazirə deyib




*Aprelin 24-də Koreya Respublikasının Azərbaycandakı səfirliyinin müşaviri, diplomatik missiyanın rəhbərinin müavini Kim Changsoo Şərqşünaslıq, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbələri üçün "Koreya-Azərbaycan əlaqələri – müasir vəziyyəti və perspektivləri" mövzusunda mühazirə deyib.*

Kim Changsoo tələbələri Azərbaycan-Koreya əlaqələrinin mövcud durumu ilə tanış edib. O bildirib ki, iki ölkə arasında uğurlu siyasi, iqtisadi-ticari əlaqələr mövcuddur. Azərbaycan Cənubi Qafqazda Koreyanın ən böyük və mühüm iqtisadi-ticarət tərəfdaşıdır. Koreya Azərbaycanın qeyri-neft sektoruna birbaşa xarici investisiya yatıran ən böyük ölkələrdən biridir. Əlaqələrimizin bu səviyyəyə yüksəlməsində ölkə başçılarının qarşılıqlı səfərlərinin mühüm rolu olub. Bu səfərlər zamanı bir sıra mühüm sazişlər imzalanıb.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Laçın Abışov, Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müdiri Oqtay Cəlilbəyli çıxışlarında Azərbaycan-Koreya əlaqələrinin elm-təhsil sahəsində də uğurla inkişaf etdiyini bildirib, belə mühazirələrin tələbələrin dost Koreya ilə bağlı daha artıq məlumatlandırılmasında mühüm vasitə olduğunu vurğulayıblar.

Sonda ən maraqlı suallar verən tələbələrə səfirlik tərəfindən hədiyyələr təqdim edilib.

# BDU-da Doktorant, magistr və gənc tədqiqatçıların “Kimya və kimya texnologiyası” adlı IV Respublika elmi konfransı

*Aprelin 17-də Kimya fakültəsi və M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Doktorant, magistrant və gənc tədqiqatçıların “Kimya və kimya texnologiyası” adlı IV Respublika elmi konfransı keçirilir.*



Tədbirin açılış mərasimində çıxış edən elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov bildirib ki, müstəqil Azərbaycanın memarı, Ümumimilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü bütün ölkəmizdə olduğu kimi, BDU-da da böyük sevgi və ehtiramla qeyd olunur. Ulu Öndərin Azərbaycanın kimya sənayesinin inkişafında və yenidən qurulmasında misilsiz xidmətlərini xatırladan Hüseyn Məmmədov diqqətə çatdırıb ki, Kimya fakültəsi ölkədə kimyaçı kadrların yetişməsində xüsusi çəkiyə malikdir. Daha sonra natiq BDU-da elmi tədqiqatların səviyyəsi, beynəlxalq bazalarda indeksləşməsi, eləcə də yeni ixtisasların yaranması haqqında məlumat verib.

Kimya fakültəsinin dekanı Fuad Kərimli Ulu Öndər Heydər Əliyevin dövlət quruculuğu və elmimizin inkişafında əvəzsiz rolundan danışıb, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib. O bildirib ki, konfransa ölkənin müxtəlif universitetlərindən, Elm və Təhsil Nazirliyinin elmi-tədqiqat institutlarından, xarici universitetlərdən (Türkiyə, Özbəkistan, Böyük Britaniya) 180-dən çox tezis qəbul olunub.

Akademiklər Dilqəm Tağıyev, Vaqif Fərzəliyev və Sumqayıt Dövlət Universitetinin prorektoru Elşad Abdullayev çıxışlarında Ulu Öndər Heydər Əliyevin Azərbaycanda neft-kimya sənayesinin inkişafındakı tarixi xidmətlərini diqqətə çatdırıb, elmi konfransların magistrant və tələbələrin gələcək elmi fəaliyyətlərində böyük rola malik olduğunu vurğulayıblar.

Konfransın plenar iclasında Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının baş müəllimi Ofeliya Balayeva və akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun əməkdaşı Elvin Əhmədovun məruzələri dinlənilib. Konfrans öz işini iki gün ərzində dörd bölmədə davam etdirib.

# Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin bir qrup alimi Filologiya fakültəsinin qonağı olub

***Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin Pedaqogika kafedrasının əməkdaşları Filologya fakültəsinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının fəaliyyəti ilə tanış olublar.***

Səfər çərçivəsində Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, pedaqogika elmləri doktoru, dosent Faroxat Mirzoyeva, professor Əzizə Muxsiyeva, professor Şairə Şadmanova, professor Muhayyo Baybayeva, professor Gülsənəm İbrahimova, dosent Malikə Umarova, dosent Hilalə Ruzmetova və dosent Firuzə Yoldaşeva öz elmi-pedaqoji fəaliyyətlərindən söz açıb, qarşılıqlı əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Filologya fakültəsinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri, professor Mətanət Abdullayeva qonaqlara kafedranın tarixi, tədris və tədqiqat istiqamətləri, bakalavriat və magistratura səviyyələrində kadr hazırlığı haqqında geniş məlumat verib, təsəvvüf ədəbiyyatı ilə bağlı, xüsusilə Nizami Gəncəvi əsərlərinin metaforik dili, “Yeddi gözəl” poemasında alt sujetin açıqlanması, təriqət yolunun izahına dair fikir mübadiləsi aparıb.

Sonda qonaqlara kafedra əməkdaşlarının son illər nəşr etdirdikləri kitablar hədiyyə olunub.

# Şərqşünaslıq fakültəsində “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş tədbir keçirilib

***Aprelin 17-də Şərqşünaslıq fakültəsində “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş tədbir keçirilib.***

Şərqşünaslıq fakültəsinin elmi işlər üzrə dekan müavini Nigar İsmayılzadə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də qəbul olunan Azərbaycan Respublikasının ilk Konstitusiyasının dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsini, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığını təmin etmək kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynadığını deyib.

Sonra Milli Məclisin üzvü, Asiya Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin sədri Rizvan Nəbiyev “Beynəlxlaq münasibətlər müstəvisində parlament diplomatiyasının rolu” mövzusunda məruzə edib. Klassik diplomatiya və parlament diplomatiyası haqqında məlumat verən millət vəkili parlamentlərin xarici siyasət kursunda yeri, beynəlxalq siyasi hədəflərin təbliği istiqamətində vəzifələrindən söz açıb. Qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir Azərbaycan diplomatiyası qüdrətli və qalib ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə edir, dünyanın və regionun lider dövlətinə çevrilməsi istiqamətində uğurla fəaliyyət göstərir: “Artıq Azərbaycanda beynəlxalq və regional təşkilatların parlament şəbəkələrinin toplantılarının keçirilməsi ənənəsi formalaşıb. Eyni zamanda dünyanın ən müxtəlif ölkələrinin parlament nümayəndələri ölkəmizə səfər edir. Dünya ölkələrinin parlamentləri ilə sıx əməkdaşlıq və dostluq münasibətləri formalaşır. Təbii ki, bu cür əlaqələrin qurulması ölkələr arasında münasibətlərin inkişafına xidmət etməklə yanaşı, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq platformalarda dəstəklənməsində təsirli amildir. Azərbaycanın qanunverici orqanı olan Milli Məclis beynəlxalq platformalarda aktiv iş aparır və ölkəmizin haqlı mövqeyinin dünyada tanıdılmasında xüsusi rol oynayır”.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan məruzədə diplomatiya sahəsində maraqlı məqamlara toxunulduğunu, görüşün tələbələr üçün faydalı olacağını bildirib.

Sonda mövzu ilə bağlı tələbələrin sualları cavablandırılıb.

# BDU əməkdaşları arasında “İlin alimi” müsabiqəsinin nəticələri açıqlanıb

***Aprelin 1-də BDU əməkdaşları arasında 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş “İlin alimi” müsabiqəsinin nəticələri açıqlanıb.***

Müsabiqə Komissiyasının qərarına əsasən, təbiətdəqiq və texnika elm sahələri üzrə BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin (TİİMM) Ekoloji kimya və ətraf mühitin qorunması elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisi Kamran Mahmudov I, TİİMM-in Mikrobiologiya və virusologiya elmi-tədqiqat laboratoriyasının müdiri, professor Xudaverdi Qənbərov II, BDU-nun nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Vaqif Quliyev III yerə, BDU-nun Kimya fakültəsinin Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının baş müəllimi Ofeliya Balayeva həvəsləndirici mükafata, humanitar və ictimai elmlər üzrə Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Dünya iqtisadiyyatı kafedrasının müdiri Fərid Babayev I yerə layiq görülüblər.

BDU əməkdaşları arasında “İlin alimi” nominasiyası üzrə müsabiqə beş ildir keçirilir. Müsabiqənin məqsədi il ərzində fəal elmi tədqiqat apararaq yüksək nəticələrə nail olmuş, təsir (impakt) faktorlu, tanınmış bazalarda indekslənən nüfuzlu jurnallarda və nəşrlərdə dərc edilmiş məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad edilən BDU əməkdaşlarının mükafatlandırılmasıdır.

# BDU iqlim dəyişikliklərinə qarşı qlobal akademik şəbəkə olan CANIE-yə qoşulub

***BDU iqlim dəyişikliyi ilə mübarizə və dayanıqlı inkişaf sahəsində beynəlxalq öhdəliklərini genişləndirərək, Beynəlxalq Təhsilverənlər üçün İqlim Fəaliyyəti Şəbəkəsinə (The Climate Action Network for International Educators – CANIE) qoşulub. Bu addım universitetin ekoloji məsuliyyət, qlobal çağırışlara cavab və beynəlxalq əməkdaşlıq istiqamətində strateji səylərinin mühüm göstəricisidir.***

CANIE beynəlxalq təhsil sahəsində fəaliyyət göstərən qurum və mütəxəssisləri bir araya gətirən aparıcı qeyri-kommersiya şəbəkəsidir. Təşkilatın əsas məqsədi ali təhsil və akademik mobillik sektorunun iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirakını təşviq etmək, bu sahədə praktiki həll yollarının formalaşdırılmasına töhfə verməkdir. Sözügedən şəbəkənin QS Dayanıqlılıq Reytinqi tərəfindən tanınması qurumun ali təhsil sahəsində iqlim dəyişikliyi ilə mübarizədə artan qlobal təsirini göstərir.

BDU-nun CANIE üzvlüyü çərçivəsində həyata keçirəcəyi əsas istiqamətlərə fəaliyyətlərində karbon izinin azaldılması, ekoloji təhsil və maarifləndirmə təşəbbüslərinin gücləndirilməsi, yaşıl kampus strategiyalarının inkişaf etdirilməsi, eləcə də davamlı və ətraf mühitə uyğun akademik mobillik modellərinin tətbiqi daxildir. Universitetin bu təşəbbüsü artıq uğurla icra olunan ekoloji proqramlar – xüsusən də “ECOLEAD” layihəsi və “Yaşıl Universitet” konsepsiyası ilə birbaşa uzlaşır və BDU-nun ali təhsildə dayanıqlılıq və ətraf mühitə məsuliyyətli yanaşma üzrə liderliyini daha da gücləndirir. Qeyd etmək istərdik ki, BDU sözügedən şəbəkəyə üzv olan ilk Azərbaycan ali təhsil müəssisəsidir.

# BDU-da Aprel döyüşlərinin ildönümü qeyd olunub

***Aprelin 3-də BDU-nun "BDU könüllüləri" təşkilatı, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və "Qayıdış" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Aprel döyüşlərinin doqquzuncu ildönümü qeyd olunub.***

Əvvəlcə Azərbaycan respublikasının Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.



BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov bildirib ki, 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq keçirilmiş hərbi əməliyyat zamanı qazanılmış qələbə, Zəfər tariximizin başlanğıcı olan Aprel döyüşləri ordumuzun gücünü, xalqımızın yenilməz ruhunu bütün dünyaya göstərdi. Uğurlu əməliyyatlar nəticəsində Talış kəndi istiqamətindəki yüksəkliklər işğalçılardan təmizləndi. Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, olduqca strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi azad edildi. Ağdərə-Suqovuşan istiqamətində yolların nəzarətdə saxlanılması təmin olundu. 2020-ci ildə Vətən müharibəsi, 2023-cü ildə antiterror əməliyyatı ilə Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti və dövlət suverenliyini tam bərpa etdi.

Tədbirin moderatoru, BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Aprel döyüşlərinin Azərbaycan dövlətinin qüdrətinin, Milli Ordumuzun gücünün və xalqımızın birliyinin təntənəsinə çevrildiyini deyib. O, BDU-nun məzunu olan tələbələrin də ərazi bütövlüyümüz uğrunda əməliyyatlarda yaxından iştirak etdiyini bildirib. Qeyd edib ki, 44 günlük Vətən müharibəsində BDU-nun 22 məzunu qəhrəmancasına şəhid olub.

Milli Məclisin üzvü Ülviyyə Həmzəyeva Aprel döyüşlərində qazanılan qələbənin Prezident İlham Əliyevin uzaqgörən diplomatiyasının, uğurlu daxili və xarici siyasətinin, sərkərdəlik məharətinin, Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitlərinin peşəkarlığının, mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək səviyyədə olması nəticəsində gerçəkləşdiyini bildirib.

"Vətən fədailəri" layihəsinin rəhbəri, yazıçı-jurnalist Manya Səxavətqızı, layihənin iştirakçısı Şahin Məmmədov Azərbaycanın qəhrəman oğulları, şəhidləri haqqında ərsəyə gətirdikləri kitablar barədə məlumat verib, onları tələbələrə təqdim ediblər.

"Qayıdış" İctimai Birliyinin sədri Hasil Tağıyev gənc nəslə vətənpərvərlik hisslərinin aşılanması və tarixi gerçəkliklərin tanıdılması baxımından belə tədbirlərin daimi keçiriləcəyini deyib.

Tədbirin sonunda viktorina keçirilib, qaliblərə hədiyyələr təqdim olunub.

# BDU-da Ağdaban soyqırımının qurbanları anılıb

***Aprelin 8-də İnformasiya və sənəd menecmenti fakültəsində "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə Ağdaban soyqırımının 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.



Tədbirin moderatoru, "BDU könüllüləri" təşkilatının İnformasiya və sənəd menecmenti fakültəsi üzrə sədri Nigar Namazova bildirib ki, Ağdaban soyqırımı 1992-ci il aprel ayının 7-dən 8-nə keçən gecə baş verən, tarixdə bəşəriyyətə qarşı törədilmiş qanlı cinayətlərdən biridir. Soyqırım zamanı Kəlbəcər rayonunun Ağdaban kəndi yandırılıb, kəndin 800 nəfərə yaxın əhalisinə amansız işgəncələr verilib, kənd sakinlərindən 33 nəfər vəhşicəsinə öldürülüb. Onlardan 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər uşaq, 7 qadın diri-diri yandırılıb, xeyli insan girov götürülüb və itkin düşüb. Hadisə zamanı klassik Azərbaycan ədəbiyyatının nümayəndələri Ağdabanlı Şair Qurbanın və onun oğlu Dədə Şəmşirin nadir və qiymətli əlyazmaları məhv edilib.

Anım tədbirində BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, dosent Elçin Əhmədov, Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının dosenti Rəşad Qardaşov və fakültənin tələbələri çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsi və bir günlük lokal antiterror əməliyyatları nəticəsində Ağdaban soyqırımının qurbanlarının da qisası alınıb. Artıq beşinci ildir ki, bu dəhşətli soyqırımının ildönümü əvvəlki illərdən fərqli olaraq yalnız ürək ağrısı ilə deyil, Qarabağın, Şərqi Zəngəzurun azadlığı şəraitində həm də qürur hissləri ilə qeyd olunur.

Tədbirin sonunda Ağdaban soyqırımına həsr olunmuş videoçarx nümayiş etdirilib.

# Mirzə Uluqbəy adına Özbək Milli Universitetinin əməkdaşları BDU-da olublar

***Aprelin 30-da Mirzə Uluqbəy adına Özbək Milli Universitetinin nümayəndə heyəti Sosial elmlər və psixologiya fakültəsində olub.***

Mirzə Uluqbəy adına Özbək Milli Universitetinin Psixologiya kafedrasının müdiri, professor Dilbər Muxammedova, kafedranın professoru Ruxsora Kudratullayeva, dosent Aziza Turakulova və baş müəllim Diera Xodjakulova fakültə rəhbərliyi və kafedra müdirləri ilə görüşüblər.

Görüş zamanı Azərbaycan və Özbəkistan ali təhsil müəssisələrinin professor-müəllim heyətləri arasında səmərəli fikir mübadiləsi aparılıb, ailə dəyərləri, gender problemləri və psixoloji tədqiqatlar sahəsində əməkdaşlıq imkanları müzakirə olunub. Tərəflər Azərbaycan və özbək xalqlarının ailə dəyərlərinin ümumi və fərqli cəhətlərinin öyrənilməsi istiqamətində birgə elmi tədqiqatların həyata keçirilməsi barədə razılığa gəliblər.

Fakültə dekanı Rövşən Cavadov qonaqlara bu istiqamətdə görüləcək işlərin perspektivləri barədə ətraflı məlumat verib. O qeyd edib ki, ortaq mədəni və mənəvi dəyərlərə əsaslanan elmi əməkdaşlıq iki qardaş xalq arasında elmi və dostluq əlaqələrinin möhkəmlənməsinə mühüm töhfə verə bilər. Bununla yanaşı, hər iki xalqa xas olan gender problemlərinin tədqiqi bu sahədə birgə tədbirlərin hazırlanması üçün elmi əsaslar yaradacaq.

Səfər çərçivəsində özbək alimlər fakültədə tədris prosesi ilə yaxından tanış olub, tələbələrlə görüşüblər.

# Filologiya fakültəsində tanınmış şair Fəxrəddin Ziya ilə görüş

***Aprelin 30-da Filologiya fakültəsində Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Beynəlxalq Mahmud Kaşğari mükafatı" laureatı, tanınmış şair Fəxrəddin Ziya ilə görüş keçirilib.***

Tədbirdə fakültənin professor-müəllim heyəti, tələbələr və ədəbiyyatsevərlər iştirak ediblər.

Filologiya fakültəsi Tələbə Gənclər Təşkilatının sədri Hümbət Bədəlov şairin həyatı və yaradıcılığı barədə ətraflı məlumat verib.

BDU-nun Azərbaycan dilçiliyi kafedrasının dosenti Fikrət Şiriyev, Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, professor Alış Qasımov, tanınmış yazıçı-jurnalist Nazir Əhmədli Fəxrəddin Ziyanın ədəbi fəaliyyəti və ziyalı kimi şəxsiyyəti barədə fikirlərini bölüşüblər.

Daha sonra söz qonağa verilib. Fəxrəddin Ziya müasir ədəbi proseslə bağlı düşüncələrini bölüşüb, yaradıcılığından şeirlər səsləndirib.

Tədbir çərçivəsində tələbələr şairin şeirlərini ifa edib, ona suallar ünvanlayıblar. Görüşün sonunda qonaq "İstəyimin qolları" adlı son kitabını imzalı şəkildə tələbələrə hədiyyə edib.

# Özbək alimləri Azərbaycan dili və ədəbiyyatının tədrisi ilə tanış olublar

***Aprelin 21-də Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin daha bir qrup alimi Filologiya fakültəsinin qonağı olub.***

Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin Mənəviyyatın əsasları və hüquq təhsili kafedrasının müdiri Nadira Akayeva, həmin kafedranın professorları Marhabo Sobirova və Umida Niğmanova, dosenti Dilorom Xocayeva, Özbək dili və onun tədrisi metodikası kafedrasının professoru Saodat Adilova Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının fəaliyyəti ilə yaxından tanış olub, elmi-pedaqoji fəaliyyətləri haqqında məlumat verib, qarşılıqlı əməkdaşlığa dair fikir mübadiləsi aparıblar.

Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri, professor Mətanət Abdullayeva və dosent Rəhilə Quliyeva səfərin əhəmiyyətini yüksək dəyərləndirib, qonaqlara kafedranın tarixi, tədris və tədqiqat istiqamətləri haqqında məlumat veriblər. Görüşdə ortaq akademik tədbirlərin təşkili, xüsusilə metodika sahəsinə dair birgə dərsliklərin hazırlanması ilə bağlı müzakirələr aparılıb.

# İzmirdə BDU-nun həmtəşkilatçılığı ilə azərbaycanlılara qarşı törədilmiş soyqırımlara həsr olunmuş konfrans keçirilib

***Aprelin 10-da Bakı Dövlət Universiteti, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi, Türkiyənin Dokuz Eylül Universiteti və İzmir Azərbaycan Dərnəyinin təşkilatçılığı, Azərbaycanın Türkiyədəki səfirliyinin tərəfdaşlığı ilə "Erməni problemi və XX əsrdə azərbaycanlılara qarşı törədilən soyqırım və sürgünlər" mövzusunda konfrans keçirilib.***

Dokuz Eylül Universitetində keçirilən tədbir iki ölkənin Dövlət himnlərinin səslənməsi və soyqırım qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Dokuz Eylül Universitetinin rektoru Bayram Yılmaz Azərbaycan və Türkiyə arasındakı qardaşlıq əlaqələrinin təhsil və elm sahəsində də möhkəmlənməsinin əhəmiyyətini vurğulayıb. O, bu təşəbbüsə görə təşkilatçılara təşəkkürünü bildirib, tədbirin uğurla keçəcəyinə əminliyini ifadə edib.



Daha sonra tədbirin moderatoru, Dokuz Eylül Universitetinin professoru Dilşen İnce Erdoğan panel-konfrans barədə məlumat verib.

Açılış nitqləri ilə çıxış edən "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova, Təhsilin İnkişafı Fondunun Layihələrin idarə olunması şöbəsinin layihələr üzrə meneceri, şəhid general-mayor Polad Həşimovun həyat yoldaşı Ofelya Salmanova və İzmir Azərbaycan Dərnəyinin (İZAZDER) İdarə Heyətinin sədri Pərviz Altay bu tədbirin keçirilməsinin vacibliyindən, xüsusilə XX əsrdə Azərbaycan xalqına qarşı törədilmiş soyqırımların tarixə əsaslanan faktlarla dünya ictimaiyyətinə çatdırılmasının əhəmiyyətindən danışıblar.

Konfrans panel müzakirələrlə davam edib. Paneldə Dokuz Eylül Universitetinin Tarix fakültəsinin professoru Dilşen İnce Erdoğan, BDU-nun Tarix fakültəsinin dosenti Aydın Məmmədov, Aydın Adnan Menderes Universitetinin professoru Ahmet Toksoy və Dokuz Eylül Universitetinin İctimai-hüquq fakültəsinin dosenti Uğur Samancı XX əsrdə azərbaycanlılara qarşı törədilmiş soyqırımlar və deportasiyalar barədə məruzə edib, tarixi sənədlər və arxiv materialları əsasında soyqırım hadisələrinin miqyasını, səbəblərini və nəticələrini iştirakçıların diqqətinə çatdırıblar.

Tədbirin sonunda mövzu ilə bağlı sual-cavab sessiyası təşkil olunub.

Azərbaycan həqiqətlərinin beynəlxalq elmi platformalarda sistemli şəkildə təqdim olunması məqsədi daşıyan bu təşəbbüs çərçivəsində növbəti konfransın aprelin 11-də Türkiyənin Eskişehir şəhərindəki Anadolu Universitetində keçirilməsi nəzərdə tutulur.

# BDU-da Mərkəzi Elmi Kitabxananın 100 illik yubileyi qeyd olunub

***Aprelin 14-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) 100 illik yubileyinə həsr olunmuş elmi seminar keçirilib.***

Elmi seminarda BDU-nun Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının magistrantı Ayşən Bağırzadə "AMEA Mərkəzi Elmi Kitabxanasının elektron resursları" mövzusunda məruzə edib.

Gənc tədqiqatçı AMEA MEK-in yaranma şəraiti və tarixi barədə məlumatları diqqətə çatdırıb. Qeyd edib ki, qurum 1925-ci ildə "Azərbaycanı Tədqiq və Tətöbbö Cəmiyyəti"nin nəzdində fəaliyyətə başlayıb. Məruzədə kitabxananın formalaşma və inkişaf mərhələləri xronoloji baxımdan izlənilib. Ölkə başçısı İlham Əliyevin 2011-ci il 29 aprel tarixli Sərəncamına əsasən kitabxananın yeni, müasir binasının tikildiyini vurğulayan tədqiqatçı qeyd edib ki, hazırda kitabxana ən




müasir avadanlıqlarla təchiz olunub, ötən dövr ərzində qurumun kadr potensialı inkişaf etdirilib.

Son dövrlər Mərkəzi Elmi Kitabxananın elektron resurslarının təkmilləşdirildiyindən bəhs edən məruzəçi 2024-cü ilin sentyabrında "AMEA-da elektron kitabxana yeni mərhələdə" adlı təqdimat keçirildiyini, bu istiqamətdə yeni hədəflərin müəyyən edildiyini diqqətə çatdırıb: "Kitabxananın müvafiq şöbələri tərəfindən elektron kitabxanaya daxil edilən resursların sayı davamlı olaraq artırılır. Burada kitablar, jurnallar, avtoreferatlar, kitabxananın öz nəşrləri və digər biblioqrafiyalar, nadir kitablar yer alır". Araşdırmada müəssisənin "Kitabxana resurslarının rəqəmsallaşdırılması və idarə edilməsi" şöbəsinin fəaliyyəti xüsusi təhlil olunub. Qeyd edilib ki, şöbə kitabxana-informasiya xidmətinin modernləşdirilməsi, informasiya təminatının optimallaşdırılması, zaman və məkan məhdudiyyəti olmadan uzaq məsafədən elektron informasiya xidmətinin göstərilməsi istiqamətlərində fəaliyyət göstərir: "Kitabxananın "Reproqrafiya" şöbəsi isə bədii, elmi, fəlsəfi kitabların, klassik ədəbiyyat nümunələrinin, qəzet, jurnal məqalələrinin elektron formata salınması, xüsusi proqramda konvertasiya edilməsi, bir formatda elektron bazaya daxil edilərək oxucuların istifadəsinə verilməsi işini həyata keçirir".

Məruzədə kitabxananın elektron resurslarının inkişaf dinamikası qrafik şəklində təqdim edilib, müqayisəli təhlillər aparılıb, kitabxanada keçirilən e-sərgilər və e-layihələr barədə məlumat verilib, beynəlxalq bazalardan, nüfuzlu elmi resurslardan istifadə imkanları öyrənilib.

Tədbirdə iştirak edən AMEA MEK-in direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov rəhbərlik etdiyi qurumun fəaliyyətinə verilən qiymətə görə seminar iştirakçılarına və məruzəçiyə təşəkkürünü bildirib. Mərkəzi Elmi Kitabxana ilə BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsi arasında müxtəlif platformalarda, o cümlədən kitabxana əməkdaşlarının fakültədə tədrisə cəlb edilməsi, tələbələrə kitabxanada təcrübə keçmək imkanlarının yaradılması, birgə konfransların, ustad dərslərinin və elmi seminarların təşkili istiqamətlərində əməkdaşlığın inkişaf etdirildiyini vurğulayıb.

Elmi seminar müzakirələrlə davam edib.

# Akademik Akif Əlizadə BDU-da ustad dərsi keçib

***Aprelin 15-də Geologiya fakültəsinin təşkilatçılığı ilə Azərbaycan geologiya elminin inkişafında müstəsna xidmətləri olan görkəmli alim, Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadənin "Geologiya keçmişdən bu günə: inkişaf və perspektivlər" mövzusunda ustad dərsi keçirilib. Tədbirdə tanınmış alimlər, fakültənin professor-müəllimləri, doktorant və tələbələr iştirak ediblər.***

Tədbiri giriş sözü ilə açan Geologiya fakültəsinin dekanı, dosent Mamoy Mansurov BDU-nun geologiya sahəsində formalaşmış zəngin elmi ənənələrindən söz açıb. O bildirib ki, Geologiya fakültəsi ölkənin geoloji



tədqiqat və kadr hazırlığı mərkəzlərindən biri kimi mühüm rol oynayır. O, tədbirin əsas məruzəçisi olan akademik Akif Əlizadənin Azərbaycan geologiyasının inkişafında müstəsna xidmətlərini vurğulayıb. Diqqətə çatdırıb ki, akademik Akif Əlizadə yalnız görkəmli alim və təşkilatçı deyil, yüzlərlə tələbə və gənc mütəxəssis üçün örnək olan müəllim, elmi rəhbər və böyük bir məktəbin banisidir.

Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadə çıxışında geologiya elminin tarixi inkişaf mərhələlərinə nəzər salıb, dünya və Azərbaycan elmində tutduğu yeri, əhəmiyyətini izah edib. O, paleontologiya və stratiqrafiya sahəsində apardığı tədqiqatlar, onların nəticələri barədə məlumat verib. Çoxillik tədqiqatlar əsasında yazılmış əsərlərində Azərbaycanın təbaşir molyuska faunasının (belemnitlər) kompleksləri barədə təlimin başlıca müddəaları, bu qədim canlıların təsnifatı və filogeniyası, paleobiocoğrafi rayonlaşdırma prinsiplərinin işləniiməsi, ekologiya və paleopatologiyaya dair məsələlər barədə danışıb, innovativ yanaşmaların tətbiqinin və beynəlxalq əməkdaşlığın genişləndirilməsinin vacibliyinə toxunub. Bildirib ki, geologiya yalnız təbii ehtiyatların öyrənilməsi ilə məhdudlaşmır, ekoloji təhlükəsizlik, təbii fəlakətlərin proqnozlaşdırılması və dayanıqlı inkişafın təmin edilməsində də mühüm rol oynayır.

Geologiya fakültəsinin Faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə çıxışında faydalı qazıntı yataqlarının geoloji öyrənilməsi, onların sənaye əhəmiyyəti və bu sahədə aparılan tədqiqatların müasir vəziyyəti haqqında məlumat verib. O, tələbələrə praktiki biliklərin verilməsinin, Yer elmləri üzrə tədqiqatların real yataqlarda aparılmasının əhəmiyyətini vurğulayıb.

Tədbirin sonunda iştirakçılarla geniş fikir mübadiləsi aparılıb, tələbələrin sualları cavablandırılıb.

# BDU-nun şəhid məzunu Erkin Hüseynovun müəllimi: "Hərbi formanı geyinəndə çox qürurlanırdı"

*AzEdu.az universitetlərin şəhid məzunlarının əziz xatirəsini yad etmək üçün onların müəllimlərindən müsahibələr alır.*

Bakı Dövlət Universitetinin "Fəlsəfə" ixtisasının məzunu, şəhid Erkin Hüseynovla bağlı xatirələrini Universitetin Sosial elmlər və psixologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini, Fəlsəfə kafedrasının baş müəllimi Nəzakət Kərimova bölüşür...

"Səhər işə gələndə mənə xəbər etdilər ki, antiterror əməliyyatı zamanı Erkin şəhid olub. Fakültədə heç kim bu həqiqəti qəbul etmək istəmirdi. Erkin 2016-cı ildə BDU-nun "Fəlsəfə" ixtisasına daxil olmuşdu. O, təbiət etibarı ilə digərlərindən seçilirdi. Tələbə var ki, illər keçir, adı yaddan çıxır, bəzilərini xatırlamaq üçün gərək şəklinə baxasan, hansı qrupda oxuduğunu düşünüb tapasan. Amma Erkin... Erkin elə deyildi. Onun siması yaddaşda iz kimi qalmışdı. Təbəssümündə bir istilik vardı, baxışlarında sakit, amma qəribə bir qətiyyət hiss olunurdu. Söhbətlərdə, dərslərdə, sadə bir salamda belə iz buraxırdı. Elə bil, bu dünyaya keçib getmək üçün yox, yadda qalmaq üçün gəlmişdi. O, hərbi geyimi geyinəndə çox qürurlandığını deyirdi. Onların qrupu da çox maraqlı idi. O qrupda 4 oğlan var idi: Fərid, Kamal, Əli və Erkin. Onlar 4 qardaş kimi idilər. Birinin azca başı ağrısa, hamısı onun dərdinə həmdəm olardı.



Auditoriyada kimsə musiqi qoşanda, o dörd oğlan oynayırdı. Fərid gözəl gitara ifa edirdi. Onlar bir yerə düşən kimi çalıb-oynamağa başlayırdılar. Bütün tənəffüsləri deyib-gülməklə keçirirdilər. O qədər fərqli uşaqlar idilər ki, heç vaxt yaddan çıxmayacaq qrupdurlar mənim üçün.

Otağa daxil olanda deyirdim ki, özünüzü əsgər kimi aparın. Hərbi xidmətdə olanda necə ki, məsuliyyətli, vaxtlı-vaxtında tapşırıqları icra edəcəksinizsə, dərsdə də elə olun. Həmin 4 tələbə məni həyətdə də görəndə əsgər salamı ilə qarşılayırdılar. Deyirdim, "Ayıbdır, görən olar, müəllimlə salamlaşırsınız. Camaat nə deyər, olmaz axı". O uşaqlarla səmimi idik. Çox təəssüf ki, belə tələbələrimiz az olur…

Erkinin üzündə daim saf təbəssüm olurdu. Əlini gözünün üstünə qoyub salamlaşmağı və nur üzü yaddaşıma yazılıb.

Ən çətin, münaqişəli situasiyalarda Erkini görmək mümkün idi, amma o, davalarda özünə yaraşan formada, ağıryana qaydada xoşagəlməz vəziyyəti düzəltməyə çalışar, problemi sakit dillə həll edərdi.

Onların qrupunda hamı yaxşı oxuyurdu, 9 qiyməti alanlar 10 üçün çabalayırdılar. Amma Erkini nə vaxt çağırsam, "dərsə hazıram" deyib, danışardı. "8 yazıram sənə", - deyəndə isə, "Müəllim, mənim üçün qiymətin əhəmiyyəti yoxdur, onsuz da hərbçi olacam", - deyirdi. Onun səmimiyyətinin, mədəniyyətinin qarşısında insan 1-2 bal da artıq yazmaq istəyirdi.

Erkinin hərbçi olmaq arzusu onun tale yoluna yazılmışdı. Amma o, heç vaxt "Hərbçi olacam, oxumayım, çalışmayım, kimdənsə qiymət xahiş edim" demirdi. Bu hərəkətlər onun təbiətinə yad idi. Ona neçə qiymət versən, qane olub, yoluna davam edirdi. Deyirdi, "Əsas odur, kəsrim olmasın, universiteti bitirim, hərbçi olum".

Erkin hamımızın sevimlisi idi. Asudə vaxtlarında universitetdəki gənclər təşkilatında çalışırdı. Şəhid olanda hamı onun yasını tuturdu, bütün paylaşımlarda idi Erkin. O, bir qrupun, fakültənin, bir müəllimin sevimlisi deyildi, Universitetdəki bütün həmyaşıdlarının əzizi idi.

Şəhid olduğu gün kafedradan, fakültədən müəllimlər yığışıb onun yasına getdilər. Sonra tələbə qruplarına yazdım ki, "Uşaqlar, oktyabrın 12-si Erkinin doğum günüdür. Kim bizimlə getmək istəyər?". O qədər tələbə bu mesaja müsbət cavab verdi ki… Amma dərslərə görə 23-24 nəfərlə yığışıb Erkingilə getdik. Səhər saat 5-də Universitetin qarşısından yığışıb, yola düşdük. Bütün tələbələri orada görmək çox gözəl hiss idi. Bu, onların Erkinə olan hörmətinin nişanəsi idi.

Erkin ailənin yeganə övladı idi… Onun atası da hərbçi olub. Ailəsi bizi səmimiyyətlə qarşıladı. Daha sonra əkillə onun məzarına, eləcə də oxuduğu məktəbə, xatirəsinə həsr olunmuş bulağa baş çəkdik. Biz həmin gün yenidən şəhərə qayıtmalı idik. Uşaqların onun məzarı üstündə hönkür-hönkür ağlayırdılar… Valideynləri dedilər ki, "Evə gedək, Erkinin ad gününü qeyd edək". Biz Erkinsiz Erkinin doğum gününü qeyd etdik.

Bakıya qayıdanda uşaqların üzündə bir təbəssüm, bir rahatlıq var idi. Onlar Erkinin ailəsinə onu unutmadıqlarını sübut etmişdilər.

Biz hər il Erkinin ailəsinə baş çəkir, onun məzarını ziyarət edirik. İndi də elə bilirəm ki, ölümsüzdür, hansısa auditoriyadan çıxacaq, onu görə biləcəm… Məkanı cənnət olsun".

# BDU "Orhun" mübadilə protokolu üzrə əməkdaşlığı genişləndirir

*Aprelin 30-da BDU ilə Qazaxıstanın Hoca Əhməd Yəsəvi Beynəlxalq Türk-Qazax Universiteti arasında "Orhun" mübadilə protokolu imzalanıb.*

Protokolu BDU-nun rektoru Elçin Babayev və Qazaxıstanın Hoca Əhməd Yəsəvi Beynəlxalq Türk-Qazax Universitetinin rektoru Zhanar Temirbekova imzalayıb.

Protokol çərçivəsində akademik heyətin, təhsil alanların və tədqiqatçıların mübadiləsi nəzərdə tutulur.

Qazaxıstanın nüfuzlu universitetlərindən biri olan Hoca Əhməd Yəsəvi Beynəlxalq Türk-Qazax Universitetinin əsası 1991-ci ildə qoyulub. Hazırda universitetdə 9 fakültə fəaliyyət göstərir. Bu universitet "QS Dünya Universitetləri Reytinqi"ndə 801-850-ci pillələrdə yer alır.

# BDU Gürcüstanın Beynəlxalq Qara Dəniz Universiteti ilə anlaşma memorandumu imzalayıb

*Aprelin 30-da BDU və Gürcüstan Respublikasının Beynəlxalq Qara Dəniz Universiteti arasında anlaşma memorandumu imzalanıb.*

Sənədi BDU-nun rektoru Elçin Babayev və Beynəlxalq Qara Dəniz Universitetinin rektoru Kakha Shengelia imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1995-ci ildə qoyulmuş Beynəlxalq Qara Dəniz Universiteti Gürcüstanın nüfuzlu universitetlərindən biridir.

# BDU-nun əməkdaşı "YAŞAT" Fondunun I intellektual marafonunda "Ən rəqabətçi oyunçu" seçilib

*Aprelin 22-də "YAŞAT" Fondunun təşkilatçılığı ilə şəhidlərimizin övladları üçün I intellektual marafon keçirilib. "Konstitusiya və Suverenlik İli" çərçivəsində gerçəkləşən layihə 16-21 yaş aralığındakı 50-yə yaxın şəhid övladını əhatə edib.*

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin əməkdaşı, Şərqşünaslıq fakültəsinin IV kurs tələbəsi Aysu Əmrahova marafonda kapitanlar arasında "Ən rəqabətçi oyunçu" seçilərək, mükafata layiq görülüb.

Qeyd edək ki, Aysu Əmrahova 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış kiçik çavuş Saməddin Əmrahovun övladıdır.

# BDU əməkdaşlarının yeni dərs vəsaiti nəşr olunub

*İnformasiya və sənəd menecmenti fakültəsinin Sənəd menecmenti kafedrasının müdiri Nadir İsmayılov, fakültənin dosentləri Mehmanəli Məmmədov və Xuraman Ağayevanın dərs vəsaiti nəşr olunub.*




BDU Elmi Şurasının qərarı ilə nəşr edilməsi tövsiyə olunan "Sənədşünaslıq" adlı kitabın ixtisas redaktoru professor Xəlil İsmayılov, rəyçiləri professor Almaz Ülvi, dosent Solmaz Sadıqova və tarix üzrə fəlsəfə doktoru Oruc Quliyevdir.

Dərs vəsaitində kommunikasiya sistemində sənədlərin yeri, əhəmiyyəti, növləri və tipləri, sənəd axını, sənəd kütləsi, dərc edilən və dərc edilməyən sənədlər, nəşr anlayışı, sənədin xassə və funksiyaları, rekvizitləri, sənəd axınının inkişaf qanunauyğunluqları kimi məsələlər öz əksini tapır.

Dərs vəsaiti "Kitabxanaçılıq və informasiya fəaliyyəti", "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisasları üzrə təhsil alan tələbələr, gənc tədqiqatçılar və sahə mütəxəssisləri üçün nəzərdə tutulub.

# Görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anım günüdür

*15 Aprel Azərbaycan tibb elminin inkişafına misilsiz töhfələr vermiş, Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın anım günüdür.*

Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvan Muxtar Respublikasında anadan olub. 1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasının dosenti, professoru, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, Oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışıb.



Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Akademik Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologii" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

Zərifə Əliyeva 1980-ci ildə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülüb. O, SSRİ Tibb Elmlər Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüş ilk qadındır. Azərbaycanda tibbi deontologiyanın inkişafında böyük rolu olan akademik Zərifə Əliyevanın tibbi etika və deontologiyaya dair baxışları "Yüksək əqidə" (həkimlik etikası) əsərində əks olunub.

Zərifə Əliyeva yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib.

O, 1985-ci il aprelin 15-də Moskva şəhərində əbədiyyətə qovuşub.

Akademik Zərifə xanım Əliyeva elm, təhsil, səhiyyə sahələrində, eləcə də ictimai-siyasi həyatda misilsiz xidmətlərinə görə xalqımızın qəlbində, ölkəmizin tarixində görkəmli alim, pedaqoq, qayğıkeş ana, şəfqətli həkim, nurlu Azərbaycan xanımı kimi qalacaq, daim anılacaq, onun şərəfli ömür yolu və zəngin irsi həmişə örnək olacaq.

Akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini ehtiramla anırıq. Allah rəhmət eləsin!

# Görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasından 117 il ötür

*Aprelin 26-da XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasından 117 il ötür.*

Mir Cəlal Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanda (Ərdəbil ostanı) yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçib. Mir Cəlal 10 yaşında olanda atası vəfat edib və o, böyük qardaşının himayəsində yaşayıb.

Mir Cəlal Paşayev 1918–1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəllimliyinə daxil olub. Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilib. Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik edib və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini mənimsədib. Bu mənada Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən sənətkarın könüllərə yanğı salmış "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırıb. Onun böyük zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.



Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını, tələbələrini sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir".

XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Mir Cəlal öz yazı üslubu ilə həmkarlarından fərqlənərək Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra nailiyyətləri bilavasitə Mir Cəlal Paşayevin adı ilə bağlıdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi. 1928-ci ildə mətbuatda ilk şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunub. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və digər hekayələrini çap etdirib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları işıq üzü görüb.

Mir Cəlalın ilk irihəcmli əsəri – "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunub. Hələ yarım əsr bundan əvvəl akademik Məmməd Arif yazırdı: "Mir Cəlal "Dirilən adam"la diqqətli bir realist yazıçı olduğunu göstərib".

"Bir gəncin manifesti" əsəri isə yazıçının həyatında böyük bir dönüş yaradıb, ədəbi zirvəyə aparan yoluna cığır açıb və müəllifə böyük oxucu auditoriyası qazandırıb. 1940-cı ildə "Uşaqgəncnəşr"də kitab halında kütləvi tirajla buraxılan bu əsər oxucu tələbatına görə sonrakı illərdə də təkrar çap edilib. "Bir gəncin manifesti" bu gün də qəlbləri riqqətə gətirir. Doqquz dəfə müxtəlif illərdə ayrıca kitab halında nəşr olunan bu əsər Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da sevilir.

Mir Cəlalın "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınıb. Yazıçının "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmış hekayələri də böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" və digər hekayələrində isə real həyat lövhələri, fəlsəfi düşüncələr əks olunub. İndiyədək yazıçının 70-dən çox kitabı çap edilib.

Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutub.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. Füzuli poeziyasının qüdrətinə heyran olan, ümumiyyətlə, klassik ədəbiyyata qəlbən bağlı Mir Cəlal Paşayev 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib.

Mir Cəlal Paşayevin tanınmış tədqiqatçı Firudin Hüseynovla birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" əsəri uzun illərdir ki, ali məktəblər üçün dərs vəsaitidir. Bu dərslikdə XX əsrin böyük ədəbi şəxsiyyətləri, onların yaradıcılığı, ədəbi mühitə gətirdikləri yeniliklər haqqında əhatəli elmi fikirlər əks olunub.

1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşmuş, gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, özündən sonra gələn nəsillərə də örnəkdir. Təsadüfi deyil ki, bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur.

"UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. UNESCO-nun Parisdə yerləşən iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. Bu, həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür.

Bakı Dövlət Universitetində 2023-cü ildə görkəmli yazıçının 115 illik yubileyi silsilə tədbirlərlə qeyd olunub. BDU-nun təşkilatçılığı ilə böyük ədib, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib. BDU-nun Mir Cəlal Paşayev adına məqsədli təqaüdünün qalibi elan edilib. Bakı Dövlət Universitetinin professor-müəllim heyəti Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində görkəmli ədibin II Fəxri xiyabandakı məzarını, Gəncə şəhərində yerləşən ev-muzeyini ziyarət edib, Gəncədə Mir Cəlal adına 39 nömrəli tam orta məktəbdə olub. BDU-nun tələbələri arasında böyük yazıçı və alim Mir Cəlal Paşayevin 115 illik yubileyi münasibətilə elan edilmiş qısa hekayə müsabiqəsinin qalibləri Gəncədə görkəmli yazıçının ev-muzeyində elan və təltif olunub. Daha sonra yubiley tədbirləri çərçivəsində Qazax Müəllimlər Seminariyasında görüş keçirilib.

Mir Cəlal Paşayev insanlıq, xeyirxahlıq, müəllimlik, ədəbiyyatşünaslıq məktəbi yaradıb. Bu məktəbin işığı sonrakı nəsillərin yoluna daim işıq salır. Böyük ziyalımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq!

# "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş

*Aprelin 10-da BDU-da "Yüksəliş" müsabiqəsinin qalibləri tərəfindən infosessiya keçirilib.*

İnfosessiyada ikinci "Yüksəliş" müsabiqəsinin qalibi Camal Nağıyev və üçüncü "Yüksəliş" müsabiqəsinin qalibi Bayram Orucov iştirak ediblər.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov "Yüksəliş" müsabiqəsi barəsində məlumat verib. Bildirib ki, "Yüksəliş" müsabiqəsi ölkəmizdə kadr bankının təmin edilməsində əhəmiyyətli rol oynayır. BDU məzunlarının müsabiqədə fəal iştirakı ilbəil artır.

Çıxış edən qaliblər uğur hekayələrini bölüşərək, komanda işinin və planlı yanaşmanın əhəmiyyətindən danışıb, "Yüksəliş" müsabiqəsinin mərhələləri, seçim tələbləri barədə tələbələri məlumatlandırıblar. Qeyd olunub ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 iyul 2019-cu il tarixində imzaladığı Sərəncamla təsis olunub. Müsabiqə qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı və özünüinkişaf üçün 20 min manat məbləğində pul mükafatı əldə edirlər. Sayca beşinci "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən 18 dekabr 2024-cü il tarixində müvafiq Sərəncam imzalanıb.



Görüşün sonunda "Yüksəliş" müsabiqəsində iştirak üçün qeydiyyat prosesi izah olunub, tələbələrin sualları cavablandırılıb.

# BDU-da MEDİA və Məhkəmə Hüquq Şurasının birgə təşkilatçılığı ilə ustad dərsi

*Aprelin 14-də BDU, Medianın İnkişafı Agentliyi, Məhkəmə Hüquq Şurasının birgə təşkilatçılığı ilə Jurnalistika fakültəsinin tələbələri üçün "Azərbaycan Respublikasının Konstitusiyası: dövlət və cəmiyyət üçün əhəmiyyəti" mövzusunda ustad dərsi keçirilib.*

Medianın İnkişafı Agentliyinin Hüquq şöbəsinin müdiri Adil Tağıyev Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsinə diqqət çəkərək, bu istiqamətdə medianın maarifləndirmə funksiyasının əhəmiyyətini vurğulayıb, konstitusion dəyərlərin təbliği, cəmiyyətin inkişafı və qanunçuluq prinsipinin möhkəmləndirilməsində onun xüsusi rolunu qeyd edib.



Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev qeyd edib ki, çağdaş dövrdə milli maraqların müdafiəsi və informasiya təhlükəsizliyinin təmin olunması medianın üzərinə xüsusi vəzifələr qoyur. Daha sonra mühazirə ilə çıxış edən Xətai rayon məhkəməsinin hakimi, dosent Samirə Eyvazova diqqətə çatdırıb ki, bu ilin "Konstitusiya və Suverenlik İli" elan olunması dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu, ölkəmizin keçmişi, bu günü və gələcəyi üçün xüsusi məna ifadə edərək, suverenlik dəyərlərinin yeni qlobal çağırışlar əsasında formalaşdırılması üçün bir fürsət kimi dəyərləndirilə bilər.

İnteraktiv formada keçən mühazirədə tələbələrin sualları cavablandırılıb, mövzu ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

# BDU-da oxucu məmnunluğu probleminin sosial-fəlsəfi mahiyyəti araşdırılıb

***Aprelin 17-də İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə "Oxucu məmnunluğu probleminin sosial-fəlsəfi mahiyyəti" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Kitabxanaşünaslıq kafedrasının müəllimi Sahibə Əliyeva məruzə edib.***

Araşdırmada kitabxana-informasiya xidmətinin komponentləri, akademik kitabxanalarda xidmətin qiymətləndirilməsi, kitabxana xidmətinin keyfiyyətinin artırılması üçün müasir üsullar, kitabxana-informasiya xidmətində oxucu məmnunluğu probleminin sosial-fəlsəfi mahiyyəti, oxucu marağının izlənməsi kimi mühüm istiqamətlər təhlil olunub. Qeyd edilib ki, sosial institut kimi fəaliyyət göstərən kitabxanaların səmərəlilik göstəriciləri oxuculara xidmətin keyfiyyətindən və əlçatanlığından, oxucu məmnunluğunun sistematik qiymətləndirilməsindən bilavasitə asılıdır.

Məruzədə oxucu məmnunluğu probleminin sosial-fəlsəfi mahiyyətinin səmərəlilik meyarlarına təsir edən fəlsəfi amilləri izah olunub, onların kitabxanaşünaslıq tədqiqatlarında tətbiqinin sahənin elmi-nəzəri metodologiyasını zənginləşdirdiyi vurğulanıb. Ölkəmizdə kitabxanaşünaslıq elmi məktəbinin banisi, professor Abuzər Xələfov tərəfindən bu istiqamətdə ciddi araşdırmaların aparıldığı diqqətə çatdırılıb.

Tədqiqatda həmçinin mütaliə mədəniyyətinin formalaşması, onun inkişafına verilən tələblər şərh olunub, mütaliə prosesinin oxucu məmnunluğunun formalaşmasındakı mühüm roluna aydınlıq gətirilib, ənənəvi və elektron resurslardan istifadə zamanı oxucu məmnunluğu prosesləri müxtəlif aspektlərdən qiymətləndirilib.

Elmi seminar müzakirələrlə davam edib.

# Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin alimləri BDU-da tədris prosesi ilə tanış olublar

***Aprelin 10-da Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin bir qrup alimi Sosial elmlər və psixologiya fakültəsində olub.***

Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin İctimai elmlər kafedrasının müdiri Matlyuba Tullavoldieva, kafedranın professoru Karima Tulenova, dosenti Gülçöhrə Eşanova, dosent əvəzi Marvarid Mamadcanova, Dünya tarixi kafedrasının müəllimi Raino Mullacanova fakültənin rəhbərliyi, professor-müəllim heyəti ilə görüşüblər.

Qonaqlar Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri, professor Rəbiyyət Aslanovanın mühazirəsində iştirak ediblər. Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin İctimai elmlər kafedrasının professoru Karima Tulenova "Fəlsəfə" ixtisası üzrə təhsil alan III kurs tələbələrinə işlədiyi Universitet haqqında geniş informasiya verib. Qonaqlar daha sonra Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının professor-müəllim heyəti ilə təcrübə mübadiləsi aparıblar.

Daşkənd Dövlət Pedaqoji Universitetinin alimləri bir həftə ərzində Sosial elmlər və psixologiya fakültəsində olacaqlar. Onlar "Fəlsəfə" ixtisası üzrə təhsil alan müxtəlif kurs tələbələri ilə görüşəcək. Fəlsəfə kafedrasında "Postmodernizmin çoxqiymətli məntiq kontekstində qnoseoloji təhlili" mövzusunda birgə elmi seminar keçirəcək, fənn proqramları, dərslik və dərs vəsaitləri ilə tanış olacaqlar.

# Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin alimləri Tarix fakültəsində

***Aprelin 11-də Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin bir qrup alimi Tarix fakültəsində olub.***

Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin İctimai elmlər kafedrasının müdiri Matlyuba Tullavoldieva, kafedranın professoru Karima Tulenova, dosenti Gülçöhrə Eşanova, dosent əvəzi Marvarid Mamadcanova, Dünya tarixi kafedrasının müəllimi Raino Mullacanova fakültənin rəhbərliyi, professor-müəllim heyəti ilə görüşüblər.

Tarix fakültəsinin dekanı İbrahim Zeynalov rəhbərlik etdiyi fakültə haqqında görüş iştirakçılarını məlumatlandırıb. Qeyd edib ki, fakültə fəaliyyət göstərdiyi illərdə çətin və şərəfli inkişaf yolu keçib. BDU-nun və fakültənin dünya şöhrətli məzunu isə Ümummilli Lider Heydər Əliyevdir. Sonra İbrahim Zeynalov kafedraların apardığı elmi-tədqiqat işləri barəsində məlumat verib.

Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin nümayəndə heyəti rus və ingilis bölmələrində tədris edilən "Azərbaycanın orta əsrlər dövrü tarixi" və "Qədim dünya tarixi" dərslərində iştirak edib, Arxeologiya və etnoqrafiya muzeyində mövcud olan eksponatlarla tanış olub.

# BDU-da ustad dərsi: "Dünyagörüşünün formalaşması və müasir informasiya mühiti"



***Aprelin 10-da İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə "Dünyagörüşünün formalaşması və müasir informasiya mühiti" mövzusunda ustad dərsi keçirilib.*** Ustad dərsində BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Cahangir Məmmədli məruzə edib. Professor Cahangir Məmmədli əvvəlcə dünyagörüşü anlayışı barədə məlumat verib, informasiya mühitinin bu prosesə təsirini elmi-nəzəri baxımdan şərh edib: "Yüksək dünyagörüşü yalnız insanı formalaşdırıb onun gələcək taleyini müəyyən etmir, bəzən bir xalqın, dövlətin taleyini müəyyənləşdirir. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidentinin yüksək dünyagörüşü və bu dünyagörüşünə söykənən qərarları xalqımızı xilas etdi".

Ustad dərsində müasir informasiya bolluğu şəraitində informasiya seçiminin əhəmiyyəti, informasiya resursları ilə işləmək vərdişləri, məlumatın əldə edilməsi, hazırlanması və ötürülməsi kimi mühüm istiqamətlər təhlil edilib, dünyagörüşünün formalaşmasında medianın, internet resurslarının, sosial şəbəkələrin rolu və əhəmiyyəti izah olunub. Dünyagörüşünün formalaşması prosesinin informasiya mühiti ilə vəhdətinin insanlarda tənqidi düşüncə qabiliyyətinin inkişafı, informasiyaya obyektiv və yaradıcı yanaşma, düzgün qərarların qəbulu baxımından vacibliyi vurğulanıb. Dərs zamanı təqdimatlar nümayiş etdirilib, interaktiv müzakirələr keçirilib, informasiya mənbələrinin müsbət və mənfi cəhətləri izah olunub, bir sıra müqayisəli təhlillər aparılıb.

# BDU və Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universitetinin Dayanıqlı İnkişaf Məqsədlərinin tətbiqinə dair birgə təlimi

***Aprelin 11-də BDU və Qazaxıstanın nüfuzlu ali təhsil müəssisələrindən biri olan Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti (QMTTU) arasında mövcud əməkdaşlıq çərçivəsində və BDU-nun Keyfiyyət Təminatı Mərkəzinin təşkilatçılığı ilə "Ali təhsil müəssisələrində Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) tətbiqi" mövzusunda akademik heyət üçün onlayn təlim təşkil olunub.***

Təlimin açılışında BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov universitetlərarası tərəfdaşlığın əhəmiyyətini vurğulayıb, bu cür təşəbbüslərin ali təhsil müəssisələrinin akademik və institusional potensialının gücləndirilməsinə mühüm töhfə verdiyini bildirib. O, son illərdə BDU-da DİM-lərin tədris və tədqiqat prosesinə inteqrasiyası istiqamətində həyata keçirilən fəaliyyətlər haqqında məlumat verib.

Təlim çərçivəsində QMTTU-nun Dayanıqlı İnkişaf Məqsədləri üzrə Layihə Ofisinin baş meneceri Aliya Jaksılıkova, meneceri Rustam Axmetov, eləcə də İnstitusional və elmi-metodik tədqiqatlar şöbəsinin müdiri Emil Andekin təqdimatlarla çıxış ediblər. Təqdimatlarda ali təhsil müəssisələrinin beynəlxalq reytinqlərdə mövqeyinin formalaşmasında DİM-lərin inteqrasiyasının mühüm rolu xüsusi vurğulanıb.

Təlim interaktiv müzakirələrlə davam edib. İştirakçılar DİM-lərin tədris, tədqiqat və ictimai xidmət fəaliyyətlərinə inteqrasiyası, bu sahədə qabaqcıl təcrübələr barədə fikir mübadiləsi aparıblar.

# BDU-da Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd olunub



***Aprelin 17-də BDU-nun tarixi muzeyinin təşkilatçılığı ilə Tarix fakültəsində 18 aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunan elmi seminar keçirilib.***

Tədbirin moderatoru, BDU-nun tarixi muzeyinin müdiri Günel Orucəliyeva bu günün qeyd olunmasının tarixi barədə məlumat verib. Qeyd edib ki, bu əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) təklifi ilə UNESCO tərəfindən 1983-cü ildə təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.

Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Kəmalə Nəcəfova Azərbaycanda tarixi abidələrin bərpası və mühafizəsi üçün həyata keçirilən layihələrdən, abidələrin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində görülən işlərdən danışıb.

Daha sonra Tarix fakültəsinin magistrantı Aynur Ağayeva "Arxeoloji abidələrdə qədim şəhərlərimizin gündəlik həyatının əksi" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi ikinci Kültəpə, Həsənlitəpə yaşayış yerləri, Manna şəhərlərinin quruluşu haqqında məlumat verib, həmin ərazilərdə tapılan arxeoloji nümunələrdən, insanların gündəlik həyat tərzi və məşğuliyyəti, sosial təbəqələrindən danışıb.

Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, tarix elmləri doktoru Tarix Dostiyev vurğulayıb ki, Azıx mağarasından tapılmış qədim insanın alt çənə sümüyü Azərbaycanın dünyada ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustanda aşkar edilmiş yaşayış məskənləri bu ərazidə ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir.

Məruzə auditoriya tərəfindən maraqla qarşılanıb.

# BDU-da "Dayanıqlı İnkişaf Məqsədləri həftəsi": "İqlim dəyişikliklərinə qarşı mübarizə"

***Aprelin 10-da BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə "Dayanıqlı İnkişaf Məqsədləri (DİM) həftəsi" çərçivəsində 13-cü məqsəd olan "İqlim dəyişikliklərinə qarşı mübarizə" mövzusunda tədbir keçirilib. Tədbir Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətində baş tutub.***

Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Gülnarə Abbasova ölkəmizdə olan iqlim qurşaqlarından söz açıb. Qeyd edib ki, Azərbaycanda hidrometeorologiya, o cümlədən meteorologiya, aviameteorologiya, aqrometeorologiya, hidrologiya, okeanologiya, iqlimşünaslıq və atmosfer proseslərinə fəal təsir işlərinin aparılması, məlumatların toplanılması, təhlili, hazırlanması, saxlanılması və ötürülməsi, metrologiya və standartlaşdırma fəaliyyətinin təşkili, təbii mühitin, o cümlədən atmosfer havasının, yeraltı su obyektləri istisna olmaqla, su obyektlərinin monitorinqi və su kadastrının aparılması sahələrində dövlət siyasətinin həyata keçirilməsində iştirak edən Milli Hidrometeorologiya Xidməti ictimaiyyətin məlumatlar ilə daimi təmin edilməsi və təhlükələrin qarşısının öncədən alınması işini həyata keçirir.

BDU THİK-in sədri Zöhrab Cavadzadə iqlim dəyişikliklərinə qarşı mübarizənin əhəmiyyətindən danışaraq bildirib ki, gənclərin ekoloji şüurunun formalaşması cəmiyyətin davamlı inkişafı baxımından xüsusi önəm daşıyır.

Sonra çıxış edən Milli Hidrometeorologiya Xidmətinin İqlim Dəyişmələri Mərkəzinin baş mütəxəssisi Röya Əfəndiyeva, Dəniz Mərkəzinin direktoru Həsən Musayev, Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova və Beynəlxalq əməkdaşlıq və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Ruslan Qədirov tələbələrə iqlim dəyişikliklərinin Azərbaycanda və dünyada yaratdığı fəsadlar, Xəzər dənizinin hidrometeoroloji vəziyyəti, hava proqnozlarının hazırlanması və ötürülməsi kimi mövzularda ətraflı məlumat veriblər.

Sonda tələbələr Xidmətin Situasiya Mərkəzi ilə tanış olublar. Onlara burada real vaxt rejimində hava şəraitinin necə analiz olunaraq proqnozlaşdırıldığı əyani şəkildə göstərilib.

# BDU könüllülərinin yaşıl təşəbbüsü: "Köhnə batareyaya yeni həyat bəxş et!"




***Aprelin 15-də Bakı Dövlət Universitetinin "BDU könüllüləri" təşkilatı "Köhnə batareyaya yeni həyat bəxş et!" adlı layihəyə başlayıb.***

"Təbiət bizim gələcəyimiz, onu qorumaq isə vəzifəmizdir!" ideyası ilə keçirilən layihənin məqsədi təbiətə ciddi zərər verən batareyaları qarışıq tullantılardan ayırmaqla onların ətraf mühitə və insan sağlamlığına mənfi təsirlərini minimuma endirməkdir.

Qeyd edək ki, batareyaların tərkibində qurğuşun, litium, civə, sink və ətraf mühit üçün digər zərərli maddələr var. Buna görə də işlənmiş batareyaların toplanması və bunun sosial məsuliyyət kimi dərk edilməsi olduqca aktualdır.

# İspaniya nümayəndə heyəti BDU-da

***Aprelin 14-də BDU-da İspaniya universitetlərinin nümayəndə heyəti ilə görüş keçirilib.***




Görüşdə BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, İspaniyanın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Xose Pedro Torrubia, Təhsil proqramları şöbəsinin müdiri Gilberto Terente, İspaniya krallığının Elm, İnnovasiya və Universitetlər Nazirliyinin nümayəndəsi xanım Ana Kornejo Roman və Jaen Universitetinin (University of Jaen) beynəlmiləlləşmə üzrə transversal katibliyinin direktoru Carmen Conti-Jimenez iştirak ediblər.

Qonaqları salamlayan prorektor Şahin Pənahov BDU-nun tarixi, fəaliyyəti, strukturu, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verib. Son illər Universitetin nüfuzlu dünya reytinqlərində, elmi tədqiqatlar istiqamətində uğurlarından söz açıb. BDU-nun dünyanın tanınmış elm və təhsil müəssisələri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə, qarşılıqlı elm, təhsil mübadiləsinin təmin edilməsinə, beynəlxalq əlaqələrin inkişaf etdirilməsinə daim xüsusi diqqət yetirdiyini, bu məqsədlə də İspaniya universitetləri ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb.

Qonaqlar İspaniya universitetlərinin əsas fəaliyyət istiqamətləri barədə danışıb, birgə layihələrin həyata keçirilməsinə hazır olduqlarını ifadə ediblər.

Görüşdə elmi-pedaqoji əlaqələrin qurulması, ikili diplom proqramlarının tətbiqi, elmi konfransların təşkili, tələbə mübadiləsi kimi məsələlər müzakirə olunub.

# BDU-da üçüncü “Maarifçi” tələbə-məzun təcrübə proqramı ilə bağlı infosessiya

***Aprelin 15-də BDU-da Elm və Təhsil Nazirliyinin təşəbbüsü, Təhsilin İnkişafı Fondunun dəstəyi ilə üçüncü “Maarifçi” tələbə-məzun təcrübə proqramı ilə bağlı infosessiya keçirilib.***

BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova Mərkəzin əsas fəaliyyət istiqamətləri barəsində məlumat verib. Bildirib ki, Mərkəzin məqsədi tələbələrə karyera xəritələrinin hazırlanmasında dəstək olmaq, onları əmək bazarına yararlı yüksəkixtisaslı kadr kimi yetişdirmək, müxtəlif sahələr üzrə dövlət və özəl tərəfdaşlığını təmin etməkdir. “Maarifçi” tələbə-məzun təcrübə proqramı da tələbə və məzunlar üçün yaradılan belə şəraitlərdən biridir.

Elm və Təhsil Nazirliyinin əməkdaşları - Məktəbəqədər və ümumtəhsil şöbəsinin məsləhətçisi, “Maarifçi“ tələbə-məzun təcrübə proqramının icraçısı Tünzalə Vəliyeva, BDU məzunları, əvvəlki “Maarifçi” tələbə-məzun təcrübə proqramlarının qalibləri, Elm, ali və peşə təhsili şöbəsinin mütəxəssisi Arzu Gülməmmədova, Strateji planlaşdırma və təhlil şöbəsinin mütəxəssisi Cavid Bağırov, İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin mütəxəssisi, II “Maarifçi” tələbə-məzun təcrübə proqramının qalibi Səma Əliyeva proqram ilə bağlı ətraflı məlumat veriblər.

4 ay davam edəcək “Maarifçi” proqramı çərçivəsində seçilmiş iştirakçıların Elm və Təhsil Nazirliyinin müxtəlif struktur bölmələri və tabe qurumlarında, regional təhsil idarələrində, eləcə də Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində təcrübə keçmək imkanı əldə edəcəyini deyən qonaqlar qeyd ediblər ki, bu proqram Azərbaycan Respublikasının vətəndaşı olan, bakalavriat səviyyəsinin sonuncu kursunda və ya magistratura səviyyəsində təhsil alan tələbələr, eləcə də təhsilini son 3 il ərzində başa vurmuş məzunlar üçün nəzərdə tutulub.

Həmçinin bildirilib ki, qalib olan “Maarifçi”lər arasında BDU-nun tələbə-məzunları çoxluq təşkil edir.

Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# "Eşitmə məhdudiyyətli şəxslərlə psixoprofilaktik iş" adlı tədbir keçirilib

***Aprelin 17-də Sosial elmlər və psixologiya fakültəsinin Sosial və pedaqoji psixologiya kafedrasının təşəbbüsü ilə “Eşitmə məhdudiyyətli şəxslərlə psixoprofilaktik iş” adlı tədbir keçirilib.***

Tədbirdə “Cochlear Azərbaycan” reabilitasiya və bərpa mərkəzinin direktoru Ləman Həsənzadə, audioloq Elmar Allahverdiyev, ABA terapist-pedaqoq Nəsibə Ağaverdiyeva, kafedranın professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Sosial və pedaqoji psixologiya kafedrasının müdiri, professor Kamilə Əliyeva tədbirin əhəmiyyətindən bəhs edib.

“Cochlear Azərbaycan” reabilitasiya və bərpa mərkəzinin direktoru Ləman Həsənzadə mərkəzin fəaliyyəti və orada göstərilən xidmətlər haqqında danışıb. Mərkəzin audioloqu Elmar Allahverdiyev tədbir iştirakçılarına eşitmə cihazları və koxlear implantın əhəmiyyəti haqqında məlumat verib, bu cihazların eşitmə itkisi olan şəxslərin səsləri daha yaxşı duymaları üçün köməkçi cihaz olduğunu bildirib.

ABA terapist-pedaqoq Nəsibə Ağaverdiyeva ABA terapiyanın (Tətbiqi Davranış Terapiyası - Applied Behaviour Therapy) diqqəti uşaqların davranış problemləri üzərində cəmləşdirən terapiya olduğunu, bunun davranış və inkişaf pozuntuları olan uşaqlar üçün istifadə edildiyini söyləyib: “ABA təlimi autizm spektr pozuntusu korreksiyasında, diqqət əksikliyi və hiperaktiv pozuntu, zəka yetərsizliyi kimi problemlərdə tətbiq oluna bilən əvəzedilməz bir metoddur. Bu tip terapiya davranışın müşahidəsi, məqsədlərin müəyyən edilməsi, davranışın ölçülməsi, nəticələrin təhlili və davranışın effektiv şəkildə dəyişdirilməsi prosesini əhatə edir. ABA terapiya uşaqların idrak, ünsiyyət, dil və sosial bacarıqlarını inkişaf etdirməyə kömək edir. Təcrübə və tədqiqatlar göstərir ki, ABA terapiyası erkən yaşda başladıqda daha təsirli olur”.

Sonda tələbələrin çoxsaylı sualları cavablandırılıb.

# BDU-da elmi seminar: “Azərbaycanın quşları və onların mühafizəsi”

***Aprelin 1-də Ekologiya və torpaqşünaslıq fakültəsində 1 aprel – Beynəlxalq Quşlar Gününə həsr olunmuş elmi seminar keçirilib. Seminarda Bioekologiya kafedrasının doktorantı Ramil Həsənov “Azərbaycanın quşları və onların mühafizəsi” mövzusunda çıxış edib.***

Ramil Həsənov qeyd edib ki, Azərbaycanın coğrafi mövqeyi və mühüm miqrasiya marşrutlarının üzərində yerləşməsi bioloji müxtəlifliyin zəngin olmasına səbəb olub. Azərbaycan həm köçəri, həm də oturaq quşlar üçün əlverişli məkandır. Ölkədə 18 dəstənin 61 fəsiləsinə aid olan 400-dən çox quş növü qeydə alınıb, onların 78-i Azərbaycan Respublikasının “Qırmızı Kitabı”nın III nəşrinə daxil edilib.

Mühazirəçi quşların ekosistemlərdə və insan həyatında rolu, respublikamızın mühüm ornitoloji əraziləri, quşlar üçün təhlükə yaradan səbəblər və onların mühafizəsi üçün görülən tədbirlər haqqında danışıb. O, həmçinin çıxışında ornitofaunanın mühafizəsində Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin, ekoloji təhsil və maarifləndirmənin rolunu qeyd edib.

Daha sonra Ramil Həsənov 2024-2025-ci illərdə respublikamızın müxtəlif ərazilərində aparılmış monitorinqlərin nəticələrini bölüşüb. Qeyd edib ki, tədqiqatlar zamanı 152 növ qeydə alınıb, onlardan 22-si müxtəlif mühafizə statusuna malik olmaqla “Qırmızı Kitab”a daxil edilib. O, iqlim dəyişkənliyinin quşların miqrasiyasına, yayılma arealına, qidalanmasına və həyat fəaliyyətinə təsirinin nəticələrinə toxunub, təbii və antropogen təsirlərin səbəbindən respublikamızda nəsli kəsilmiş və yeni müşahidə edilən növlər haqqında tədqiqatları diqqətə çatdırıb.

Sonda seminar iştirakçılarının sualları cavablandırılıb.



# BDU-da təlim: “Autizm: səssiz duyğular, sonsuz imkanlar”

***Aprelin 4-də BDU-nun “BDU könüllüləri" təşkilatının Sosial elmlər və psixologiya fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə “Autizm: səssiz duyğular, sonsuz imkanlar” adlı maarifləndirici təlim keçirilib.***

Təlimin məqsədi tələbələrdə autizm haqqında doğru təsəvvür formalaşdırmaq, elmi əsaslara söykənən bilikləri artırmaq və autizmli şəxslərlə düzgün ünsiyyəti öyrətməkdir.

Təlimdə Psixologiya kafedrasının doktorantı, təlimçi Lamiyə Əhmədli-Şirinova Autizm Spektr Pozuntusu (ASP) barədə ətraflı məlumat verib. O, autizmin yaranma səbəbləri, erkən əlamətləri, inkişaf dinamikası və müalicə metodları kimi mövzulara toxunub. Həmçinin, autizmi olan insanlarla effektiv ünsiyyət üsulları, onların sosial həyatdakı çətinlikləri və bu problemlərin həlli yolları barədə danışıb. Mövzu ilə bağlı cəmiyyətdə mövcud olan bəzi yanlış təsəvvürlər də tələbələrin diqqətinə çatdırılıb.

Sonda tələbələrin mövzu ətrafında sualları cavablandırılıb.

# BDU Türkiyədə keçirilən ənənəvi “Kitabxana həftəsi”ndə təmsil olunub

***Aprelin 7-də İnformasiya və sənəd menecmenti fakültəsi, Azərbaycan Milli Kitabxanası, Türkiyənin Cümhurbaşkanlığı Millət Kitabxanası, Bartın, Çankırı Karatekin, Kastamonu və İstanbul 29 Mayıs universitetlərinin İnformasiya və sənəd menecmenti bölümlərinin birgə təşkilatçılığı ilə Türkiyədə keçirilən 61-ci “Kitabxana həftəsi” tədbirləri çərçivəsində elmi-praktik konfrans təşkil olunub.***

Tədbirin moderatoru, Bartın Universitetinin İnformasiya və sənəd menecmenti bölümünün rəhbəri, dosent Ahmet Altay bildirib ki, Türkiyədə 1964-cü ildən başlayaraq hər il keçirilən “Kitabxana həftəsi”nin məqsədi cəmiyyətdə kitabxanaçılıq təhsilinə, kitabxana-informasiya fəaliyyətinə marağı artırmaq, bu istiqamətdə daha yaxşı nəticələr əldə etməkdir. Həftə boyu müxtəlif tədbirlər, konfranslar, kitabxanalara, sərgi salonlarına və muzeylərə ekskursiyalar təşkil edildiyini deyən Ahmet Altay qeyd edib ki, tədbir çərçivəsində nüfuzlu ictimai xadimlərlə görüşlər keçirilir, mühazirələr, ustad dərsləri dinlənilir.

BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Əlmdar Cabbarlı 2021-ci ildən etibarən fakültənin Türkiyədə keçirilən “Kitabxana həftəsi” tədbirlərində təşkilatçı qismində iştirak etdiyini vurğulayıb, qardaş ölkənin kitabxanaçılıq və informasiya fəaliyyəti, muzey, arxiv işi ixtisasları üzrə kadr hazırlayan universitetləri və sahə qurumları ilə əlaqələrin müntəzəm inkişaf etdirildiyini, birgə ustad dərslərinin, mühazirələrin, beynəlxalq elmi konfransların keçirildiyini diqqətə çatdırıb.

Tədbirdə Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov Azərbaycan Milli Kitabxanasının fəaliyyəti haqqında məruzə edib. Məruzədə ölkəmizin ən böyük və zəngin kitabxanası olan Milli Kitabxana haqqında iştirakçılara ətraflı məlumat verilib. Milli Kitabxananın Azərbaycanda kitabxana işinin təşkilində mühüm rol oynadığı, kitabxana sahəsində dövlət siyasətini həyata keçirən təşkilat kimi fəaliyyət göstərdiyi vurğulanıb: “Milli Kitabxana Azərbaycan mədəniyyətinin, ədəbiyyatının dünya miqyasında tanıdılmasında xüsusi əhəmiyyət kəsb edən layihələr həyata keçirir, dünyanın 94 ölkəsinin Milli Kitabxanası ilə kitab mübadiləsi aparır”.

Konfrans çərçivəsində Türkiyə Cümhurbaşkanlığı Millət Kitabxanasının rəhbəri Ayhan Tuğlunun BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin tələbələri üçün ustad dərsi təşkil olunub. Görüş zamanı Türkiyə Cümhurbaşkanlığı Millət Kitabxanasının fəaliyyəti haqqında ətraflı məlumat verilib, Kitabxananın 2015-ci ildə Prezident Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə yaradıldığı və Türkiyənin ən böyük kitabxanası olduğu, öz fondlarına və xidmətlərinə görə dünyanın qabaqcıl kitabxanaları sırasında yer aldığı qeyd olunub. Millət Kitabxanasının fəaliyyət istiqamətləri, kitabxananın strukturu, sənəd dövriyyəsi, kitab fondu, komplektləşdirilmə mənbələri, oxucu sayı, kitabxanada təşkil edilən müxtəlif tədbirlər, sərgilər, həyata keçirilən layihələr barədə dolğun məlumatlar təqdim olunub.

Ustad dərsinin sonunda mövzu ətrafında müzakirələr aparılıb, məruzəçiyə çoxsaylı suallar ünvanlanıb.

# BDU və "ARB24" telekanalının növbəti "NewsLab" təlim proqramı başlayıb

***Aprelin 8-də BDU və "ARB24" telekanalı arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində dördüncü "NewsLab" təlim proqramı başlayıb.***



Üç ay davam edəcək proqram xəbər hazırlanması, nitq mədəniyyəti, görüntü və videomontaj sahələrini əhatə edir. Seçim mərhələsini uğurla tamamlayan 12 tələbə ilə BDU-da görüş keçirilib.

Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu bildirib ki, bu ildən etibarən təlimlərə III kurs tələbələri də cəlb edilib və əməkdaşlıq daha da genişləndirilib.

"ARB24" telekanalının direktoru Radik İsmayılov proqramın 4 ildir uğurla icra olunduğunu diqqətə çatdırıb. O, bu təlimin jurnalistika sahəsində işə qəbul öhdəliyi ilə həyata keçirilən yeganə layihə olduğunu bildirib.

Proqramı "gənclər üçün dəyərli imkan" adlandıran professor Qulu Məhərrəmli iştirakçıları fəal olmağa və bu fürsətdən maksimum yararlanmağa çağırıb.

Daha sonra Radik İsmayılov tələbələrə ilk təlim dərsini təqdim edib.

Qeyd edək ki, tədris proqramını uğurla başa vuran şəxslərə sertifikatlar veriləcək. Onların yarısı "ARB 24"də işlə təmin olunacaq.

# Kimya fakültəsində “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş tədbir

***Aprelin 10-da BDU-nun Tələbə Gənclər Təşkilatının Kimya fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan respublikasının Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edildiyini deyib. Bildirib ki, müstəqil Azərbaycanın Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi yolu ilə qəbul edilib və noyabrın 27-də qüvvəyə minib. Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində hüquqi baza yaradıb və onun inkişafına güclü təkan verib.

Sonra fakültənin I kurs tələbələri Ofelya Musazadə və Aysu İmanova “Konstitusiya və Suverenlik İlinə” həsr olunmuş təqdimatla çıxış ediblər.

Tədbirin sonunda Azərbaycan Konstitusiyası ilə bağlı videoçarx izlənilib.

# Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycandakı nümayəndəliyi BDU-da maarifləndirici görüş keçirib

***Aprelin 14-də Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycandakı nümayəndəliyi Biologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə maarifləndirici görüş keçirib.*** Görüşün məqsədi tələbələrdə ekoloji düşüncə tərzinin formalaşdırılması, nadir, nəsli kəsilməkdə olan növlərin qorunmasına dair biliklərin artırılması olub.

Tədbirdə WWF-in Azərbaycandakı nümayəndəliyinin layihə rəhbəri Könül Əhmədova ölkəmizdə nadir və nəsli kəsilməkdə olan heyvan növlərinin mühafizəsi sahəsində həyata keçirilən mühüm layihələr haqqında təqdimat edib. O, ceyranların təbiətə qaytarılması (reintroduksiya), eləcə də bəbirlərin və Qafqaz kəllərinin qorunması istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Görüş interaktiv müzakirələrlə davam edib, tələbələrin sualları cavablandırılıb.

# BDU-da maarifləndirici seminar: “Zərərli vərdişlərlə birgə mübarizə aparaq!”

***Aprelin 9-da Biologiya fakültəsi Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə “Zərərli vərdişlərlə birgə mübarizə aparaq!” adlı maarifləndirici seminar keçirilib.***

BDU-nun ərazisində yerləşən 30 nömrəli şəhər poliklinikasının həkim-terapevti Günay Allahverdizadə nikotin, alkoqol və narkotik maddələrin insan orqanizminə, xüsusilə də gənclərə verdiyi zərərlər, yaratdığı fəsadlar barədə ətraflı məlumat verib.

Biologiya fakültəsi üzrə TGT sədri Nigar Hüseynova isə siqaretin insan orqanizmində hüceyrə, toxuma, orqan səviyyəsində yaratdığı dəyişikliklərə, tənəffüs, ürək-damar sistemi və xərçəng xəstəliklərinə səbəb olmasına dair təqdimat edib.

Seminarda zərərli vərdişlərin fizioloji təsirləri ilə yanaşı, sosial və psixoloji təsirlərinə də toxunulub. Sağlam həyat tərzinin təşviqinin vacibliyi və gənclər arasında maarifləndirmənin önəmi vurğulanıb.

# BDU-da fəaliyyət göstərən “Yeni klub”un üzvləri Zəfər parkını ziyarət ediblər

***Aprelin 15-də BDU-da fəaliyyət göstərən “Yeni klub”un üzvləri Zəfər parkını ziyarət ediblər.***



Klub üzvləri parkda yaradılan şərait və tarixi qələbəmizin izlərini müxtəlif formalarda əks etdirən abidə kompleksi ilə yaxından tanış olublar. Tələbələrə Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib. Bildirilib ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib. Torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə parkın ərazisində Zəfər muzeyi də yaradılır.

# BDU-da informasiya mədəniyyətinin biblioqrafik fəaliyyətə təsirinə dair araşdırmalar aparılır



***Aprelin 3-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "İnformasiya mədəniyyəti və biblioqrafik fəaliyyət" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının magistrantı Musa Ələkbərov mövzu üzrə məruzə edib.***

Gənc tədqiqatçı əvvəlcə informasiya mədəniyyəti anlayışını şərh edib, onun təkamülü və müasir paradiqmaları barədə danışıb. İnformasiya mədəniyyətinin cəmiyyətə təsiri, xüsusilə təhsil prosesindəki rolu barədə məlumatları diqqətə çatdırıb: "İnformasiya cəmiyyətinə keçid ümumi mədəniyyətin tərkib hissəsi kimi yeni bir kateqoriyanın - informasiya mədəniyyətinin aktuallığını zəruri edir. İnformasiya mədəniyyəti məlumatın əldə edilməsi, emalı və ötürülməsi kimi geniş spektrli prosesləri əhatə edir. Bu baxımdan problemin biblioqrafik fəaliyyət kontekstindən tədqiqi mühüm əhəmiyyət daşıyır".

Araşdırmada informasiya mədəniyyətinin komponentləri kimi məntiqi mədəniyyət, semiotik mədəniyyət, ünsiyyət mədəniyyəti, şəbəkə mədəniyyəti və s. kimi anlayışlara aydınlıq gətirilib. Biblioqrafik fəaliyyət sferasında informasiya mədəniyyətinin mahiyyəti və əsas komponentləri izah edilib. Məruzədə həmçinin informasiya texnologiyalarının informasiya mədəniyyətinin inkişafına təsirindən, rəqəmsallaşma və süni intellektin biblioqrafik fəaliyyət sahəsinə gətirdiyi yeniliklərdən bəhs olunub.

Elmi seminar müzakirələrlə davam edib.

# BDU THİK-in təşkilatçılığı ilə "Dayanıqlı İnkişaf Məqsədləri həftəsi" başlayıb



***Aprelin 7-də BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə "Dayanıqlı İnkişaf Məqsədləri (DİM) həftəsi"nin açılış mərasimi keçirilib.***

Mərasimdə BDU THİK-in sədri Zöhrab Cavadzadə Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı ətraflı məlumat verərək, Azərbaycanın bu sahədə gördüyü işlərə toxunub.

BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov, Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Ekologiya və torpaqşünaslıq fakültəsinin Coğrafi ekologiya kafedrasının müdiri Məhluqə Yusifova, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov öz çıxışlarında 2015-ci ildə BMT tərəfindən müəyyən edilmiş DİM-lərin yoxsulluq, bərabərsizlik, iqlim dəyişikliyi və keyfiyyətli təhsil kimi qlobal problemləri həll etmək üçün universal bir çağırış olduğunu bildiriblər. Qeyd olunub ki, BDU innovasiya, elm və tədris mərkəzi kimi Dayanıqlı İnkişaf Məqsədlərinin milli səviyyədə inkişafında və təbliğində mühüm rol oynayır.

Aprelin 11-dək davam edən "Dayanıqlı İnkişaf Məqsədləri həftəsi" çərçivəsində "Sağlamlıq və rifah", "Keyfiyyətli təhsil", "İqlim dəyişikliyinə qarşı mübarizə", "Dayanıqlı şəhərlər və icmalar", "Bərabərsizliyin azaldılması" məqsədləri ilə bağlı təlimlər, seminarlar, interaktiv oyunlar keçirilib.

# BDU və NDU Elmi kitabxanaları arasında onlayn görüş

***Aprelin 10-da BDU-nun Elmi Kitabxanası ilə Naxçıvan Dövlət Universitetinin (NDU) Elmi Kitabxanasının əməkdaşları arasında onlayn görüş keçirilib. Görüşdə əsas məqsəd beynəlxalq elektron məlumat bazalarına yeni çıxış imkanlarının müzakirə edilməsi olub.***

BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova qurumun metodik mərkəz kimi gördüyü işlər, fəaliyyəti, resursları, strukturu, keçirdiyi tədbirlər haqqında iştirakçılara qısaca məlumat verib. O, nüfuzlu beynəlxalq təşkilat və nəşriyyatlarla ali məktəb kitabxanaları arasında əməkdaşlığın qurulmasında rəhbərlik etdiyi kitabxananın fəaliyyətindən danışıb.

NDU Elmi Kitabxanasının direktoru Xumar Məmmədova isə rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri, inkişaf perspektivləri, abunə olduğu akademik bazalar, beynəlxalq nəşrlər, elektron kitabxana resursları barədə məlumat verib.



BDU-nun Elmi Kitabxanasının Metodiki iş və əməkdaşlıq şöbəsinin müdiri Cəmilə Yusifova Universitetin nəzdində fəaliyyət göstərən Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) fəaliyyəti, üzvləri, gələcək perspektivlərindən söz açıb. Həmçinin konsorsium çərçivəsində EIFL.net beynəlxalq kitabxana konsorsiumu ilə qurulan əlaqələr, konsorsium üzvlərinə təqdim edilən xidmətlər, EBSCO nəşriyyatına abunəlik və EIFL.net Konsorsiumuna üzvlük istiqamətində görülən işlərdən danışıb.

Sonda qarşılıqlı fikir mübadiləsi və müzakirələr aparılıb, suallar cavablandırılıb.

# BDU-da "Yeni PM trendləri: Gələcəyin məhsul idarəçiliyi" mövzusunda seminar

***Aprelin 10-da BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşkilatçılığı ilə "ATL Academy"nin təlimçiləri Şahmar Həsənov və Şahruz Həsənli tərəfindən "Yeni PM trendləri: Gələcəyin məhsul idarəçiliyi" mövzusunda interaktiv seminar keçirilib.***

Əvvəlcə "ATL Academy"nin fəaliyyət istiqamətləri ilə bağlı məlumat verilib. Qeyd olunub ki, "ATL Academy" texnologiya və layihə idarəçiliyi sahəsində təlim və bilik paylaşımı üzrə ixtisaslaşmış bir platformadır. Akademiya yerli və beynəlxalq təcrübəni bir araya gətirərək, gənc mütəxəssislərə və şirkətlərə rəqabət qabiliyyətli bacarıqlar qazandırmağı hədəfləyir. "ATL Academy" təhsil müəssisələri ilə əməkdaşlığı gücləndirmək, tələbələri real bazar bilikləri ilə təmin etmək və onlarda innovativ düşüncə tərzini formalaşdırmaq məqsədilə mütəmadi olaraq təlim və seminarlar təşkil edir.

İnteraktiv seminarda müasir məhsul idarəçiliyi (PM) sahəsində qlobal tendensiyalar, bazarın dəyişən tələbləri və rəqəmsallaşma dövründə layihə menecmentinin əhəmiyyəti kimi məsələlər müzakirə edilib. Real layihələr üzərindən nümunələr təqdim olunub, məhsulyönümlü düşüncənin əhəmiyyəti, müasir layihə menecerindən gözləntilər və innovativ idarəetmə alətləri barədə məlumat verilib.

Seminarın sonunda iştirakçıların sualları cavablandırılıb.

# Gənclərin İnkişaf və Karyera Mərkəzinin baş direktoru BDU tələbələri ilə görüşüb

***Aprelin 15-də Bakı Dövlət Universitetinin "BDU könüllüləri" təşkilatının təşkilatçılığı ilə Gənclərin İnkişaf və Karyera Mərkəzinin (GKİM) baş direktoru Azər Əliyevin tələbələrlə görüşü keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Universitetdə həyata keçirilən sosial layihələr, gənclərin şəxsi inkişafı, karyera planlaması istiqamətində tədbirlər barədə məlumat verib.

Mərkəzin şöbə müdiri Könül İsmayılzadə GKİM-in fəaliyyət istiqamətlərindən bəhs edib, paytaxt və regionlarda gördüyü işləri tələbələrin diqqətinə çatdırıb.

Daha sonra GKİM-in baş direktoru Azər Əliyev "Şəxsi inkişaf və karyera fürsətləri" mövzusunda çıxış edib. O bildirib ki, Mərkəzin əsas prioritetləri gənclərin inkişafı üçün daha geniş imkanlar yaratmaq, yeni layihələrlə onların fəallığını artırmaq, beynəlxalq və yerli əməkdaşlıqların inkişaf etdirilməsi və texnologiya, təhsil, sahibkarlıq sahələrində yeni fəaliyyətlər həyata keçirməkdir. 6 ilə yaxındır gənclərin, xüsusilə region gənclərinin şəxsi inkişafı və karyera quruculuğuna dəstək məqsədilə layihələr həyata keçirən Mərkəzin 10-dan artıq regional nümayəndəliyi və 45-dək bölməsi fəaliyyət göstərir. Baş direktor tələbələrə karyera planlaması, əmək bazarında mövcud çağırışlar, dil biliklərinin təkmilləşdirilməsi istiqamətində tövsiyələr verib.

İnteraktiv şəkildə keçirilən görüşdə tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU-da Beynəlxalq Çin Dili Günü qeyd olunub



***Aprelin 21-də Şərqşünaslıq fakültəsinin və BDU-nun nəzdində Konfutsi İnstitutunun təşkilatçılığı ilə Beynəlxalq Çin Dili Günü qeyd olunub.***

Əvvəlcə Çin mədəniyyətinə aid xüsusi rəqs ifa olunub.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan 20 aprel - Beynəlxalq Çin Dili Gününün BMT-nin İctimai İnformasiya Departamentinin təklifi əsasında 2010-cu ildə təsis edildiyini, bu təşəbbüsün mədəni müxtəlifliyi, BMT-də altı rəsmi dildən bərabər istifadəni təşviq etmək məqsədi daşıdığını bildirib. Dekan Şərqşünaslıq fakültəsində Çin dilinin tədrisi barədə də məlumat verib. Qeyd edib ki, BDU-da 2004-cü ildən Çin üzrə "Regionşünaslıq" ixtisası açılıb. 2011-ci ildən isə Çinin Anhui Universiteti ilə əməkdaşlıq nəticəsində BDU-nun nəzdində Konfutsi İnstitutu fəaliyyətə başlayıb. İnstitutda Çin dili, Çin mədəniyyətinin təbliği və öyrənilməsi sahəsində mühüm işlər görülür. "Çin körpüsü" adlı Çin dili üzrə beynəlxalq yarış təşkil olunur. 2022-ci ildən isə Şərqşünaslıq fakültəsində "Çin filologiyası" ixtisası açılıb. 2023-cü il dekabrın 8-də BDU, Çin Təhsil Nazirliyinin Dil Təhsili və Əməkdaşlıq Mərkəzi və Anhui Universiteti arasında "Beynəlxalq Çin dili təhsili" birgə bakalavr proqramı üzrə üçtərəfli müqavilə imzalanıb.

BDU-nun nəzdində Konfutsi İnstitutunun direktoru Vanq Haoqianq isə qeyd edib ki, rəhbərlik etdiyi qurumun əsas məqsədi Çin dilinin əsaslarının keyfiyyətli tədrisi, təhsil sahəsində Azərbaycan və Çin arasında əməkdaşlığın, elmi və mədəni mübadilənin genişləndirilməsidir.

Tələbələr Çin dilində Beynəlxalq Çin Dili Gününün əhəmiyyətini çatdırıblar. Sonra Çin mədəniyyəti yarmarkasında Çin kalliqrafiyası, oyunlar, rəssamlıq kimi fəaliyyət növlərinə dair nümunələr sərgilənib.

# BDU-da respublika elmi konfransı: "Abidələr və tariximizin öyrənilməsində onların əhəmiyyəti"

***Aprelin 21-də Tarix fakültəsinin təşkilatçılığı ilə "Abidələr və tariximizin öyrənilməsində onların əhəmiyyəti" mövzusunda Gənc tədqiqatçıların respublika elmi konfransı keçirilib.***

Əvvəlcə Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov abidələrin qorunması, gələcək nəsillərə ötürülməsinin mühüm əhəmiyyət kəsb etdiyini bildirib, ölkədə bu sahədə həyata keçirilən dövlət siyasətindən bəhs edib. O, abidələrin təkcə tarixin yadigarları deyil, maddi-mədəniyyət nümunələri, xalqımızın bu regionda mövcudluğunun daş pasportları olduğunu bildirib.

Tarix fakültəsinin dekanı İbrahim Zeynalov "Milli tariximizin öyrənilməsində abidələrin və tarixi yerlərin əhəmiyyəti" adlı məruzəsində tarixi abidələrin xalqın qədim tarixinin, identikliyinin göstəricisi olduğunu, onların içərisində arxeoloji abidələrin xüsusi yer tutduğunu qeyd edib. Diqqətə çatdırıb ki, konfransa AMEA Arxeologiya və Antropologiya İnstitutu, BDU-nun Qazax filialı, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Lənkəran Dövlət Universiteti, "Çıraqqala-Şabran" Dövlət Tarix Mədəniyyət Qoruğu, "Qədim Şəmkir şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu, "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğundan çoxsaylı tezis daxil olub, onlardan 41-i konfransın təşkilat komitəsi tərəfindən qəbul edilib.

Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova, Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudov, Arxeologiya və etnoqrafiya kafedrasının müdiri Tarix Dostiyev milli-mədəni irsimizin, tarixi kökümüzün araşdırılması və təbliğində gənclərin rolunu vurğulayıb, dünya muzeylərində olan, eləcə də erməni vandalizminə məruz qalmış maddi mədəniyyət nümunələrinə sahib çıxa bilmək üçün elmi tədqiqatların aparılmasının vacibliyini bildiriblər.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşı Turan Eldarov "Qobustan abidələrinin tədqiqatları: tarixi, müasirlik və perspektivlər", BDU-nun magistrantı Aynur Ağayeva "II Kültəpə yaşayış yeri: Azərbaycanın erkən şəhərlərində gündəlik həyat" mövzularında məruzə ediblər.

Konfrans öz işini 6 bölmədə davam etdirib.

# BDU-da Beynəlxalq Yer Günü qeyd olunub

***Aprelin 22-də Geologiya və Coğrafiya fakültələrinin birgə təşkilatçılığı ilə 22 aprel – Beynəlxalq Yer Gününə həsr olunmuş elmi seminar keçirilib.***

Tədbirin keçirilməsində məqsəd bu günün əhəmiyyətini vurğulamaq, ətraf mühitin qorunması sahəsində qlobal çağırışları, geoloji və coğrafi elmlərin aktual problemlərini diqqətə çatdırmaqdır. Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov Beynəlxalq Yer Gününün qeyd olunmasının əhəmiyyətindən danışaraq, ekoloji sabitliyin qorunması və təbii sərvətlərdən səmərəli istifadənin vacibliyini vurğulayıb. O bildirib ki, 22 aprel Yer Gününün qeyd edilməsi ənənəsi 1970-ci ildə ABŞ-də yaranıb. Beynəlxalq Yer Günü BMT Baş Assambleyasının 2009-cu ildə keçirilən 63-cü sessiyasında qurumun 50-dən çox üzv dövlətinin birgə təşəbbüsü ilə təsis edilib və 2010-cu ildən aprelin 22-də qeyd olunur. O, belə elmi tədbirlərin tələbələrin ekoloji düşüncə tərzinin formalaşmasında və gənc mütəxəssislərin inkişafında mühüm rol oynadığını qeyd edib.

# BDU-da "Tələbə Hüquq Jurnalı"nın yaranmasının 10 illiyi qeyd olunub

***Aprelin 21-də Hüquq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə fakültənin nəşri olan, "Scopus" və "HeinOnline" kimi nüfuzlu bazalarda indekslənən "Tələbə Hüquq Jurnalı"nın yaranmasının 10 illiyinə həsr olunmuş tədbir keçirilib.***

Hüquq fakültəsinin dekanı Zaur Əliyev jurnalın tələbələrin elmi yaradıcılıq və hüquqi düşüncələrinin formalaşmasındakı rolundan, hüquq elminin və gənc hüquqşünasların inkişafına verdiyi töhfələrdən söz açıb. Bildirib ki, postsovet məkanında nüfuzlu beynəlxalq elektron bazalarda indekslənmiş və tələbələr tərəfindən idarə olunan ilk və yeganə akademik nəşr olan "Tələbə Hüquq Jurnalı" beynəlxalq səviyyədə yüksək nüfuza sahibdir. Jurnal ABŞ-nin Kaliforniya Universitetinin Berkeley, Yel Universitetinin kitabxalarında həm elektron, həm də fiziki formatda yer alır.

Sonra Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov təbrik məktubu iştirakçıların diqqətinə çatdırılıb.

Jurnalın baş redaktoru, Hüquq fakültəsinin III kurs tələbəsi Camal Əzimov, ilk baş redaktoru Orxan Abdulkərimli, Vəkillər Kollegiyasının Akademiyasının rektoru Əmir Əliyev, Kollegiyanın Biznes hüququ komitəsinin sədri Nazlı Əhmədova, Hüquq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin sədri Mansur Səmədov nəşrin tələbələrin hüquqi biliklərinin artmasında mühüm rol oynadığını bildiriblər.

# Psixoloji yardım sektoru "Cütlük münasibətlərində manipulyasiya" mövzusunda təlim keçirib



***Aprelin 21-də Psixoloji yardım sektoru (PYS) tələbələr üçün "Cütlük münasibətlərində manipulyasiya" mövzusunda maarifləndirici təlim keçirib.***

Təlimdə müxtəlif fakültələrdən olan tələbələr iştirak ediblər. Psixoloji yardım sektorunun psixoloqu Vasif Bəşirov bildirib ki, manipulyasiya insanın başqalarının duyğularını, düşüncələrini və davranışlarını öz maraqlarına uyğun olaraq gizli və ya aldadıcı şəkildə idarə etməyə çalışmasıdır. O, tələbələrə manipulyasiyanın rast gəlinən əsas növləri, onların fərdi və sosial münasibətlərə təsiri barədə məlumat verib.

Təlimdə ailədaxili münasibətlər, davranışlar, baş verən problemlər geniş təhlil edilib. Qeyd olunub ki, ailədaxili münasibətlərdə səmimiyyət, sevgi, qayğı, qarşılıqlı məsuliyyət fərdlərin fiziki və psixoloji baxımdan sağlam inkişafının əsas şərtidir.

İştirakçılarla münasibətlərdə emosional ehtiyacların insan psixologiyasına və davranışlarına təsiri mövzusunda interaktiv müzakirələr aparılıb.

# 85 il təhsilimizin və elmimizin xidmətində

***Azərbaycan təhsilində, müəllim kadrları hazırlığında, pedaqogika elminin inkişafında mühüm xidmətləri olan, elmi-pedaqoji ictimaiyyətdə tanınan və yüksək qiymətləndirilən ziyalılarımız çoxdur.*** Onların içərisində Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının professoru Məcid Abdulla oğlu İsmixanov özünəməxsus yer tutur. O, 85 illik ömür yolunun 63 ilini təhsilə, pedaqoji kadr hazırlığına sərf etmiş alim-pedaqoq kimi hörmət və nüfuz qazanmışdır. Onun pedaqoji fəaliyyətinin 48 ili Bakı Dövlət Universiteti ilə bağlıdır. İşlədiyi müddətdə o, özünü bacarıqlı müəllim, məhsuldar alim, yüksək intellektual və milli-mənəvi keyfiyyətlərə malik ziyalı-vətənpərvər şəxsiyyət kimi göstərmiş, üzərinə düşən vəzifələri vaxtında və yüksək səviyyədə yerinə yetirmişdir.

Prof. M.A.İsmixanov bütün həyatını müəllim kadrları hazırlığına həsr edib.

O, orta məktəbi əla qiymətlərlə başa vuraraq 1958-ci ildə müəllim kadrları hazırlayan APİ-yə (indiki ADPU) daxil olmuş, oranı adlı təqaüdlə və fərqlənmə diplomu ilə bitirərək, institutda assistent-müəllim kimi saxlanmış, pedaqoji fəaliyyətə başlamışdır. Müəllimliklə yanaşı Məcid müəllim tanınmış alim, professor Mərdan Muradxanovun rəhbərliyi ilə dissertasiya üzərində işləyərək, pedaqoji və elmi fəaliyyətini uğurla uzlaşdırmışdır. Çox keçmədən 1968-ci ildə namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. 1970-80-ci illərdə M.A.İsmixanovun elmi-pedaqoji fəaliyyəti genişlənmiş, müxtəlif jurnal və qəzetlərdə aktual pedaqoji mövzularda çoxsaylı məqalələr dərc etdirmiş, dəfələrlə respublika və beynəlxalq səviyyəli elmi konfranslarda orijinal pedaqoji problemlərlə bağlı məruzə və tezislərlə çıxış etmiş, respublika televiziya və radiosu ilə tərbiyə, o cümlədən ailə tərbiyəsi üzrə silsilə verilişlər aparmış, bir pedaqoq-alim kimi ictimaiyyət arasında tanınmışdır.



Məcid müəllim məhsuldar pedaqoq-alim kimi pedaqogika elminin müxtəlif sahələrinə, problemlərinə həsr olunmuş geniş həcmli əsərlərin müəllifidir. Hələ tələbəlik illərindən başlayaraq səmərəli və çoxcəhətli elmi fəaliyyət göstərmişdir.

Bu günə qədər onun 12 dərslik və dərs vəsaiti, 10 tədris-metodik vəsaiti, 5 monoqrafiyası, 300-dən çox elmi məqaləsi işıq üzü görmüşdür.

Prof. M.A.İsmixanovun ali məktəbin pedaqoji yönümlü ixtisasları üzrə qriflə nəşr olunmuş "Didaktika", "Pedaqogikanın əsasları", "Pedaqoji etika", "Sosial pedaqogika", "Təhsilin əsasları", "Ali məktəb pedaqogikası", "Məktəbin idarə edilməsi", "Pedaqogika" (27 çap vərəqi), "Higher school pedagogy" (textbook, ingilis dilində), "Pedaqoji terminlərin izahlı lüğəti", "Müəllimlik ixtisasına giriş", eləcə də "Ümumtəhsil məktəblərinin I sinifləri üçün "Azərbaycan dili (Dövlət dili kimi)" fənni üzrə dərslik və dərs vəsaitləri mütəxəssislər və müəllimlər tərəfindən yüksək dəyərləndirilmişdir.

Məcid müəllim qələmindən çıxan bu əsərlər tədqiqat bitkinliyi, əhatəliliyi, elmi səviyyəsi, anlaşıqlığı, məzmunu ilə böyük maraq doğurmuş, mütəxəssis-pedaqoqlar tərəfindən yüksək dəyərləndirilmişdir. O, həm elmi fəaliyyəti, həm də müəllimlik səriştəliliyi ilə böyük uğurlar qazanmışdır: onun fəaliyyətində alimliklə müəllimliyin vəhdəti özünü aydın biruzə verir. Məcid müəllimin özünəməxsus mühazirə üslubu, aydın, səlis və məntiqi danışıq tərzi vardır. Tələbələrə münasibətdə, qiymətləndirmədə hörmət və tələbkarlığı bacarıqla uzlaşdırır, onlarda seçdikləri ixtisasa, müəllimlik peşəsinə həvəs, motivasiya yaratmağa çalışır. Məcid müəllim, sözün əsl mənasında, nümunəvi müəllim, elm və təhsil adamıdır. Dərs dediyi tələbələr onun savadına, qayğıkeşliyinə, məsuliyyətliliyinə, obyektivliyinə, təmkinliliyinə, humanistliyinə görə yüksək dəyərləndirir və sevirlər. Onun vaxtilə dərs dediyi onlarla yetirməsi hazırda pedaqogika üzrə professor, dosent, bəziləri isə Əməkdar müəllim və elm xadimi, xarici ölkə Akademiyalarının akademikləri kimi fəaliyyət göstərirlər.

Məcid müəllim pedaqoji fəaliyyətində təhsil və tərbiyə işini bacarıqla əlaqələndirir: tələbələrə dərin elmi biliklər verməklə yanaşı, onların yüksək ixtisaslı mütəxəssislər kimi, şəxsiyyət-vətəndaş kimi, cəmiyyətin dəyərli üzvləri kimi formalaşmalarına çalışır. O, kafedranın fəaliyyətində də yaxından iştirak edir, ən məsul və ağır işi - ictimai vəzifəni yerinə yetirir: elmi işlər, onların planlaşdırılması, sistemləşdirilməsi, elmi hesabatların tərtibi və s. O, bu çətin işin öhdəsindən uzun müddətdir ki, şərəflə və ləyaqətlə gəlir.

Kafedranın proqram və dərsliklərlə təminatında aparıcı qüvvələrdəndir. O, bunlardan yorulmur və tükənmir. Çünki Məcid müəllim, sözün əsl mənasında, elm və təhsil adamıdır.

Prof. M.A.İsmixanov fakültənin, universitetin və respublikanın elmi-pedaqoji və ictimai həyatında fəal iştirak edir. Uzun müddət Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Pedaqogika və psixologiya üzrə Elmi-Metodik Şurasının elmi katibi, Nazirliyin mətbu orqanı olan "Azərbaycan məktəbi" jurnalı və onun əlavəsi kimi nəşr edilən "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnallarının redaksiya heyətinin, habelə Rusiya Pedaqoji Elmlər Akademiyası Didaktika üzrə Elmi-Problem Şurasının, Respublika Jurnalistlər Birliyinin üzvü kimi fəaliyyət göstərmişdir.

Prof. M.A.İsmixanovun elmi-pedaqoji fəaliyyəti Bakı Dövlət Universiteti, Elm və Təhsil Nazirliyi səviyyəsində dəfələrlə yüksək qiymətləndirilmişdir. Səmərəli elmi- pedaqoji fəaliyyətinə görə o, BDU-nun professoru elmi adına, "Qabaqcıl maarif xadimi" nişanına, BDU-nun 100 illiyi (1919-2019), eləcə də Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021) Azərbaycan Respublikasının yubiley medallarına, habelə müxtəlif səviyyələrdə Fəxri fərmanlara layiq görülmüşdür.

Mənalı həyatının 85 illik işıqlı dövrünü yaşayan prof. Məcid İsmixanovun həyatı və elmi-pedaqoji fəaliyyəti Vətənə, xalqa, respublikamızda təhsilin və pedaqogika elminin inkişafına layiqli xidmətin gözəl nümunəsidir. İstedadlı alim, gözəl müəllim, müdrik ziyalımız Məcid müəllimi bu yubiley günündə səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları, sevincli və xoşbəxt günlər, uzun ömür arzulayırıq.

***Ləzifə Qasımova,***
*Pedaqogika kafedrasının müdiri,*
*pedaqoji elmlər doktoru, professor*

# BDU-da Azad Nəbiyevin 80 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilib

***Aprelin 25-də Filologiya fakültəsi, Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar Elmlər Bölməsi, AMEA-nın Folklor İnstitutunun birgə təşkilatçılığı ilə görkəmli folklorşünas alim, filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Azad Nəbiyevin 80 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilib.***

BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor Səhər Orucova professor Azad Nəbiyevin Azərbaycan folklorşünaslığında xüsusi xidmətləri olduğunu vurğulayıb. O qeyd edib ki, hazırda rəhbərlik etdiyi, Azad Nəbiyev tərəfindən yaradılmış kafedra mərhum alimin elmi-təşkilatçılıq bacarığının bariz nümunəsidir.

AMEA-nın Humanitar Elmlər Bölməsinin Elmi Şurasının sədr müavini, akademik Teymur Kərimli vurğulayıb ki, hələ aspirantura təhsili aldığı illərdən Azad Nəbiyevi təcrübəli pedaqoq, elmi məsələlərə ciddi yanaşması ilə seçilən alim kimi tanıyıb. Onun elmi irsi bu gün də aktuallığını qoruyub saxlayır. Akademik vurğulayıb ki, Azad Nəbiyevin yetişdirdiyi kadrlar bu gün respublikanın müxtəlif qurumlarında uğurla fəaliyyət göstərirlər.





AMEA-nın Folklor İnstitutunun direktoru, dosent Hikmət Quliyev bildirib ki, Azad Nəbiyev həm bakalavriat, həm də magistratura dövründə onun diplom və dissertasiya işinə rəhbərlik edib və folklora elmi marağının artmasında, bu sahəyə gəlməsində mühüm rol oynayıb: "Azad Nəbiyev Azərbaycan folklorşünaslığına şəhər folkloru, balıqçı folkloru, ipəkçi nəğmələri, hanaçı nəğmələri, qaçaq folkloru və başqa yeni anlayışlar gətirib. Bəzi janrların etnopsixoloji düşüncə ilə bağlı tərəflərinə ilk dəfə onun əsərlərində toxunulub. Alim özünün ikicildlik "Azərbaycan xalq ədəbiyyatı" dərsliyində şifahi yaradıcılıq örnəklərinin "lirik, epik, dramatik növlər" bölgüsündən imtina edib, bunu lirik, epik, dramatik üslub kimi verməklə, folklorun filoloji baxış bucağı ilə məhdudlaşan təsnifatından ilk dəfə kənara çıxıb. Bu yanaşma filoloji folklorşünaslıqdan sosial-antropoloji folklorşünaslığa keçidin ilkin əlamətləri kimi də qəbul oluna bilər. Azad Nəbiyev öz tədqiqatlarında o zamanadək folklorşünaslığımızda diqqət yetirilməyən bir çox məsələləri tədqiqat müstəvisinə gətirib".

Elmi sessiyada professor Ramil Əliyev "Azad Nəbiyev və folklor mədəni irsi", dosent Etibar Talıblı "Azərbaycan folklorunun görkəmli tədqiqatçısı və təbliğatçısı", dosent Qalib Sayılov "Milli folklorşünaslığımızda Azad Nəbiyev assosiasiyası", dosent Kəmalə İslamzadə "Etnopsixoloji düşüncə ilə bağlı yaranan janrlar" mövzularında məruzə ediblər.

Daha sonra professor Azad Nəbiyevlə uzun illər çiyin-çiyinə çalışmış həmkarlarından professor Cəlil Nağıyev, Folklor İnstitutunun şöbə müdiri, professor Seyfəddin Rzasoy, dosent Məhərrəm Vəliyev alimlə bağlı xatirələrini və ürək sözlərini iştirakçılarla bölüşüblər.

Elmi sessiyada Azad Nəbiyevin həyat və yaradıcılığından bəhs edən videoçarx təqdim olunub.

Alimin ailəsi adından çıxış edən qızı, BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müəllimi, filologiya elmləri doktoru Ülkər Nəbiyeva elmi sessiyanın təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

# Türkiyənin Üsküdar Universitetinin Sosial Elmlər İnstitutunun direktoru BDU-da ustad dərsi keçib



*Aprelin 25-də Türkiyənin Üsküdar Universitetinin Sosial Elmlər İnstitutunun direktoru, professor Gökben Hızlı Sayar Sosial elmlər və psixologiya fakültəsində "Bağlanma nəzəriyyəsi və insanlar arasında psixoterapiya" mövzusunda ustad dərsi keçib. Tədbirdə Üsküdar Universitetinin rektoru Nazife Güngör və nümayəndə heyəti, fakültənin professor-müəllim heyəti, tələbələri iştirak ediblər.*

Fakültənin dekanı Rövşən Cavadov qonaqları salamlayıb, iki universitet arasında psixologiya sahəsində də yaxşı əməkdaşlıq imkanlarının olduğunu bildirib, belə görüşlərin tələbələrin yüksəkixtisaslı mütəxəssis kimi yetişməsində rolunu vurğulayıb.

Üsküdar Universiterinin rektoru Nazife Güngör professor Gökben Hızlı Sayarın Türkiyənin tanınmış psixoloqlarından olduğunu diqqətə çatdırıb, qeyd edilən mövzunun yalnız psixoloqlar, bu sahə üzrə təhsil alan tələbələr üçün deyil, insan qrupları ilə çalışan bütün peşə sahələri üçün əhəmiyyət daşıdığını bildirib.

Professor Gökben Hızlı Sayar şəxslərarası psixoterapiyanın hər bir psixi sağlamlıq mütəxəssisinin ehtiyac duyduğu sadə və effektiv üsul olduğunu bildirib. O, şəxslərarası psixoterapiyanın humanizmə, empatiyaya, bağlılığa əsaslanan terapiya üsulu kimi çox istifadə edildiyini qeyd edib: "Bağlılıq nəzəriyyəsinə əsaslanan bu terapiya məktəbi təkcə psixoloqlar tərəfindən deyil, həm də dünyada tibb bacısı, mama-ginekoloqlar, uşaq inkişafı üzrə mütəxəssislər, ailə məsləhətçiləri, sosial işçilər, bələdçilər kimi bir çox peşələrdə uğurla istifadə olunur".

Ustad dərsindən sonra fakültənin Psixologiya kafedrasında Üsküdar Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib, qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunub.

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin BDU tələbələri üçün infosessiyası

Azərbaycanda əhalinin sağlamlığının qorunması və zəruri tibbi xidmətlərin göstərilməsi işini təkmilləşdirmək məqsədilə 2021-ci ildən etibarən icbari tibbi sığorta sistemi tətbiq olunur.

*Aprelin 25-də BDU-nun Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə İcbari Sığorta üzrə Dövlət Agentliyinin tələbələr üçün infosessiyası keçirilib.*

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi Ələkbər Həsənov Agentliyin fəaliyyət istiqamətləri haqqında məlumat verib. Diqqətə çatdırıb ki, Azərbaycanda əhalinin sağlamlığının qorunması və zəruri tibbi xidmətlərin göstərilməsi işini təkmilləşdirmək məqsədilə 2021-ci ildən etibarən icbari tibbi sığorta sistemi tətbiq olunur. Hər bir vətəndaş sistemdən yararlanmaqla keyfiyyətli tibbi xidmətdən istifadə edə bilər.

Daha sonra İcbari Sığorta üzrə Dövlət Agentliyinin aparıcı mütəxəssisi Fuad Bayramov icbari tibbi sığortaya müraciət və istifadə qaydaları, icbari tibbi sığortanın Xidmətlər Zərfinə daxil olan xidmətlər haqqında təqdimatla çıxış edib.

Sonda tələbələr tibbi sığortadan istifadəyə dair suallarını ünvanlayıb və xidmət keyfiyyətinin artırılması ilə bağlı onlayn sorğuda iştirak ediblər.

# Beynəlxalq Çoxtərəflilik və Sülh Naminə Diplomatiya Gününə həsr olunmuş elmi seminar



*Aprelin 25-də Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) və "YENİ klub"un birgə təşkilatçılığı ilə 24 aprel - Beynəlxalq Çoxtərəflilik və Sülh Naminə Diplomatiya Gününə həsr olunmuş elmi seminar keçirilib.*

Beynəxalq münasibətlər və iqtisadiyyat fakültəsinin TEC sədri Əli Bədəlov Azərbaycanın xarici siyasətində çoxtərəflilik prinsipinin önəmindən söz açaraq, bu sahədə gənclərin fəal mövqeyinin vacib olduğunu bildirib.

BDU-nun Beynəlxalq münasibətlər kafedrasının dosenti Əlimusa İbrahimov Azərbaycanın xarici siyasətində çoxtərəfli əməkdaşlıq formatlarına verdiyi önəmi konkret nümunələr üzərindən izah edib. Bildirib ki, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzu məhz bu prinsipial və çevik diplomatik xəttin nəticəsidir. Məruzəçi çıxışında Yaxın Şərq regionundakı mövcud geosiyasi vəziyyətin çoxtərəfli diplomatiya üçün yaratdığı çağırışlara və imkanlara da toxunub, tələbələri bu mövzularda daha fəal olmağa dəvət edib.

Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının dosenti Təranə Tağıyeva çıxışında müasir beynəlxalq münasibətlər sistemində sülh və sabitliyin qorunmasında diplomatiyanın, xüsusilə də çoxtərəfli yanaşmaların önəmindən bəhs edib. O, Azərbaycanın beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığını, regional və qlobal təşəbbüslərdə fəal iştirakını, eləcə də diplomatik uğurlarını geniş şəkildə təhlil edib.

Seminar mövzu ətrafında interaktiv müzakirə ilə davam edib.

# Hüquq fakültəsinin tələbələri üçün Baş Prokurorluğun Elm-Tədris Mərkəzində təlim

*Aprelin 22-də Hüquq fakültəsi üzrə Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş təlim keçirilib.*

Təlimin əvvəlində iştirakçılara 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi, bununla bağlı həyata keçirilən tədbirlərin hüquqi və ictimai əhəmiyyəti, Hüquq fakültəsi tələbələrinin bu prosesdə fəal iştirakı barədə ətraflı məlumat təqdim olunub.

Sonra Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin prokuroru Məhərrəm Əzizbəyov "Süni intellekt texnologiyalarının prokurorluq orqanlarında tətbiq istiqamətləri" mövzusunda təqdimat edib. O, hüquq-mühafizə orqanlarında süni intellektin tətbiq sahələri, istintaq prosesində bu texnologiyaların istifadə perspektivləri və effektivliyin artırılmasındakı rolu barədə iştirakçılara geniş məlumat verib.

Təqdimat praktiki nümunələrlə izah olunub, real kazuslar əsasında təhlillər aparılıb və tələbələrlə interaktiv müzakirələr keçirilib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# "PAŞA Sığorta" ASC BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsində infosessiya keçirib

*Aprelin 25-də "PAŞA Sığorta" ASC sığorta sahəsində maarifləndirmə tədbirlərinin bir hissəsi olaraq Tətbiqi riyaziyyat və kibernetika fakültəsində infosessiya keçirib.*

Sessiyanın açılışında fakültənin dekanı, professor Ələkbər Əliyev dövlət və özəl qurumlarla əməkdaşlığın önəmini vurğulayıb, bu cür tədbirlərin davamlı olmasının vacibliyini qeyd edib.

"PAŞA Sığorta"nın nümayəndələri Gültən Hacıyeva və Nərgiz Məmmədova sığortanın əhəmiyyəti, əsas sığorta növləri və bu sahədə mövcud olan aktual trendlər barədə geniş məlumat veriblər. Eyni zamanda, şirkətin təqdim etdiyi müxtəlif sığorta məhsulları haqqında da təqdimat keçirilib.

"PAŞA Sığorta" şirkətinin İstedadların cəlb edilməsi şöbəsinin nümayəndələri Fuad Vəzirov və Şəhla Xudiyeva şirkətdə mövcud olan karyera imkanları haqqında iştirakçıları məlumatlandırıblar.

Sonra tələbələr arasında keçirilən interaktiv yarışmada qalib gələn iştirakçılar mükafatlandırılıblar. Sonda tələbələrin sualları cavablandırılıb.

# BDU könüllüləri DTX-nin Akademiyasının "Şöhrət" muzeyində

*Aprelin 24-də Bakı Dövlət Universitetinin "BDU könüllüləri" təşkilatının üzvləri Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyini ziyarət ediblər.*

BDU könüllüləri əvvəlcə Ulu Öndər Heydər Əliyevin Akademiyanın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri düzüblər. Sonra "Şöhrət" muzeyində Ümummilli Lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən fotostendlər və eksponatlarla tanış olublar.

# BDU-da təlim: “Dayanıqlı İnkişaf Məqsədlərinin tədris və tədqiqat prosesinə inteqrasiyası”

*Aprelin 17-də BDU-da Birləşmiş Millətlər Təşkilatının müəyyən etdiyi Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) ali təhsildə təşviqinə yönəlmiş növbəti önəmli addım atılıb.* Universitetin Keyfiyyət Təminatı Mərkəzinin təşəbbüsü və rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasovun rəhbərliyi ilə “Dayanıqlı İnkişaf Məqsədlərinin tədris və tədqiqat prosesinə inteqrasiyası” mövzusunda təlim keçirilib.



Təlimdə universitetin müxtəlif fakültələrini təmsil edən dekan müavinləri və müvafiq istiqamət üzrə əlaqəli məsul şəxslər iştirak ediblər. Tədbirin əsas məqsədi 17 DİM-in ali təhsil sistemində daha geniş tətbiqini təşviq, elmi-tədqiqat və tədris fəaliyyətlərinə səmərəli inteqrasiyasını təmin etməkdir.

Təlim zamanı iştirakçılara DİM-lərin ali təhsildə rolu və əhəmiyyəti, bu məqsədlərin tədqiqat və akademik fəaliyyətlərlə əlaqələndirilməsi, beynəlxalq təcrübələrdə tətbiq olunan DİM əsaslı yanaşmalar barədə ətraflı məlumat təqdim edilib. Təlimdə Universitetin strateji inkişaf istiqamətlərinin DİM-lərlə uzlaşdırılması və keyfiyyət təminatı çərçivəsində davamlı inkişaf prinsiplərinin tətbiqi ilə bağlı müzakirələr aparılıb.

# BDU-da Fizika, riyaziyyat və informatika təmayüllü liseyin şagirdləri üçün infotur

*Aprelin 18-də BDU-da Elm və Təhsil Nazirliyinin nəzdində Fizika-riyaziyyat və informatika təmayüllü liseyin şagirdləri üçün infotur keçirilib.*



Əvvəlcə şagirdlər BDU-nun Heydər Əliyev muzeyi və Heydər Əliyev lektoriyası ilə tanış olublar. Bildirilib ki, ən son texnologiyalar əsasında və müasir üslubda hazırlanan hər iki məkanda Ümummilli Liderin həyatını və siyasi fəaliyyətini əks etdirən eksponatlar və məlumatlar həm real, həm də digital şəkildə ziyarətçilərə nümayiş etdirilir.

Daha sonra şagirdlər “Təkamül təlimi” muzeyi və Universitetin unikal layihəsi olan “EKO Məkan”da olublar. Onlara BDU-dakı ixtisaslar barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, müasir dövrün tələbləri və karyera imkanları nəzərə alınaraq, tələbələr üçün hər cür şərait yaradılıb. Universitetin müasir tədris metodları, informasiya texnologiyaları sahəsində tətbiq etdiyi yeniliklər, BDU-nun “TEKNOFEST” və “Robotex” komandalarının beynəlxalq uğurlarından söz açılıb.

Sonda şagirdlər BDU-nun yeni təmir olunmuş 2 saylı tədris binasında yaradılan şəraitlə tanış olublar.

# BDU-da tələbələrin "Gələcəyin alimləri" adlı X elmi konfransı

*Aprelin 18-də Fizika fakültəsində tələbələrin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Gələcəyin alimləri” adlı X elmi konfransı keçirilib.*

Əvvəlcə Azərbaycan respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiya mərkəzinin müdiri, professor Mais Süleymanov tələbələrin elmi fəaliyyətə cəlbinin vacibliyi qeyd edib. Bildirib ki, tədqiqat universitetinə çevrilməkdə olan BDU dünya reytinqində məhz elmi fəaliyyətin artırılmasına və tələbələrin bu proseslərə cəlbinə görə ciddi nəticələr əldə edir: “Elmin müxtəlif sahələrində innovativ yanaşmaların tətbiqində gənclərin iştirakı mütləqdir və buna hər zaman dəstək olmağa hazırıq”.

Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayev Ulu Öndər Heydər Əliyevin Azərbaycan elminin inkişafına göstərdiyi qayğıdan, müstəqillik illərində onun rəhbərliyi altında ölkəmizin keçdiyi inkişaf yolundan danışıb. O, Ümummilli Liderin layiqli davamçısı Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha böyük uğurlara imza atdığını, Qarabağın azadlığının gerçəkləşdiyini, azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirildiyini, uzun illər köçkün həyatı yaşayan vətəndaşlarımızın öz yurdlarına qayıdışının uğurla davam etdiyini qeyd edib. Bəxtiyar Paşayev elm və təhsil sahəsində çalışan hər bir vətəndaşın üzərinə daha böyük məsuliyyət düşdüyünü, bunun üçün gənclərin daha çox çalışmalı və öyrənməli olduğunu bildirib.

Optika və molekulyar fizika kafedrasının müdiri, professor Rəna Qasımova 100-ə yaxın tezisin təqdim edildiyi konfransın gənclər tərəfindən maraqla qarşılandığını deyib.

Konfransın plenar iclasında Fizika fakültəsi IV kurs tələbəsi Aytən Mayılova və III kurs tələbəsi Səlimə Xalıqova məruzə ilə çıxış ediblər.

# BDU-da Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universitetinin nümayəndə heyəti ilə görüş

*Aprelin 17-də BDU-da Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.*

Görüşdə BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universitetinin beynəlxalq əlaqələr üzrə rektor müşaviri Svetlana Şvedova və Korporativ layihələr şöbəsinin müdiri İlya İzakson iştirak edib.

Qonaqlara BDU-nun tarixi, fəaliyyət istiqamətləri, elm, tədris fəaliyyəti və beynəlxalq əlaqələri haqqında ətraflı məlumat verilib. Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universitetinin nümayəndələri də ali təhsil müəssisəsindəki fakültə və ixtisaslar haqqında danışıblar. Sonra iki universitet arasında əməkdaşlığın mümkün perspektivləri müzakirə olunub.

# BDU-da sürünənlərin bəzi növlərinin sitoloji-histoloji xüsusiyyətləri araşdırılır

*Aprelin 17-də Biologiya fakültəsinin Zoologiya və fiziologiya kafedrasının dissertantı Ramin Həşimovun “Azərbaycanda sürünənlərin Ophisops elegans, Lacerta strigata, Tenuidactylus caspius (Reptilia, Sauria) növlərinə ekoloji amillərin təsiri və onların sitoloji-histoloji tədqiqi” mövzusunda elmi seminarı keçirilib.*

Seminarda respublikamızda biomüxtəlifliyin qorunması və ekosistemlərin öyrənilməsi baxımından mühüm sayılan kərtənkələ növlərinin yaşayış mühiti, ekoloji amillərə uyğunlaşma mexanizmləri və toxuma səviyyəsindəki dəyişiklikləri müzakirə olunub. Müxtəlif ekosistemlərdən toplanmış nümunələr üzərində aparılan tədqiqatlar nəticəsində urbanizasiyanın, temperatur dəyişkənliyinin və digər amillərin bu növlərin morfoloji və histoloji quruluşuna təsiri ətraflı təqdim olunub.

Ramin Həşimovun apardığı araşdırmalar sübut edib ki, uzunmüddətli sabit isti şəraitdə bəzi növlərdə parazitlərin aktivləşməsi müşahidə olunur, ekosistemin orta illik temperaturu isə kərtənkələlərin morfometrik göstəricilərinə birbaşa təsir göstərir. BDU-nun dissertantı əldə olunan nəticələr, həmçinin, bu növlərin yayılma arealında baş verən dəyişikliklərə dair mühüm məlumatları təqdim edib.

Seminar iştirakçıları mövzu ilə bağlı elmi diskussiya aparıb, araşdırmanın nəzəri və tətbiqi baxımdan əhəmiyyətli olduğunu vurğulayıblar.

# Sosial elmlər və psixologiya fakültəsi beynəlxalq əməkdaşlığı genişləndirir

*Aprelin 17-də Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin 23 əməkdaşı Sosial elmlər və psixologiya fakültəsinin professor-müəllim heyəti ilə görüşüb, əməkdaşlığın daha da genişləndirilməsini müzakirə ediblər.*



Görüş zamanı hər iki universitetin müvafiq kafedralarında çalışan professor-müəllim heyəti arasında gələcəkdə birgə tədqiqatların aparılması, qrant layihələrinin işlənib hazırlanması, birgə elmi məqalələrin nəşr etdirilməsi, konfranslarda iştirak və s. istiqamətlərdə kompleks tədbirlərin həyata keçirilməsi barədə fikir mübadiləsi aparılıb. Görüşdə magistratura səviyyəsində ikili diplom proqramının təşkili də müzakirə edilib.

Özbəkistanlı qonaqlar fakültədə müxtəlif ixtisaslar üzrə təhsil alan tələbələrə ustad dərsləri keçiblər.

# "Gənc istedadlar" liseyinin şagirdləri BDU-nu ziyarət ediblər

***Aprelin 4-də BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin VII sinif şagirdləri BDU-nu ziyarət ediblər. Şagirdlər BDU-nun Heydər Əliyev muzeyi, Heydər Əliyev lektoriyası, Təkamül muzeyi, Universitetin unikal layihəsi olan "EKO Məkan"da olublar.***

Şagirdlərə BDU-dakı ixtisaslar barədə ətraflı məlumat verilib. Bildirilib ki, müasir dövrün tələbləri və karyera imkanları nəzərə alınaraq, tələbələr üçün hər cür şərait yaradılıb. Universitetin müasir tədris metodları, informasiya texnologiyaları sahəsində tətbiq etdiyi yeniliklər, BDU-nun "TEKNOFEST" və "Robotex" komandalarının beynəlxalq uğurları da diqqətə çatdırılıb.

Sonda şagirdlər BDU-nun yeni təmir olunmuş 2 saylı tədris binasında yaradılan şəraitlə tanış olublar.




# BDU tələbələrinə Bakı Zooloji Parkında mühazirə keçirilib

***Aprelin 11-də Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələrinə "Heyvan ekologiyası" fənninin mühazirə dərsi Bakı Zooloji Parkında innovativ tədris metodları ilə keçirilib.***

Tələbələrə zooparkda məskunlaşan müxtəlif heyvan növləri, onların həyat tərzi, ekoloji xüsusiyyətləri və etologiyası barədə məlumat verilib. Həmçinin, tələbələrə sürünənlər sinfinə mənsub olan saqqallı aqama, adi boa, eublefar, həşəratlar sinfinə aid Madaqaskar tarakanı və bir çox heyvan növləri ilə əyani şəkildə tanış olmaq fürsəti yaradılıb.

Sonra tələbələr parkın ərazisindəki Azərbaycanın yerli fauna nümunələri, müxtəlif coğrafi bölgələrə məxsus heyvan növləri ilə tanış olublar. Onlara Azərbaycanın "Qırmızı Kitab"ına daxil, nəsli kəsilmək üzrə olan növlərin mühafizəsi, populyasiyalar üçün ekoloji təhlükələrin aradan qaldırılması, ərazidə həyata keçirilən reintroduksiya proqramı haqqında da məlumat verilib.

# BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin "Karyera yolu" layihəsinin infosessiyaları başlayıb

***Aprelin 11-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzi tərəfindən təşkil edilən "Karyera yolu" layihəsi çərçivəsində infosessiyalara start verilib. Layihə Ekologiya və torpaqşünaslıq, Filologiya, Coğrafiya, Tarix, İnformasiya və sənəd menecmenti, Şərqşünaslıq fakültələrinin I və III kurs tələbələri*** üçün nəzərdə tutulub.

Tədbirin açılışında Karyera və məzunlarla iş Mərkəzinin fəaliyyəti barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, mərkəzin əsas məqsədi tələbələrin peşəkar bacarıqlarını inkişaf etdirmək və onların əmək bazarına uğurla daxil olmalarını təmin etməkdir. Bu məqsədlə tələbələr müxtəlif şirkətlərin təcrübə proqramları və iş imkanları ilə tanış ediləcək.

"Karyera yolu" layihəsinin mahiyyəti və əsas istiqamətləri tədbir iştirakçılarına izah edilib. Layihə çərçivəsində 5 moduldan ibarət təlimlər təşkil ediləcək. Hər bir modul bir-biri ilə əlaqəlidir. İştirakçılara fərdi yanaşma, mentorluq xidməti, praktiki tapşırıqlar, SMART prinsipləri ilə karyera planlaşdırma üzrə biliklər təqdim olunacaq.

Layihə tələbələrə öz güclü və zəif tərəflərini müəyyənləşdirmək, perspektivli peşələr haqqında məlumat əldə etmək, əmək bazarını təhlil etmək, müxtəlif iş axtarışı alətləri və strategiyaları ilə tanış olmaq, peşəkar CV və rezüme tərtib etməyi öyrənmək imkanı verəcək. Layihə iştirakçıları müsahibə yolu ilə seçiləcək. Layihənin sonunda tələbələr iş dünyasına atılmaq üçün zəruri bilik və bacarıqlara sahib olacaqlar.

# BDU-da Tələbələrarası I Azərbaycan kubokunun seçim turu davam edir

***Aprelin 15-də Bakı Dövlət Universitetində Gənclər və İdman Nazirliyi, "Xəzər" İntellektual Gənclər Klubu və BDU-nun Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən Tələbələrarası I Azərbaycan kubokunun ikinci seçim turu keçirilib.***

"Nə? Harada? Nə zaman?" intellektual oyunu formatında keçirilən turnirdə tələbələr 24 sual üzrə, 4 turda yarışıb. Universitet liqasının qalibləri Tələbələrarası I Azərbaycan kuboku uğrunda mübarizə aparmaq hüququ əldə edəcəklər.

Qeyd edək ki, yarışın keçirilməsində məqsəd tələbə gənclərin intellektual oyunlar vasitəsilə bilik və bacarıqlarının artırılması, asudə vaxtlarının səmərəli təşkil edilməsinin təmin olunmasıdır.



# Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələri Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda istehsalat təcrübəsində

***Aprelin 9-da Ekologiya və torpaqşünaslıq fakültəsinin "Torpaqşünaslıq və aqrokimya" ixtisası üzrə IV kurs tələbələri Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda istehsalat təcrübəsindədirlər.***

Təcrübə müddətində tələbələr İnstitutun şöbə və laboratoriyaları ilə tanış olur, Aqrotexnologiya şöbəsində açıq və örtülü sahədə tərəvəz, bostan bitkilərinin becərilməsi zamanı torpağın seçilməsi, əkinə hazırlanması, səpin və əkinin aparılması, aqrotexniki qulluq işlərini öyrənirlər. Seleksiya şöbəsində ilkin materialın seçilməsi, müxtəlif seleksiya metodlarının köməyi ilə yeni sort və hibridlərin alınması qaydaları izah edilir. Toxumçuluq şöbəsində yerli və rayonlaşmış sortların ilkin toxumçuluğu, İstixana tərəvəzçiliyi şöbəsində pomidor, bibər, badımcan, xiyar və kahı bitkilərinin örtülü şəraitdə becərilməsi texnologiyası, onların seleksiyası və toxumçuluğu, Funksional analizlər laboratoriyasında bitkilərin gübrələmə rejimləri, fizioloji göstəriciləri, torpaq, bitki, su analizləri, onlarda olan aqrokimyəvi maddələrin qalıqları, Emal, saxlama və keyfiyyət laboratoriyasında məhsulun müasir üsullarla emalı, süni və təbii üsullarla qurudulması, konservləşdirilməsi, Bitki mühafizəsi laboratoriyasında zərərli orqanizmlərə qarşı müxtəlif mübarizə üsullarının tətbiqi, Aqrobiotexnologiya laboratoriyasında apikal meristem üsulu ilə kartofun mikroklonal artırılması yolu ilə sağlam və saf xətlərin alınması, alınmış bitkilərdən Kartofçuluq şöbəsində yeni sortların yaradılması, onların becərilmə texnologiyası öyrənilir.

Funksional analizlər laboratoriyasında ən müasir cihazlardan olan İCP-OES cihazında bitkidə, torpaqda və suda müxtəlif makro və mikroelementlərin, qaz və maye xromotokqraf cihazında pestisidlərin qalıqlarının, tərəvəz bitkilərinin müxtəlif orqanlarında quru maddənin, ekstraktiv maddənin, şəkər, nişasta, nitratın və s. təyini tələbələrin diqqətini çəkən əsas məqamlardandır. Təcrübə müddətində tələbələr laboratoriyalarda su nümunələrində nitrit, sulfat, xlorid ionlarının təyinini də aparırlar.

# BDU tələbələri "Təmiz Şəhər" ASC-yə ekskursiya ediblər

***Aprelin 10-da BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə tələbələr "Dayanıqlı İnkişaf Məqsədləri həftəsi" çərçivəsində "Təmiz Şəhər" ASC-yə ekskursiya ediblər. Səfərin məqsədi tələbələri tullantıların idarə olunması, təkrar emalı və ekoloji maarifləndirmə sahəsində aparılan işlərlə yaxından tanış etmək olub.***

Ziyarət zamanı ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Orxan Cabbarlı müəssisənin fəaliyyəti haqqında geniş məlumat verib. O, tullantıların idarə olunması, düzgün şəkildə ayrılmasının əhəmiyyətindən və bu sahədə gənclər arasında maarifləndirmə işlərinin aparılmasının vacibliyindən bəhs edib. Tullantıların ayrılması zamanı tapılan diqqətçəkici əşyalar nümayiş olunub, bu əşyaların sahiblərinə qaytarılması ilə bağlı maraqlı faktlar səsləndirilib.

Səfər çərçivəsində tələbələr Balaxanı Sənaye Parkını da ziyarət ediblər. Onlara sənaye parkının tarixi, fəaliyyəti və burada yerləşən Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun idarəetmə prosesi haqqında məlumat verilib.

Tələbələr sonda plastik qəlibləmə, çap-kəsim, sürtkü yağı istehsalı və təkrar emal sahələri ilə də yaxından tanış olublar. Bu sahələrdə tətbiq olunan texnologiyalar, xammalın istehsalı prosesi barədə ətraflı məlumat təqdim edilib.

# BDU tələbələri tütün məhsullarının zərərli təsiri barədə məlumatlandırılıb



***Aprelin 4-də Bakı Dövlət Universitetinin (BDU) Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "Zərərli vərdişlərlə birgə mübarizə aparaq" mövzusunda maarifləndirici tədbir keçirilib.***

TGT-nin Biologiya fakültəsi üzrə sədri Nigar Hüseynova tütün məmulatlarının insan sağlamlığına vurduğu zərərlərdən danışıb. Bu zərərli vərdişə aludə olanlar arasında yeniyetmə və gənclərin üstünlük təşkil etdiyini deyən fakültə sədri bildirib ki, tütünün zərərli təsiri illər sonra, nikotinin kumulyativ effekti özünü göstərdikdə hiss edilir. Araşdırmalara görə, 30 yaşadək siqaretdən uzaqlaşanların ömürləri təxminən 10 il uzanır. Tütün məmulatlarından asılılıq tibbi-sosial problemdir. Bunun üçün həm tibbi, həm də sosial tədbirlər görülməlidir. Siqaretdən istifadəyə qarşı mübarizə üçün sağlam həyat tərzi təbliğ edilməlidir. Kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə tütün məmulatlarının zərərindən bəhs edən videoçarxlar nümayiş olunmalıdır. Valideynlər öz övladlarına onun zərərlərini başa salmalıdırlar. Tütünə qarşı mübarizədə xüsusilə səhiyyə orqanlarının üzərinə böyük vəzifə düşür. Hazırda tütün məmulatları ilə mübarizə mərkəzləri də fəaliyyət göstərir.

Terapevt Günay Allahverdiyeva isə tələbələrə siqaret, narkotik vasitələr və alkoqolun fəsadları barədə məlumat verib. O vurğulayıb ki, hər il tütünün törətdiyi xəstəliklər nəticəsində dünyada altı milyonadək insan vəfat edir. Yanan siqaret 4 mindən çox müxtəlif kimyəvi birləşmə, o cümlədən, 40-dan çox kanserogen maddə istehsal edir. Siqaret ağciyər xərçəngi başda olmaqla, nəfəs yollarının xroniki xəstəlikləri, ürək-damar xəstəlikləri, düz bağırsaq, uşaqlıq, böyrək, mədəaltı vəzi, öd kisəsi, qida borusu, qırtlaq, ağız boşluğu, udlaq və mədə xərçəngi xəstəliklərinin əmələgəlmə riskini artırır. Əksər siqaret çəkən insanların həyatı 15-20 ilədək qısalır.

Sonda tələbələr məruzəçilərə suallar ünvanlayıb və mövzu ətrafında müzakirələr aparılıb.

# "Pestisidlərin ətraf mühitə və canlı sisitemlərə təsiri" mövzusunda elmi seminar keçirilib

***Aprelin 8-də Biologiya fakültəsində "Pestisidlərin ətraf mühitə və canlı sisitemlərə təsiri" mövzusunda elmi seminar keçirilib.***

Seminarda Zoologiya və fiziologiya kafedrasının müəllimi, biologiya üzrə fəlsəfə doktoru Sevinc Məmmədova mövzu üzrə təqdimat edib. O, pestisidlərin ekosistemə və canlı aləmə təsiri, torpaq və su ehtiyatlarına yaratdığı təhlükələr, həmçinin alternativ ekoloji metodlar barədə ətraflı məlumat verib. Bildirib ki, pestisidlər fiziki, kimyəvi və səciyyəvi xüsusiyyətlərinə görə bir-birindən fərqlənən zəhərli maddələrdir. Pestisidlər zərərvericilərlə mübarizə aparmaq, onlara nəzarət edə bilmək və zərərlərini azaltmaq məqsədilə geniş istifadə olunur. Lakin həmin pestisidlər ətraf mühitdə uzunmüddətli qalma effektinə sahibdirlər. Pestisidlər insan orqanizminə pestisid tozu və buxarları ilə nəfəs alan zaman, yemək və su istehlak edərkən, birbaşa təmas yolu, dəri vasitəsilə keçə bilər. Pestisidlər xüsusən meyvə və tərəvəzlərin üzərinə püskürdüldükdə torpaq və qrunt sularına keçə bilər ki, bu, içməli suyun da çirklənməsinə səbəb olur.

Seminar iştirakçıları pestisidlərin bioloji müxtəlifliyə və insan sağlamlığına mümkün riskləri barədə elmi yanaşmalarla tanış olub və mövzu ilə bağlı müzakirə aparıblar.

# "Dayanıqlı İnkişaf Məqsədləri həftəsi": Gənc istedadlarla görüş

***Aprelin 9-da BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə "Dayanıqlı İnkişaf Məqsədləri (DİM) həftəsi" davam edir.*** Həftənin üçüncü günü "Keyfiyyətli təhsil" məqsədi çərçivəsində BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin şagirdləri ilə görüş keçirilib. Görüşün məqsədi şagirdlərə keyfiyyətli təhsilin əhəmiyyəti, imkanları və bu sahədəki çağırışlar barədə məlumat verməkdir.

BDU THİK-in sədri Zöhrab Cavadzadə ölkəmizdə aparılan təhsil siyasətindən söz açıb, insan kapitalının artırılmasının qanunvericilikdə, strategiya və proqramlarda prioritet məsələ kimi nəzərdə tutulduğunu bildirib.

BDU-nun Tədrisin təşkili və idarə olunması Mərkəzinin Tədris prosesinin idarə olunması şöbəsinin müdiri Fərhad Aydınlı təhsilin əhəmiyyəti və cəmiyyətin inkişafındakı rolundan söz açıb. Həmçinin "Keyfiyyətli təhsil" məqsədində öz əksini tapan gender bərabərliyi və bunun bütün növ təhsil müəssisələrində düzgün icrasının vacibliyini vurğulayıb. Daha sonra şagirdləri ölkədə ali təhsil sisteminin əsasını qoyan və ənənələri ilə məktəb yaradan BDU-nun tədris və elmi fəaliyyəti ilə tanış edib.

Təhsilin İnkişafı Fondunun sədr müavini Xanım Daşdəmirova isə interaktiv formada apardığı təqdimatında qurumun həyata keçirdiyi layihələr barədə məlumat verib, keyfiyyətli təhsilin sağlam vətəndaş amilində əsas rola sahib olduğunu deyib. Hazırda Fondun müxtəlif proqram və layihələr ilə təhsilin bütün pillələri üzrə inkişafı təmin etdiyini bildirib.

Görüşdə qonaqlar düzgün ixtisas seçiminin gələcək həyatın planlanması yolunda atılan əsas addım olduğunu qeyd edib və bu istiqamətdə hər zaman dəstək göstərməyə hazır olduqlarını bildiriblər.

Sonda şagirdlərin mövzu ilə bağlı sualları cavablandırılıb, məsləhətlər verilib.

# BDU tələbələri bank kreditlərinin hüquqi tənzimləməsi ilə bağlı məlumatlandırılıb

***Aprelin 3-də BDU-nun "BDU könüllüləri" təşkilatının Hüquq fakültəsi üzrə üzvlərinin və Mülki proses və kommersiya kafedrasının birgə təşkilatçılığı ilə "Bank kreditləri və hüquqi tənzimləmə: Müqavilədən mübahisəyə qədər" adlı növbəti təlim keçirilib.***

Azərbaycan Mərkəzi Bankının Maliyyə bazarlarının hüquqi təminatı departamentinin direktoru Mehriban Məmmədova tərəfindən keçirilən təlimdə borc və kredit münasibətləri, onların oxşar və fərqli cəhətləri, kredit müqavilələri üzrə öhdəliyin icrasının təmini üsulları, kredit münasibətlərinin tənzimlənməsində Mərkəzi Bankın rolu, bu münasibətlərdən meydana gələn mübahisələr və s. mövzular müzakirə edilib.

Təlimin sonunda tələbələrin bank kreditlərinin hüquqi tənzimlənməsinə dair sualları cavablandırılıb.

# BDU tələbəsi Xədicə Zeynallı kapoeyra üzrə Avropa çempionu olub



***Aprelin 1-də Biologiya fakültəsinin tələbəsi Xədicə Zeynallı Almaniyanın Münhen şəhərində keçirilən "Bimba Open Europe" beynəlxalq kapoeyra turnirində qadınlar arasında "Amadora Feminino" kateqoriyasında I yerə layiq görülərək, Avropa çempionu adını qazanıb.***

Qeyd edək ki, o, 2024-cü ilin iyun ayında Macarıstanın paytaxtı Budapeştdə keçirilən kapoeyra üzrə Avropa çempionatında bürünc medal, oktyabr ayında Bakıda keçirilən Solo Kapoeyra üzrə Bakı Turnirində "Peşəkar qızlar" kateqoriyasında gümüş medal qazanıb.

Tələbəmizi təbrik edir və gələcək fəaliyyətində uğurlar arzulayırıq!

# Geologiya fakültəsinin tələbələri Rusiyada beynəlxalq konfransda məruzə ediblər

***Aprelin 3-də Geologiya fakültəsinin tələbələri Rusiyanın Sankt-Peterburq Dövlət Universitetinin Yer Elmləri İnstitutunda Yer Elmləri Tələbə Elmi Cəmiyyəti tərəfindən keçirilən Beynəlxalq Geoloji Tələbə Sammitində iştirak ediblər. Konfransda dünyanın bir sıra ölkələrindən olan tələbə və doktorantlar, gənc tədqiqatçılar bir araya gəlib.***

Geologiya fakültəsinin Geologiya və geofizika mühəndisliyi ixtisasının ingilis bölməsi üzrə IV kurs tələbəsi Xəyal Hüseynov "Kiçik Qafqazın Azərbaycan hissəsində vulkanizmin son kaynozoy təkamülü haqqında ümumi geoloji məlumat", II kurs tələbəsi Adnan Əliyev isə "Abşeron arxipelaqının yataqlarında qazın tərkibi və məhsuldar təbəqələrin qanunauyğunluqlarının dəyişməsi" mövzularında məruzə ediblər.

Fakültənin Geologiya ixtisasının rus bölməsi üzrə III kurs tələbəsi Aysun Mehtiyeva isə Perm Dövlət Universitetində tələbələrin, doktorantların və gənc alimlərin "İnkişaf edən dünyada geologiya" mövzusunda konfransında onlayn çıxış edib.

# "Natiqsən, ya danışan?" adlı təlim

***"BDU könüllüləri" təşkilatı və "YeniSən" platformasının birgə əməkdaşlığı ilə effektiv kommunikasiyaya dair "Natiqsən, ya danışan?" adlı təlim olub.*** Təlim "YeniSən" platformasının təsisçisi və rəhbəri Turan Şabanov tərəfindən keçirilib. O, effektiv və işgüzar ünsiyyətdə natiqlik bacarıqlarının mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb, bədən dili, jest və mimikalar, səs tonu və emosional vurğuların ünsiyyətdəki yeri barədə ətraflı məlumat verib. Təlim müddətində iştirakçılara natiqlik və sadəcə danışmaq anlayışları arasındakı fərqi əyani və nəzəri şəkildə izah edilib. İnteraktiv və praktiki yanaşmalar əsasında qurulan təlimdə iştirakçılar nəzəri biliklərlə yanaşı, müxtəlif məşğələlər vasitəsilə auditoriya qarşısında öyrəndiklərini tətbiq etmək fürsəti qazanıblar.

# BDU-nun rumıniyalı doktorantı: “Azərbaycan çox təhlükəsiz ölkədir, insanları qonaqpərvərdir”

*Alexandra Stefania Dinulescu Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin rumıniyalı doktorantıdır. Bakalavr təhsilini Rumıniyanın Kraiova Universitetində, magistr təhsilini isə Kraiova və Çex Respublikasının Praqa Metropolitan universitetlərində alıb. Hökumətlərarası Təqaüd Proqramı (HTP) çərçivəsində Azərbaycanda, BDU-da təhsil almaq şansı əldə edən Alexandra Stefania bunun akademik inkişafında mühüm rol oynayacağına əmindir:*

***- Azərbaycanda təhsil almaq qərarını necə verdiniz?***

- Azərbaycanın təhsil sistemi mənə çox cəlbedici göründü. Ölkənizin müxtəlif sahələr, o cümlədən elmi tədqiqatlar üzrə inkişafına diqqət yetirəndən sonra burada təhsil almaq, Azərbaycan mədəniyyətini öyrənmək qərarını verdim. Bu ölkədəki təhsil mühiti, BDU-nun beynəlxalq reytinqlərdəki sıralaması, elmi-tədqiqat imkanlarının genişliyi məni daha da həvəsləndirdi.

***- BDU-da ilk təhsil ilinizi necə dəyərləndirirsiz?***

- Unudulmaz anlarla dolu il oldu. Çoxlu dostlar qazanmışam.



Səmimi mühitdə təhsil almaq, buradakı insanlarla və tələbə yoldaşlarımla qurduğum əlaqələr mənim üçün çox dəyərlidir. Hazırda BDU-nun "Tələbə evi"ndə qalıram. Orda tələbələr üçün yaxşı şərait yaradılıb. Otaqlar geniş və rahatdır. Ümumi otaqlarda həm xarici, həm də yerli tələbələrlə maraqlı vaxt keçiririk. Geniş kitabxanada elmlə məşğul olmaq üçün münbit şərait var. Burda olmaqdan xoşbəxtəm.

***- Hazırda hansı mövzu üzrə tədqiqat aparırsınız?***

- Hazırda milli təhlükəsizliyin artırılmasında enerji və iqtisadi diplomatiyanın rolu, Rumıniya və Azərbaycanın strateji tərəfdaşlıqlarının səmərəliliyə təsiri üzərində araşdırmalar aparıram. Bu tədqiqatda enerji sahəsindəki əməkdaşlığın, iqtisadi diplomatiyanın və geosiyasi əlaqələrin iki ölkənin milli təhlükəsizliyinə necə təsir etdiyini öyrənirəm. Məqsədim Azərbaycan və Rumıniya arasında daha möhkəm əlaqələr qurulmasına kömək etmək və bu sahədə töhfə verməkdir. Bununla yanaşı, Azərbaycanla bağlı daha dərin və müfəssəl araşdırmalar aparmağı düşünürəm.

***- Azərbaycan mədəniyyəti ilə necə uyğunlaşdınız?***

- Azərbaycan mədəniyyəti ilə ilk tanışlığım, milli adət-ənənələri öyrənmək çox maraqlı idi. Novruz bayramını xüsusi qeyd etmək istəyirəm. Novruz şirniyyatları çox dadlıdır. Bayram ərəfəsindəki çərşənbələr, adətlər çox diqqətimi çəkdi.

***- Azərbaycanla bağlı ən çox sevdiyiniz məqam hansıdır?***

- Azərbaycan çox təhlükəsiz ölkədir, insanları qonaqpərvərdir. Bu xüsusiyyətlər mənim daha tez uyğunlaşmağımda, buranı ikinci Vətənim kimi hiss etməyimdə mühüm rol oynadı. Azərbaycanın təbiəti, mətbəxi və insanları əvəzolunmazdır.

***- Azərbaycan və Rumıniya arasında əlaqələrin gələcəyini necə görürsünüz?***

- Ölkələrimiz arasında əlaqələrin gələcəyinə çox ümidlə baxıram. Həm iqtisadiyyat, həm də mədəniyyət sahələrində iki ölkə arasında əlaqələr daha da dərinləşə bilər. Xüsusilə enerji, ticarət və turizm sahələrində daha çox əməkdaşlıq və təcrübə mübadiləsi faydalı olardı. Bu əlaqələrin inkişafı həm regional, həm də beynəlxalq səviyyədə ölkələrimiz üçün böyük imkanlar yarada bilər.

***- Gələcəklə bağlı hansı planlarınız var?***

- Akademik fəaliyyətlə məşğul olmaq istəyirəm. Rumıniyaya qayıtdıqdan sonra Azərbaycan mədəniyyətini daha yaxşı tanıtmaq, ölkələrimiz arasında əlaqələrin inkişafına dəstək vermək niyyətindəyəm.

**Müsahibəni hazırladı:**
*Nərminə Əsədova*

# “Fərqli fərdlər” himninə çəkilən klipin təqdimatı



***Aprelin 30-da Bakı Dövlət Universitetində “BDU könüllüləri” təşkilatının təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud uşaqlara həsr olunmuş “Fərqli fərdlər” himninə çəkilən klipin təqdimatı keçirilib. Klip Mədəniyyət Nazirliyinin dəstəyi, “Ümid var” İnklüziv Yaradıcılıq Birliyinin, “Uşaqların Xoşbəxt Gələcəyi” İctimai Birliyinin təşkilatçılığı, “PASHA Holding”in sponsorluğu ilə çəkilib.***

Tədbirin moderatoru, nitq və jest dili üzrə təlimçi Nuranə Abıyeva tədbirin təşkilatçılığında göstərdiyi dəstəyə görə Universitetin rəhbərliyinə və “BDU könüllüləri” təşkilatına təşəkkürünü bildirib. Qeyd edib ki, inklüziv cəmiyyətin əsas qayəsini əlilliyi olan şəxslərin cəmiyyətin ayrılmaz bir parçası kimi gündəlik fəaliyyətlərə cəlb edilməsi və onların digər həmyaşıdlarına bənzər şəkildə resurs və imkanlara çıxışının təmin edilməsi təşkil edir.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov vurğulayıb ki, bu gün ölkəmizdə sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə dövlət proqramları icra edilir. BDU bu istiqaməti tədrisin və sosial həyatın təşkili prosesində öz strategiyasına əlavə edərək, uğurla icra edir: “Sağlamlıq imkanları məhdud şəxsləri bütün proseslərə cəlb etmək və inkişaflarını təmin etmək əsas məqsədlərimizdəndir. Çünki onlar əngəlli deyil, sadəcə fərqlidirlər”.

“Ümid var” İnklüziv Yaradıcılıq Birliyinin sədri Nazilə Məhərrəmova və autizm üzrə araşdırmaçı Əsmər Əskərova bu himnin inklüziv cəmiyyətə töhfə vermək məqsədi daşıdığını və universitetlərdə keçirilən belə tədbirlərin tələbə gənclərin bu tip məsələlərə həssaslığını artırdığını vurğulayıblar.

Tədbir əlilliyi olan uşaqların hazırladığı xüsusi konsert proqramı ilə davam edib.

Qeyd edək ki, himn Heydər Əliyev Fondunun dəstəyi, “Caspian Event Organisers” şirkətinin təşkilatçılığı ilə xüsusi qayğıya ehtiyacı olan insanlara həsr olunan “Fərqli fərdlər” beynəlxalq konqresinin təşəbbüsü və sponsorluğu, “Ümid var” İnklüziv Yaradıcılıq Birliyinin üzvlərinin iştirakı ilə hazırlanıb. Himnin musiqisi Tural Məmmədliyə, sözləri isə Leyla Quliyevaya məxsusdur. Klipin rejissoru isə Ülviyyə Könüldür.

# BDU-da çiçəkəkmə aksiyası



***Aprelin 25-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı, “BDU könüllüləri”, Tələbə Gənclər Təşkilatının dəstəyi ilə çiçəkəkmə aksiyası keçirilib.***

Çiçəkəkmə aksiyasında adıçəkilən gənclər təşkilatlarının üzvləri, müxtəlif fakültələrin tələbələri iştirak ediblər.

Aksiya zamanı Universitetin həyətində müxtəlif növlü çiçəklər əkilib, quşlar üçün evciklər düzəldilib, işıq dirəklərinə gül dibçəkləri quraşdırılıb.

Aksiyanın məqsədi ətraf mühitin qorunmasına kömək etmək, ekoloji tərbiyəni gücləndirmək və təbiətə töhfə verməkdir.



**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30 .04.2025

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08